UNITED NATIONS
GEORGIA

World Vision
GEORGIA



# PANDEMİYA DÖVRÜNDƏ BAĞÇALAR

## MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏR ÜÇÜN PRAKTİKİ MƏLUMAT KİTABÇASI

2021

World Vision
GEORGIA

UNITED NATIONS
GEORGIA

# PANDEMİYA DÖVRÜNDƏ BAĞÇALAR

## MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏR ÜÇÜN PRAKTİKİ MƏLUMAT KİTABÇASI

***(PİLOT VERSİYASI)***

GÜRCÜSTAN TƏHSİL, ELM, MƏDƏNİYYƏT VƏ İDMAN NAZİRLİYİ

**2021**

**Məlumat kitabçası üzrə işlədilər:**

**Tsira Barkaia** – psixoloq, inklüziv və erkən təhsil üzrə mütəxəssis; „WV Gürcüstanın" erkən yaşında uşağın inkişafı proqramının koordinatoru, məlumat kitabçasının eksperti

**Zurab Alxanişvili** – sağlamlığın dəstəkləndirilməsi üzrə magistr, „WV Gürcüstanın" konsultantı: məlumat kitabçasının səhiyyə eksperti

**Nana Qoçiaşvili** – sosial işçi, hüquqşünas, „WV Gürcüstanın" konsultantı – məlumat kitabçasının uşaqların müdafiəsi üzrə eksperti

**Teona Guluxadze** – ictimai siyasət və idarəetmə üzrə mütəxəssis, məktəbəqədər təhsil üzrə mütəxəssis, „WV Gürcüstanın" konsultantı: məlumat kitabçasının məktəbəqədər təhsilin idarəetməsi üzrə eksperti

**Ninu Kiknavelidze** – psixoloq, erkən təhsil üzrə mütəxəssis, „WV Gürcüstanın" konsultantı: məlumat kitabçasının məktəbəqədər təhsil üzrə eksperti

**Mariam Xvadaqiani** – neyro-psixoloq, „WV Gürcüstanın" konsultantı: məlumat kitabçasının psixoloqu

**Maia Baqrationi-Qruzinski** – inklüziv təhsil üzrə konsultant, neyro-psixologiya magistri, „WV Gürcüstanın" konsultantı: məhdud imkanlıların məsələləri üzrə ekspert

Redaktor: **Çabuki Kiria**
Cildləyən dizayner: **Nikoloz Lomidze**
Dizayn: **Qvantsa Maxatadze**
Tərcümə edəni: **Əhmədova Qızxanım**

World Vision Gürcüstan
Tbilisi, 2021

gürcücə mətninin Azərbaycan dilinə tərcüməsi World Vision Gürcüstan (WVG )tərəfindən BMT-nin Gürcüstanda Daimi Koordinator Ofisinin (RCO) dəstəyi ilə hazırlanmışdır.

**„World Vision Gürcüstan"** artıq 20 ildir ki, uşaqların müdafiə sistemlərinin gücləndirilməsinə və cəmiyyətin rolunun aktivləşdirilməsinə qayğı göstərir ki, uşaqların firavanlığı üçün inklüziv, tolerant, ədalətli və bərabər mühit yaransın.

Təşkilat bu məqsədin əldə edilməsi üçün kompleksli yanaşmadan istifadə edir ki, bu da ailənin gücləndirilməsini, təhsil müəssisələrinin dəstəkləndirilməsini və icmanın cəlb olunmasını nəzərdə tutur. COVID-19 pandemiyası qlobal şəkildə təhsil sistemini çağırış qarşısına qoydu. Gürcüstanda mövcud məktəbəqədər və ümumtəhsil müəssisələri də istisna halı təqdim etmirlər. Həm müəssisələrin ardıcıl fəaliyyəti və təhsil prosesinin distant aparılması, eləcə də təhsilin əlçatması təhlükə ilə qarşılaşdı.

2020-ci ilin yeni akademik ilindən dövlət tərəfindən işlənib hazırlanmış tənzimləmələrin və tövsiyələrin nəzərə alınması üçün məktəbəqədər təhsil müəssisələrinə əlavə dəstək lazım olacaqdır.

Məhz bu məqsədlə, **„World Vision Gürcüstan"**-ın təşəbbüsü ilə həm məktəb, eləcə də məktəbəqədər təhsil istiqamətində müxtəlif ixtisaslar üzrə ekspertlər dəstəsi yaradıldı.

Fənlərarası dəstənin məqsədini Gürcüstan Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin və Xəstəliklərə Nəzarət və Milli İctimai Səhiyyə Mərkəzi ilə əməkdaşlıq əsasında məktəblər və məktəbəqədər müəssisələr üçün praktiki məlumat kitabçasının işlənib-hazırlanması təqdim edirdi ki, bu da səhiyyə tənzimləmələrinə əsasən təhsil prosesinin aparılmasını yüngülləşdirəcəkdir.

Qeyd etmək lazımdır ki, həm fəaliyyətdə olan rəhbərlər, eləcə də sahə mütəxəssisləri məlumat kitabçasının hazırlanması və təkmilləşdirilməsi prosesinə cəlb olunmuşdular.

Pandemiya şərtlərində təhsil müəssisələrinin fəaliyyəti çox mürəkkəb və dəyişkən bir prosesdir. Gürcüstanda fəaliyyət göstərən məktəblər və məktəbəqədər müəssisələr müxtəlif çağırışlarla üzləşdilər.

Qarşıdakı sənəd – „Pandemiya dövründə bağçalar: məktəbəqədər müəssisələr üçün praktiki məlumat kitabçası" pilot versiyanı təqdim edir; onun təkmilləşdirilməsi üçün cari semestr ərzində məlumatlar və təcrübəçilərin çağırışları toplanıldı və bunlar da imkan daxilində kitabçada öz əkslərini tapdılar və bundan sonra yekun şəkil verildi.

Elə buradaca Gürcüstan Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə və Xəstəliklərə Nəzarət və Milli İctimai Səhiyyə Mərkəzinə əməkdaşlıq və konkret tövsiyələr üçün təşəkkürümüzü bildirmək istəyirik.

Konsultasiya qrup üzvlərinin məlumat kitabçasının işlənib hazırlanmasının müxtəlif mərhələlərində bizə təqdim etdikləri bu çağırışlar və praktiki məsləhətlər xüsusilə vacib idi və onlara dərin təşəkkürümüzü bildiririk.

World Vision Gürcüstan qarşıdakı kitabçanın tərcüməsinə dəstək verdiyinə görə, BMT-nin Gürcüstanda Daimi Koordinator Ofisinə təşəkkürünü bildirir.

Ümidvarıq ki, pandemiya şərtlərində dərs prosesinin yeniləndirilməsində və aparılmasında məlumat kitabçası təhsil müəssisələrinə önəmli dəstək olacaqdır.

Məlumat kitabçasının təkmilləşdirilməsi məqsədilə təkliflərinizi, çağırışlarınızı, suallarınızı elektron poçt ünvanımıza göndərə: tsira_barkaia@wvi.org və ya facebook səhifəmizdə yaza bilərsiniz: World Vision Georgia

# MÜNDƏRICAT


**COVID 19 ŞƏRTLƏRİNDƏ MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ SƏHİYYƏ VƏ TƏHLÜKƏSİZLİK** . . . . . . 6
COVID 19-un prevensiyası və menecmenti . . . . . 6
Məktəbəqədər müəssisəyə səfər . . . . . 7
İnfeksiyalara nəzarət tədbirləri . . . . . 8
UŞAQLARIN VƏ PERSONALIN İZOLYASİYA EHTİYACI . . . . . 9

**MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ UŞAĞIN HÜQUQLARININ MÜDAFİƏSİNƏ YÖNƏLMİŞ YANAŞMA** . . 11
COVID19 pandemiya şərtlərində uşağın hüquqlarının müdafiəsi . . . . . 11
Erkən təhsilin əhəmiyyəti . . . . . 11
Məktəbəqədər müəssisənin uşağın hüquqlarının müdafiəsi istiqamətində rolu . . . . . 12
Sağlamlıq hüququnun müdafiəsi . . . . . 13
Fərdi məlumatların müdafiəsi . . . . . 14
Uşağın məlumatlandırılması və qərarın qəbulu prosesinə cəlb olunması . . . . . 15

**COVID 19 ŞƏRTLƏRİNDƏ MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRİN FƏALİYYƏTİNƏ DƏSTƏYİN VERİLMƏSİ, İDARƏ EDİLMƏSİ VƏ METODOLOJİ DƏSTƏK** . . . . . 18
Munisipalitetlərə tövsiyələr . . . . . 18
Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınların Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin tövsiyələri . . . . 21
Valideynlərə/qanuni nümayəndələrə tövsiyələr . . . . . 24
GÜRCÜSTAN TƏHSİL, ELM, MƏDƏNİYYƏT VƏ İDMAN NAZİRLİYİNİN TÖVSİYƏLƏRİ . . . . . 25

**COVID 19 ŞƏRAİTİNİ NƏZƏRƏ ALMAQLA, MƏKTƏBƏQƏDƏR TƏHSİL XİDMƏTLƏRİNİN ÇATDIRILMA FORMALARI** . . . . . 27
Məktəbəqədər təhsil xidmətlərinin çatdırılmasının əyani forması . . . . . 27
Məktəbəqədər təhsil xidmətlərinin çatdırılmasının distant forması . . . . . 29
Məktəbəqədər təhsil xidmətinin çatdırılmasının hibrid forması . . . . . 32

**COVID 19-UN SƏBƏB OLDUĞU PANDEMİYA ŞƏRTLƏRİNDƏ MƏKTƏBƏQƏDƏR TƏHSİL XİDMƏTİNİN ÇATDIRILMA PROSESİNDƏ UŞAQLARIN EMOSİONAL FİRAVANLIĞI** . . . . . 36
Tərbiyəçi təlimin başlanılması üçün necə hazırlaşır . . . . . 40
Valideynin dəstəyi ilə uşaq məktəbəqədər müəssisəyə necə hazırlaşır . . . . . 41
Valideyn uşağı məktəbəqədər müəssisə üçün necə hazırlayır? . . . . . 42
Təhsil prosesində maksimal şəkildə xoş emosional mühiti necə yaradaq? . . . . . 43
Uşağın qrupda olduğunda yüksək temperaturu təsbit edilərsə ($37^0$ və ya daha yüksək) . . . . . 44

**TƏDRİS PERSONALININ EMOSİONAL FİRAVANLIĞI** . . . . . 45
TƏHSİL PERSONALININ EMOSİONAL FİRAVANLIĞININ QORUNUB SAXLANILMASI ÜÇÜN TÖVSİYƏLƏR . . . . . 45

**XÜSUSİ TƏHSİLƏ EHTİYACI OLAN UŞAQLARIN TƏHSİL PROSESİNİN TƏŞKİLİ ÜÇÜN TÖVSİYƏLƏR** . . . . 47
Xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün məktəbəqədər təhsilin əyani forması . . . . . 47
Xüsusi təlimə ehtiyacı olan uşaq üçün məktəbəqədər tədrisin distant forması . . . . . 51
Distant tədris prosesinin təşkili və həyata keçirildiyi zaman xüsusi müəllimin rolu . . . . . 54
Dəstəkləyici xidmətlərin çatdırılması zərurəti . . . . . 56

**ƏLAVƏLƏR** . . . . . 57
Əlavə №1. Məktəbəqədər müəssisələrin təmizlik protokolunun nümunəsi . . . . . 57
Əlavə №2. Əməkdaşlar üçün hazırlanmış qeydiyyat vərəqinin nümunəsi . . . . . 59
Əlavə №3. Məktəbəqədər müəssisənin meneceri üçün tərtib edilmiş qeydiyyat vərəqinin nümunəsi . . . . . 65
Əlavə №4. Valideynlər üçün tərtib edilmiş qeydiyyat vərəqinin nümunəsi . . . . . 73
Əlavə №5. Uşağım distant tədris prosesinə hazırlığı . . . . . 77

**İSTIFADƏ EDILƏN ƏDƏBIYYAT** . . . . . 78

# COVID 19 ŞƏRTLƏRİNDƏ MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ SƏHİYYƏ VƏ TƏHLÜKƏSİZLİK

## COVID 19-un prevensiyası və menecmenti

**Qarşıdakı fəsildə səhiyyə baxımından tövsiyələr təqdim edilir və bunlar da məktəbəqədər təhsil müəssisələrində məktəbəqədər təhsil xidmətinin əyani və ya hibrid forması ilə həyata keçirilməsinə aiddir (“COVID 19 şərtlərinin nəzərə alınması ilə məktəbəqədər təhsil xidmətinin çatdırılması formaları ” fəslini izləyə bilərsiniz).**

COVID19-un prevensiyası üçün hər bir məktəb müəssisəsi ictimai səhiyyə məsələlərini tənzimləyən dünya və yerli tövsiyələrə istinad edən bir sıra tədbirləri həyata keçirməlidir. Məktəbəqədər müəssisələrin funksiyasını nəzərə almaqla, preventiv tədbirlərə, effektiv müşahidə mexanizminin yaradılmasına və əlaqələrin azaldılmasına üstünlük verilməlidir. Qarşıdakı məlumat kitabçasında təqdim edilən tövsiyələr tədris prosesinin əyani və ya hibrid forma ilə aparıldığı hal üçün nəzərdə tutulmuşdur.

Məktəbəqədər müəssisə uşaqların və əməkdaşlarının qarşısında daşıdığı məsuliyyəti dərk etməlidir. Hər bir əməkdaşa COVID 19 pandemiya şərtlərində mövcud çağırışların, arzu edilən və edilməyən davranışların, daxili protokolların, prevensiya vasitələrinin barəsində ətraflı məlumat verilməlidir. Məhz məktəbəqədər müəssisənin məsuliyyəti konkret qrupun və ya məktəbəqədər müəssisənin tədris prosesinin həyata keçirilməsi və idarəetməsi rutininin qorunub saxlanılması məsələsini müəyyənləşdirir, çünki personalın və ya uşağın COVID 19-a yoluxduğu halda, təhsil prosesinin davam etdirilməsi, dayandırılması və ya şəklinin dəyişdirilməsi məsələsi üzrə qərar epidemioloji müşahidə əsasında veriləcəkdir. Məktəbəqədər müəssisə məkanında mövcud əlaqələr, əlaqələrin intensivliyi, müdafiə vasitələrinin və mövcud tövsiyələrin nəzərə alınması səviyyəsi və başqa məsələlər öyrənilməli və nəzərə alınmalıdır. Müvafiq olaraq, bunları nəzərə almalı və hər bir qrupla yalnız eyni dəstənin işləməsini təmin edən tədbirləri təcrübədə həyata keçirməliyik. Tərbiyəçilərin/köməkçilərin müxtəlif qruplara mobilliyi az-az baş verməlidir. İşçilərin bölgüsü və daxili menecment dəyişikliyi halında, nəzərə almaq lazımdır ki, qrupda xüsusi ehtiyacı olan uşaq olduğunda, tərbiyəçi ilə birlikdə mütləq tərbiyəçinin köməkçisi və ya başqa köməkçi mütəxəssis işləməlidir.

Məktəbəqədər müəssisənin növbəti məsələlərə koordinatorluq edəcək cavabdeh şəxsi müəyyənləşdirməsi vacibdir:

- qonaqların (qonaq binaya daxil olan hər hansı bir şəxs ola bilər) termoskrininqi və pandemiya şəraitində qanunla müəyyən edilmiş sənədlərin aparılması;
- fərdi müdafiə vasitələrinin təchizatı, qonaqlar tərəfindən bunların düzgün və uyğun istifadəsi;
- əməkdaşlar tərəfindən fərdi müdafiə vasitələrinin istifadəsi;
- əməkdaşlar arasında fiziki/sosial məsafənin təmin edilməsi (uşaqlar arasında və ya uşaqlarla münasibətdə fiziki/sosial məsafəyə riayət etmək öhdəliyi yoxdur. Hər bir yetkin üçün öz aralarında lazımi fiziki/sosial məsafəyə əməl edilməsi məcburidir);
- səthlərin dezinfeksiya protokoluna əməl edilməsi və monitorinq;
- uşaqların qarşılanması/yola salınması proseslərinin planlaşdırılması, idarə edilməsi və monitorinqi;
- təbii və ya süni ventilyasiya sisteminin effektiv fəaliyyəti;

- tənzimləyici orqanlar tərəfindən təqdim edilən tövsiyələrin nəzərə alınması və tənzimləmələrin tətbiqi məqsədilə əməkdaşların hazırlanması;
- tənzimləyici orqanlar tərəfindən təqdim edilən tövsiyələrə və tənzimləmələrə əməl edilməsinin və nəzarətinin təmin edilməsi, o cümlədən:
  - yığışdırılmanın, təmizləmənin, dezinfeksiyanın, qida və su istifadəsinin protokollarına əməl və nəzarət edilməsinin təmin edilməsi;
  - Bufetin sanitar-gigiyena vəziyyəti və qida məsələlərinin idarə edilməsi.
  - COVID-19 pandemiya şəraitində fəaliyyət göstərən məktəbəqədər müəssisələrlə bağlı başqa tövsiyələrin və tələblərin implementasiyası və monitorinqi;
- COVID-19 pandemiyası ilə bağlı çağırışların və məktəbəqədər müəssisədə həyata keçirilmiş və ya planlaşdırılmış əməli dəyişikliklər barəsində valideynlərin məlumatlandırılması.

Sözügedən məsuliyyətlər müxtəlif mövqelərdə işlə təmin olan işçilər arasında bölünə bilər.

## Məktəbəqədər müəssisəyə səfər

Məktəbəqədər müəssisə ərazisinə kənar şəxslərin girişi maksimal şəkildə məhdudlaşdırılmalıdır. Uşaqların qəbulu və yola salınması məktəbəqədər müəssisənin girişində həyata keçirilir. Prosesə məktəbəqədər müəssisənin nümayəndəsi cəlb olunur, valideynlə/qanuni nümayəndə ilə əlaqədə olur və uşağın qəbul edilməsi/yola salınması öhdəliyini üzərinə götürür.

Uşaq üçün hər hansı bir yenilik çağırışdır, yeni mühit, gündəlik həyat və qaydalar isə müəyyən hissədə stresə səbəb ola bilər. Qeyd edilən çağırışın qarşısında həm məktəbəqədər müəssisə, eləcə də məktəbəqədər müəssisəyə birinci dəfə gələn uşaq və onun valideyni durur. Məhz bunun üçün də valideynin məktəbəqədər müəssisə ilə uyğunlaşma prosesinə cəlb olunması tanınmış təcrübəni təqdim edir və bu da valideynlərin tədris prosesinə cəlb olunmasını və müəssisədə uşaqların ətrafında olan zaman tərbiyəçinin asistentliyini nəzərdə tutur. COVID-19 pandemiya şərtlərində qeyd edilən təcrübə infeksiyaların prevensiyası və nəzarəti nöqteyi-nəzərdən, müəyyən riskləri əhatə edir və valideynlərin və ya başqa şəxslərin (müəssisə əməkdaşlarından başqa) müəssisə binasına məhdud girişinin olduğuna görə, tədris ilinin birinci mərhələsində ilk görüşlərin (məsələn, qarşılama) açıq məkanda keçirilməsi tövsiyə olunur, bunun üçün də müəssisənin açıq məkanlarından istifadə olunmalıdır – həyət, veranda və s. Sözügedən təcrübəni həyata keçirdikdə, yetkinlər arasında ən azı 1 metrlik fiziki/sosial məsafə saxlanılmalı və yetkinlər maskadan istifadə etməlidirlər, fəallıqda müəyyən sayda şəxslərin iştirakı təmin edilməlidir. Məktəbəqədər müəssisələr üçün COVID-19 pandemiyaya görə işlənilmiş səhiyyə tənzimləmələri nəzərə alınmalıdır.

Distribusiya şirkətlərinin nümayəndələri binaya yalnız maskadan istifadə etməklə daxil ola bilərlər. Məktəbəqədər müəssisənin dezobaryerinin olmadığı halda, baxillərin geyinilməsi məcburi tələbdir.

Qonaqlardan hər biri distant termometrin istifadəsi ilə termoskrininqdən keçir. Qonağın hərarəti müşahidə olunursa ($37^0$ və ya çox), məktəbəqədər müəssisənin binasına daxil olmur. Nəzərə almaq lazımdır ki, müxtəlif səbəbdən temperaturun artması müvəqqəti olaraq da qeyd oluna bilər, buna görə də 15-30 dəqiqədən sonra yenidən yoxlanılması tövsiyə olunur.

Qonağa istirahət etməyə imkan verilməli və binanın girişində onun üçün uyğun yer təmin edilməlidir.

Hər kəs binaya dezobaryerdən keçməklə, termoskrininq və əl gigiyenasına əməl etdikdən sonra daxil olur. Uşaqlardan başqa, binaya hər kəs maska ilə daxil olur.

Qonağın yüksək temperaturu qeyd olunduğu və məktəbəqədər müəssisəyə buraxılmadığı halda, ona tövsiyə verilməlidir ki, ictimai nəqliyyatdan istifadə etməsin və ailə həkiminə və ya qızdırma mərkəzinə müraciət etsin.

Xüsusi mühitlərə görə, kənar şəxsin binaya girişinin zəruri olduğu halda, həmin şəxs maska, qoruyucu dəbilqə və ya başqa mühafizə vasitələri ilə təchiz edilməlidir, gəlişinin məqsədi və spesifikası nəzərə almaqla.

# İnfeksiyalara nəzarət tədbirləri

Tövsiyə edilir ki, müdiriyyət əməkdaşlar üçün infeksiyaların prevensiyası məsələləri üzrə (məsələn, əl gigiyenası, öskürmə və asqırma etiketi, maskadan istifadə qaydaları, infeksiyanın ötürülmə yolları) görüşlər keçirsin, preventiv metodları və mövcud tənzimləmələri tanış etsin. Qeyd edilən informasiya görüşlərinin ardıcıllığının təmin edilməsi vacibdir.

Yaxşı olardı ki, valideynlərlə, uşaqlarla və başqa maraqlı şəxslərlə/cəlb olunmuş tərəflərlə görüşlər keçirilsin.

Qonaqların hamısı (uşaqlar da daxil olmaqla) məktəbəqədər müəssisəyə (binaya) yalnız termoskrininq və əl gigiyenası prosedurlarını keçdikdən sonra daxil olurlar. Əl dezinfeksiyası üçün ayrılmış antiseptik vasitələr 70%-lik alkoqoldan ibarət olmalı və bunların dispenserləri məktəbəqədər müəssisənin binasının girişində yerləşdirilməlidirlər, ümumi istifadə məkanları yaxınlığında (izolyasiya otağı, bufet və s.), hər kəs üçün əlçatan olmalı və əllərin təmizlənməsi təlimatı müşayiət etməlidir.

Qəbul otağında və əməkdaşların toplaşdıqları yerlərdə COVID 19-la bağlı preventiv tədbirlər haqqında informasiya posterləri yerləşdirilməlidir, sanitar qovşaqlarında – əllərin yuyulması və antimikrob vasitələrin istifadəsi təlimatı. Binanın girişində mövcud dezobaryer yaxınlığında onun istifadəsi təlimatı da yerləşdirilməlidir. Posterlər hər kəs üçün, o cümlədən uşaqlar üçün maksimal olaraq anlaşılan və əlçatan olmalıdır.

Qeyd etmək lazımdır ki, əllərin antiseptik məhlulla təmizlənməsi əllərin sabunla yuyulmasının alternativi deyil. Əllər üçün antimikrob vasitələrdən əllərin müəyyən səbəbdən yuyulması mümkün olmadığı halda, istifadə olunur. Müvafiq olaraq əl-üz yuyulan çanaqlar/sanitar qovşaqları və antimikrob vasitələrin dispenserləri binadakı otaqlarda müvafiq şəkildə bölünməlidir.

Əllərin yuyulması üçün əlüzyuyan çanaq, axar suyun ardıcıl çatdırılması, duru sabun və birdəfəlik salfetlər təmin edilməlidir. Elektron quruducunun istifadəsi arzu edilmir və dəsmaldan istifadə etmək olmaz. Əlüzyuyanın yanına əyani vəsait yapışdırılmalıdır: “əllərin yuyulma mərhələləri”.

Su/sanitar qovşaqların sulu təmizlənməsi üçün məktəbəqədər müəssisə protokol işləyib hazırlamalıdır və bunda da təmizliyin müddəti, istifadə olunan sanitar-gigiyena vasitələri, çanaqların, unitazların və sairələrin səthlərinin təmizlənmə qaydaları yazılmalıdır. Nəzərə çarpan çirklənmə hallarında, dərhal səthlər təmizlənməli, gündəlik təmizlənmə isə qrupların dəyişdiyi vaxtda və ya istirahət vaxtında tövsiyə olunur (Baxın Əlavə №1: məktəbəqədər müəssisənin təmizlik protokolunun nümunəsi).

Məktəbəqədər müəssisədə sulu təmizlənməsi mümkün olmayan oyuncaqlar olmalı deyil. Dərs resurslarına (oyuncaqların və s.) qulluq Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınların, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin tənzimləmələri ilə təyin edilən qaydalara uyğun tövsiyələrə əsasən həyata keçirilir.

Təmizlik üçün ayrılmış avadanlıq (məsələn, bez, tualet, unitaz təmizləyici şotka və s.) yuyulmalı və qurudulmalıdır. Onların islaq vəziyyətdə qapalı otaqlarda yerləşdirilməsinə yol verilmir.

Xadimə iş prosesində fərdi mühafizənin növbəti vasitələrindən istifadə edir:
- Dəfələrlə istifadə olunan əlcəklərdən;
- Üz üçün dəbilqədən;
- Sukeçirməyən birdəfəlik xalatdan;
- Tibbi maskadan;
- Bağlı ayaqqabılardan.

## UŞAQLARIN VƏ PERSONALIN İZOLYASİYA EHTİYACI

Uşaqlarda və personalda gün ərzində temperaturun yüksəlməsi müşahidə oluna bilər (37$^{0}$ C və yuxarı), bu zaman onların xüsusi ayrılmış otaqda izolyasiyası gərəkdir. Uşaqların izolyasiyası zamanı psixi-sosial ehtiyacları nəzərə alınmalıdır (Baxın: „COVID 19-un səbəb olduğu pandemiya şərtlərində məktəbəqədər təhsil xidmətinin çatdırılma prosesində uşaqların emosional firavanlığı” fəsli).

İzolyasiya otağının mütləq təbii və ya süni ventilyasiya sistemi olmalıdır. Otaqda birdən çox uşaq olduğunda, onların arasında 1 metrlik fiziki məsafə saxlanılmalıdır, öskürmə və asqırma kimi simptomların müşahidə olunduğu halda, ayırıcı sədlərdən istifadə oluna bilər.

İzolyasiya otağında olmalıdır: kətil/kreslo/divan, əlüzyuyan, birdəfəlik salfetka, duru sabun və antimikrob əl vasitələri.

Yüksək temperatur qeydə alınan kimi müəssisənin nümayəndəsi valideynlə əlaqə saxlamalı, uşağın sağlamlıq vəziyyəti ilə bağlı məlumat verməli, uşağı məktəbəqədər müəssisədən aparmağı xahiş etməli və növbəti addımlar haqqında məsləhət verməlidir, o cümlədən:
- Valideyn ailə həkiminə/qızdırma mərkəzinə müraciət etməlidir;
- Valideyn uşağı apardığında ictimai nəqliyyatdan istifadə etməməlidir.

Müəssisə izolyasiya otağından uşağı çıxardıqdan sonra ümumi tənzimləmələr əsasında hərəkət etməli və yaxşı olardı ki, valideyn və ya qanuni nümayəndə müəssisə binasına girmədən, uşağı təhvil götürsün.

Təcili tibbi yardım briqadası yalnız uşağın tibbi ehtiyaclarına (tibbi göstəricilərinə) görə çağırıla bilər. Onların binaya daxil olduğunda sədlər yaradılmamalıdır. Təcili yardımın çağırılması haqqında valideynin və ya qanuni nümayəndənin xəbərdar edilməsi vacibdir.

Uşağı/uşaqları izolyasiya otağında təkbaşına qoymaq olmaz. Uşaq cavabdeh şəxsin nəzarəti altında olmalı və bunu da məktəbəqədər müəssisə təmin etməlidir. Cavabdeh şəxs (uşağın verilən vəziyyətdə özünü rahat hiss edə biləcəyi şəxsin olması arzu olunur) növbəti fərdi müdafiə vasitələri ilə təchiz olunmalıdır:
- maska;
- müdafiə dəbilqəsi;
- birdəfəlik mayekeçirməyən xalat.

Unutmayın ki, uşaqlarda temperaturun artması fiziki fəallıq və emosional fona görə də müşahidə oluna bilər, buna görə də 15-30 dəqiqə ərzində onlara dincəlmək imkanını verin və sonra yenidən temperaturunu ölçün. Təkrar ölçüldüyü halda, uşaqda 37$^{0}$C və ya yüksək temperaturun müşahidə olunmadığı halda, onu qrupa qaytarmaq olar. Məktəbəqədər müəssisənin işçisində də oxşar hal baş verdikdə də analoji davranırıq.

Uşağın izolyasiya otağına aparıldığı halda, nəzərə almaq lazımdır ki, qrup böyüyün nəzarəti xaricində qalmasın. Uşağın qrupdan çıxarılması sakit vəziyyətdə baş verməlidir ki, heç bir uşaqda stres yaratmasın və təhsil prosesi davam etsin.

Personalın yüksək temperaturu (37$^0$ C və yuxarı) qeydə alındığı halda, personal evə getməlidir (izolyasiya otağına keçdiyi halda, orada temperaturunu ölçür və hərarəti yüksək olduğunda evə gedir).

Məktəbəqədər müəssisə yüksək temperaturu ((37$^0$ C və yuxarı) olan uşağın və personalın kimliyini və onun sağlamlıq vəziyyəti haqqında informasiyanın məxfiliyini qoruyub saxlamalıdır. Bu onu bildirir ki, məktəbəqədər müəssisə uşağın və ya personalın sağlamlıq vəziyyəti ilə bağlı informasiyanı başqa şəxslər, o cümlədən uşaqlar/valideynlər arasında yaymamalıdır.

Məktəbəqədər müəssisə başqa uşaqların valideynlərinə/qanuni nümayəndələrinə qrupda mövcud ehtimal hal haqqında məlumat verməli deyil.

Məktəbəqədər müəssisə əvvəlcədən məxfiliyə əməl etməli və protokolların başqa bəndləri haqqında uşağın valideynlərinin və ya qanuni nümayəndəsinin məlumatlandırılmasını təmin etməlidir.

Təhsil prosesi respirator sistemin xəstəlik simptomlarına malik uşağın və ya personalın COVID-19 diaqnozu laboratoriya cəhətdən təsdiq edildiyinə qədər davam edir, bundan sonra isə təhsil prosesinin davam etməsi haqqında qərar epidemioloji qrupun nəticə və tövsiyələri əsasında qəbul edilir.

İzolyasiya otağında uşağa yönəlmiş, mühafizə olunan və təhlükəsiz, stres yaratmayan fiziki və sosial mühit yaradılmalıdır (Baxın: „COVID 19-un səbəb olduğu pandemiya şərtlərində məktəbəqədər təhsil xidmətinin çatdırılma prosesində uşaqların emosional firavanlığı” fəsli).

İzolyasiya otağı sulu qayda ilə təmizlənməli və boşalan kimi dezinfeksiya edilməlidir.

***Ümumi tövsiyələr:***

- Məktəbəqədər müəssisədə əməkdaşlar 1 metrlik məsafəyə əməl edilməlidir, o cümlədən, ümumi istifadənin bufet və ya istirahət otağı kimi yerlərində;
- Ümumi istifadə məkanlarında (həyət, zal, bufet və s.) fəallıqlar əvvəlcədən müəyyən edilmiş cədvələ uyğun olaraq həyata keçirilməlidir ki, bir məkanda uşaqların və işçilərin sayı maksimal şəkildə azaldılmalıdır. Elə olmalıdır ki, yetkinlər arasında bir metrlik fiziki məsafə prinsiplərinə əməl edilsin.

# MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ UŞAĞIN HÜQUQLARININ MÜDAFİƏSİNƏ YÖNƏLMİŞ YANAŞMA

## COVID19 pandemiya şərtlərində uşağın hüquqlarının müdafiəsi

**Bu fəsildə uşaqlarla işləyən və onlarla təmasda olan hər kəs üçün nəzərə alınması vacib olan uşağın hüquqları, əsas prinsipləri nəzərdən keçirilir. Bu prinsiplər gündəlik təcrübədə vacibdir. COVID-19 pandemiyası zamanı uşaq hüquqlarının qorunması istiqamətində məktəbəqədər müəssisənin və ümumiyyətlə, yetkinlərin rolunu təhlil edir.**

COVID-19 pandemiyası şərtlərində uşağın hüquqlarının müdafiəsi yeni çağırışlarla qarşılaşır – bu, uşaq sağlamlığı və şəxsi məlumatların mühafizəsi, kibertəhlükəsizliyin təmin edilməsi və təhsil hüququnun gerçəkləşdirilməsi istiqamətində əlavə tədbirlərin görülməsini zəruri etmişdir. Məhz bu səbəbdən COVID 19 pandemiyası şərtlərində məktəbəqədər təhsilin verilməsi uşağın hüquqlarının qorunması perspektivinə əsaslanmalıdır.

Uşağın hüquqları dörd əsas kateqoriyaya bölünür: həyat, inkişaf, müdafiə və iştirak. Yaşamaq hüququ uşağın lazımi səviyyəli tibbi xidmət, su və gigiyena müdafiə vasitələri ilə təmin edilməsi deməkdir. Müdafiə hər bir uşağın hər hansı növ ayrı-seçkilikdən və istismardan qorunmasını nəzərdə tutur, o cümlədən hər hansı bir mühitdə, məsələn, məktəbəqədər müəssisədə uşağın təhlükəsizliyinin qorunması nəzərdə tutulur.

Məktəbəqədər müəssisənin müdiriyyəti COVID-19 pandemiya şərtlərində uşaqların təhlükəsizliyini qorumaq üçün öz resurslarından maksimal şəkildə istifadə etməlidir. Körpə uşaqların, o cümlədən məktəbəqədər yaşlı uşaqların onlara təsir göstərən və ya onlara aid olan hadisələr haqqında aydın dildə məlumat almaq hüquqları var. Bununla yanaşı, öz fikirlərini bildirə bilərlər ki, qərar qəbul edildiyi zaman böyüklər tərəfindən bu fikir qəbul edilsin. Məsələn, uşaqların niyə yeni qaydalara riayət etməli olduqları, COVID-19-un nə olduğu suallarını verdikləri halda, bu suallara onların yaşına uyğun bir şəkildə cavab verilməlidir. Dördüncü kateqoriyaya gəldikdə, uşağın inkişaf hüququ, demək olar ki, bütün digər hüquqlara aiddir və uşağın fərdi ehtiyaclarını və oyun və istirahət imkanlarını nəzərə alaraq keyfiyyətli məktəbəqədər təhsilin verilməsini əhatə edir.

## Erkən təhsilin əhəmiyyəti

Erkən uşaqlıq uşağın inkişafında olduqca önəmli bir dövrdür. Bu zaman bədən və sinir sisteminin formalaşması, mobilliyin artması, kommunikasiya bacarıqları və intellektual imkanların inkişafı baş verir. Uşaqlarda qida, dəstək və müdafiə aldıqları valideynlərinə və himayədarlarına qarşı güclü emosional asılılıq formalaşır. Bu cür yolla onlarda fərdilik formalaşır və onların imkanları artır. Uşaqlar həmyaşıdları və böyüklərlə mühüm əlaqələr formalaşdırırlar. Belə bir əlaqələrlə onlar danışıqların aparılması və paylaşmanı, problemin həllini, razılaşmaların əldə edilməsini öyrənirlər, onlarda başqalarına qarşı məsuliyyət hissi formalaşır.

Uşağın inkişafı müxtəlif amildən asılıdır, o cümlədən, ona çatdırılan erkən təhsilin keyfiyyəti və formasından asılıdır. Məktəbəqədər təhsil uşağın inkişafı imkanlarını yaratmalı və hər bir uşağın fərdi ehtiyaclarını nəzərə almalıdır, uşağın fiziki, əqli, sensor, sosial, emosional, linqvistik, etnik, irqi, dini, gender və başqa xüsusiyyətlərinə baxmayaraq.

Müvafiq olaraq, erkən yaşlarında uşaq üçün çatdırılan ardıcıl və keyfiyyətli məktəbəqədər təhsilin xüsusi əhəmiyyəti var. İctimai səhiyyə böhranına baxmayaraq, uşağın bu təməli hüququ nəzərə alınmalı və bütün müvafiq qurumlar (həm mərkəzi, eləcə də munisipal səviyyədə) məktəbəqədər təhsilin ardıcıllığını qoruyub saxlamaq üçün əyani, hibrid və ya distant xidmət göstərməklə təhlükəsiz və uşağa yönəlmiş mühiti yaratmalıdırlar.

## Məktəbəqədər müəssisənin uşağın hüquqlarının müdafiəsi istiqamətində rolu

Uşağın hüquqlarını qorumaq uşağın bütün hadisələrin mərkəzində durduğunu nəzərdə tutur. Məktəbəqədər müəssisələrin qeyd edilən öhdəlikləri COVID 19 pandemiya şərtlərində daha da aktualdır, çünki bu zaman məktəbəqədər təhsil problemi və bu prosesdə onların sağlamlıq hüququnun müdafiəsi istiqamətində əlavə çağırışlar yarandı.

Məktəbəqədər müəssisələr uşaqlar üçün keyfiyyətli məktəbəqədər təhsilin çatdırılması məqsədilə ictimai səhiyyə böhranı şərtlərində təhlükəsiz mühit yaratmaq üçün öz resurslarına müraciət etməlidirlər ki, imkan daxilində COVID 19-un yayılmasının qarşısı alınsın. Məsələn, ictimai səhiyyə məsələlərini tənzimləyən bütün tövsiyələri nəzərə almalı və uşaqlar üçün təhlükəsiz fiziki və sosial mühit yaratmalıdırlar.

Əgər pandemiya üzündən distant xidmət zərurəti yaranarsa, məktəbəqədər müəssisələr bu xidmətin keyfiyyətini təmin etməli və çalışmalıdırlar ki, distant xidmətə maksimal sayda uşaqların əli çatsın. Qeyd edilən prosesdə yerli munisipalitetlərin dəstəyi və cəlbolunması xüsusilə önəmlidir.

İctimai böhran şərtlərində başqa hüquqlarla yanaşı keyfiyyətli fərdi ehtiyaclara uyğunlaşdırılmış məktəbəqədər təhsilin alınmasını nəzərdə tutan uşağın inkişafı hüququ yeni çətinliklərin qarşısında durdu. Təhsil prosesinin distant forması uşaqlar üçün ev şərtlərində müvafiq mühitin yaradılması zərurətini tələb edir. Distant məktəbəqədər təhsilin alınması üçün uşağa yönəlmiş mühit yaradılmalı, gündəlik işlər təmin edilməli, yatmaq, qidalanmaq, məşğələlər və həyat fəallıqları üçün ardıcıl cədvəl qorunub saxlanılmalıdır.

Müntəzəm və ardıcıl cədvəl uşaqlara yardım edir ki, yuxularını yaxşılaşdırsınlar. Lazımi strukturlaşdırma sabitliyini təmin edir, uşaqların davranışı və sonda onların sağlamlıqları yaxşılaşır.

Əvvəlcədən müəyyən edilmiş və sabit mühit uşaqların effektiv cəlb olunması üçün məktəbəqədər təhsilin qəbulu prosesində önəmli ilkin şərtlərdən biridir. Tövsiyə edilir ki, onlayn qoşulmalar bir konkret, əvvəlcədən müəyyən edilmiş yerdən həyata keçirilsin, hansında uşağa sakitcə, əlavə kənar müdaxilələr xaricində onlayn fəallıqlarda iştirak itmək imkanı veriləcəkdir.

Məktəbəqədər müəssisə uşaqlara oyun, istirahət və inkişaf üçün lazımi mühiti yaratmalıdır. Bunun üçün lazımdır ki, məktəbəqədər müəssisə mühiti stresdən maksimal azad olsun və fiziki mühit elə təşkil edilməlidir ki, məktəbəqədər müəssisənin binasında uşaqlara sərbəst hərəkət etdikdə əlavə sədd yaranmasın. Uşaqlarla kommunikasiya onların inkişaf xüsusiyyətlərini və ehtiyaclarını nəzərə almalıdır və bu da yeni mühitə az streslə öyrəşməyi nəzərdə tutur. COVID 19 pandemiya şərtlərində məktəbəqədər müəssisənin virusun yayılmasının qarşısını almaq və qonaqların müəssisəyə girişini maksimal məhdudlaşdırmaq öhdəliyinin

olmasına baxmayaraq, uşağın emosional ehtiyacından irəli gələrək, ilkin mərhələdə müvafiq qaydalara əməl etməklə, valideynləri müəssisə ərazisinə buraxmalıdır.

Uşağa yönəlmiş mühitin yaradılması xüsusilə də izolyasiya otağına uşağın keçirildiyi halda önəmlidir. Bu zaman tam proses uşaq üçün stresin maksimal azaldılmasına əsaslanmalıdır. Bunun üçün həm izolyasiya otağının fiziki mühiti, eləcə də uşaqla kommunikasiya, onun üçün təhlükəsiz mühitin yaradılması vacibdir.

Məktəbəqədər təhsilin çatdırıldığı zaman mütləq uşaqların fərdi ehtiyaclarını və mühitin maksimal inklüziv olmasını nəzərə almaq lazımdır. Bu tələbat həm əyani, eləcə də distant formalı təhsil prosesinə aiddir. Məsələn, məhdud imkanlı uşaqların halında əlavə insan və maliyyə resursu ayrılmalıdır ki, onlar üçün başqa uşaqlar kimi məktəbəqədər təhsil almaq mümkün olsun. Unutmamalıyıq ki, məhdud imkanlı uşaq üçün ayrı-seçkilik yalnız təhsil almağa imtina etmək deyil, eləcə də ona təhsil almaq üçün lazımi şərtləri yaratmamaqdır.

## Sağlamlıq hüququnun müdafiəsi

Uşağa aid olan istənilən hərəkəti həyata keçirdikdə, əsas diqqət uşağın ən yaxşı marağının müdafiəsinə verilir. Baxmayaraq ki, uşaqların əsasən ümumi universal ehtiyacları var, qeyd edilən ehtiyacların ifadə edilməsi personal, fiziki, sosial və mədəni aspektlərdən, o cümlədən onların inkişafı imkanlarından asılıdır.

Uşağın ən yaxşı marağı haqqında söhbət zamanı həm uşağın, eləcə də uşaqların, qrupun fərdi ən yaxşı maraqları nəzərə alınmalıdır. Uşağın sağlamlıq hüququnun müdafiəsi uşağın ən yaxşı marağının qiymətləndirilməsinin ən mərkəzi məsələsini təqdim edir. Sağlamlıq hüququnda həm uşağın fiziki, eləcə də psixiki sağlamlığı nəzərdə tutulur. Sağlamlıq hüququnun müdafiəsi zamanı həmin risklər və yan hallar nəzərə alınmalıdır və bu da həm bir konkret uşağın sağlamlığına, eləcə də uşaqlar qrupuna ziyan vura bilər.

Tövsiyə edilir ki, COVID-19 pandemiya şərtlərində məktəbəqədər müəssisənin hər hansı bir qərarı məhz uşağın ən yaxşı marağının müdafiəsinə, onun sağlamlığının müdafiə ehtiyaclarının nəzərə alınmasına və virusun yayılmasının qarşısının alınmasına istinad etsin.

İctimai səhiyyə böhranı şərtlərində, təhsil prosesinin distant forma ilə çatdırılması ehtiyacı ilə birlikdə, uşaqların sağlamlıq hüququnun müdafiəsi istiqamətində yeni çağırışlar baş qaldırdı. Özəlliklə də, uşaqların və yeniyetmələrin inkişafı və təhsil hüququnun müdafiəsi istiqamətində kompüter və tele-təhsil proqramlarının istifadəsi daha aktual oldu. Doğrudur, informasiya mübadiləsinin qeyd edilən vasitələri uşağa müxtəlif vərdiş-bacarıqların formalaşmasında yardım edir, amma kompüter və televizor ekranı arxasında çoxlu vaxtın keçirilməsinin uşağın emosional inkişafı, fiziki və psixiki sağlamlığı cəhətindən (məsələn, görmə problemləri, davranış pozuntuları, yuxusuzluq, çəkidə artım və s.) öz mənfi təsiri var. Məhz bunun üçün də uşaqlar tərəfindən kompüterin istifadəsinə və televizor ekranı arxasında vaxtın keçirilməsinin tənzimlənməsinə xüsusi diqqət verilməlidir.

Müvafiq olaraq, erkən yaşında uşağın fiziki və psixiki sağlamlığının müdafiəsi məqsədilə, sutka ərzində uşaqların ekran arxasında keçirdiyi vaxt belədir:

- 2 yaşına qədər: 0 dəqiqə
- 3-7 yaş: 30 dəqiqə

# Fərdi məlumatların müdafiəsi

Hər kəsin şəxsi həyatına toxunulmazlıq hüququ var, o cümlədən də uşaqların. Məktəbəqədər müəssisə burada uşağın günün çox hissəsini keçirdiyi və onun haqqında çoxlu məlumatların saxlanıldığı bir yerdir. Məktəbəqədər müəssisə uşağın fərdi məlumatlarını qoruyub saxlamalı və uşağın ən yaxşı maraqlarından irəli gələrək hərəkət etməlidir. Bu da hər bir halda başqa şəxslərin/təşkilatların maraqlarından öncə uşağın maraqlarının qoyulmasıdır. Eyni zamanda, uşağın ən yaxşı marağının qiymətləndirilməsi hər bir konkret halda fərdi baş verməli və növbəti mühitlər nəzərə alınmalıdır: uşağın nəzərləri və canatmaları, yaşı, şəxsi tarixçəsi, təhlükəsizlik marağı, ailə vəziyyəti, firavanlıq, həmyaşıdlarla və böyüklərlə ünsiyyət və s.

COVID-19 pandemiya şərtlərində uşaqlar üçün məktəbəqədər təhsilin çatdırılması məqsədilə gündəliyə onlayn platformaların tətbiqi ehtiyacı düşdü və bu da uşaqların fərdi məlumatları və təhlükəsizliyin müdafiəsi ilə bağlı əlavə problemlər yaratdı.

Məlumatlar subyekti kimi uşağın hüququ var ki, onun fərdi məlumatları üzərində qanuni şəkildə, ədalətlə və dəyəri alçaldılmadan işlənilsin. Onun hüququ var ki, barəsində kimin və hansı məqsədlər və əsaslarla hansı növdə məlumatları işləməsini bilsin.

## *Fərdi məlumatlar nədir?*

Fərdi məlumatlar hər hansı növdə məlumatdır və bununla da uşağın eyniləşdirilməsi mümkün olur. Məsələn, adı, soyadı, şəxsi nömrəsi, foto- və video yazısı, sosial şəbəkə hesabı, şəxsi yazışması, hansı məktəbdə və sinifdə oxuduğu, onun maraqları, sağlamlıq vəziyyəti və s. haqqında məlumat.

## *Xüsusi kateqoriyanın fərdi məlumatları nədir?*

Xüsusi kateqoriyalı məlumatlar da vardır. Bu onu bildirir ki, onların mühafizəsi üçün xüsusi yüksək standart təsis edilir, çünki belə bir məlumatların sızdığı halda, uşaq üçün vurulan ziyanın həcmi daha çoxdur. Bu kateqoriyaya uşağın irqi və ya etnik mənsubiyyəti, sağlamlıq vəziyyəti, inzibati məhbusluqla, həbsetmə tədbirinin şamil edilməsi, prosesual anlaşmanın bağlanılması, kənarlaşdırma, cinayət qurbanı kimi tanınma, zərərçəkmiş kimi və s. ilə bağlı məlumat aiddir.

## *Uşağın sağlamlıq vəziyyəti haqqında məlumatı necə qorumalıyıq?*

Sağlamlıq bizlərdən hər birimiz üçün xüsusi dəyərdir, onun haqqında məlumat isə xüsusi kateqoriyalı məlumatlara aid edilir. Buna səbəb odur ki, səhhət haqqında məlumatlar (o cümlədən, diaqnoz, xəstəlik tarixi, resept və ya müalicə planı) çox həcmli və şəxsi həyatları haqqında həssas məlumatdan ibarət ola bilər, onların sızması isə ciddi ziyana səbəb ola bilər. Yalnız lazımi razılıq əsasında bu məlumatın üçüncü şəxsə ötürülməsi mümkündür, amma bu, yazılı şəkildə ifadə edilməlidir.

İctimai səhiyyə böhranı zamanı fərdi məlumatların üzərində iş daha çox problem yaradır. Hər kəsin virusun yayılması təhlükələri və başqa preventiv tədbirlər haqqında məlumat almağa hüququ var. Amma hər bir insanın hüquqlarının, o cümlədən fərdi məlumatların mühafizəsi daha önəmlidir. Məhz bunun üçün də məktəbəqədər müəssisədə uşağın yüksək temperaturu ($37^0$ C və yüksək) müşahidə olunarsa, məxfiliyi qoruyub saxlamalı və bu məlumatı büruzə verməməliyik.

Unutmamalıyıq ki, uşağın adını və soyadını adlandırmaq vacib deyil, kifayət edir ki, şəxsin eyniləşdirmə imkanını verən məlumat verilsin.

### *Təhsil prosesinin distant forma ilə aparıldığı zaman uşağın fərdi məlumatlarını necə mühafizə edək?*

COVID-19 pandemiya dövründə təhsil prosesinin distant forma ilə təmin edilməsi aktual oldu. Onlayn təhsil proseslərinə paralel olaraq, sosial şəbəkələrdə onlayn görüşləri əks etdirən foto- və videomaterial yayımlandırılır.

Onlayn görüşləri əks etdirən material (foto, video təsvir) şəxsin fərdi göstəricilərini təqdim edir və onları ictimailəşdirdikdə, bunu nəzərə almaq lazımdır, çünki uşağın məlumatlarının internetdə hər kəs üçün əlçatan forma ilə ictimailəşdirilməsi ona xoşagəlməz təsir göstərə bilər (bullinq və ya başqa xoşagəlməz yanaşma obyekti ola bilər).

Müvafiq olaraq, təhsil müəssisələri, bu müəssisələrdə işlə təmin olunan şəxslər, eləcə də, yetkinlik yaşına çatmamış şəxslərin valideynləri və ailə üzvləri uşaqların məlumatlarının ictimailəşdirilməsinə daha məsuliyyətlə yanaşmalı və uşağın ən yaxşı maraqlarını nəzərə almaqla davranmalıdırlar.

### *Uşağın fərdi məlumatlarının mühafizəsi istiqamətində məktəbəqədər müəssisənin hansı öhdəlikləri var?*

- Uşağın fərdi məlumatları barədə informasiyanı digər şəxslərə açıqlamamalıdır;
- Yanlış məlumatları düzəltməli və əsassız toplanan məlumatları məhv etməlidir. Məsələn, sosial şəbəkədəki foto və video materialı;
- Valideynin tələbi ilə uşağın şəxsi məlumatlarını əhatə edən informasiyanı silməlidir. Məsələn, bir valideyn məktəbəqədər müəssisənin internet saytında / sosial şəbəkədə övladının şəklinin yerləşdirilməsinə icazə verdiyində və sonra fikrini dəyişdiyində, sözügedən fotoşəklin heç bir izahat verilmədən silinməsini tələb etmək hüququna malikdir;
- Uşağın şəxsi məlumatlarının təhlükəsizliyini qorumalıdır;
- Binaya gələnlərin giriş-çıxışına nəzarət etməli, eləcə də onların adlarını və soyadlarını qeydə almalı, şəxsiyyəti təsdiq edən sənədin nömrəsini və növünü, ünvanı, giriş və çıxış tarixlərini və vaxtını, həmçinin binaya giriş və çıxış səbəblərini qeyd etməlidir.

## Uşağın məlumatlandırılması və qərarın qəbulu prosesinə cəlb olunması

Uşaqların fikrini dinləmək və onlara aid qərarın qəbulu prosesinə cəlb olunmaları uşaq hüquqlarının başlıca prinsiplərindən biridir. Bu prinsip hər hansı bir hüquqla faydalandıqda, xüsusilə də sağlamlıq və təhsil hüququnu müdafiə edən zaman nəzərə alınmalıdır. Eləcə də uşağın fikrinin dinlənilməsi informasiyanın ona aydın forma ilə çatdırılmasını nəzərdə tutur.

### *Uşağa öz fikrini bildirmək üçün dəstəyi necə vermək olar?*

- Hər zaman göstərməliyik ki, onun fikri bizi maraqlandırır və diqqətlə dinləməliyik.

- Özünü rahat hiss etdiyi və ya olmaq istədiyi bir mühit yaratmalıyıq.
- Uşaqdan öz nəzərini qeyd etməyi xahiş edənə qədər, ona izah etməliyik ki, bu məlumatı nə üçün soruşuruq və bizə nə üçün lazımdır.
- Söhbət zamanı hər zaman hiss etdirməliyik ki, ona hörmət edirik.

***Məsələn:***

„Bilirəm, yoldaşlarına baş çəkə bilmədiyin faktdan xoşun gəlmir, amma bir də görüşəndə daha maraqlı olacaqdır”.

„Bəzi insanlar xəstələnirlər. Biz indi hamımız evdə qalmalıyıq ki, sağlam olaq”.

“Bəzi insanlar maskada qəribə görünsələr də, maska məni və səni qoruyur”.

“Bir çox həkim və şəfqət bacısı hər gün çox işləyirlər ki, hamımız müdafiədə olaq”.

Uşağın məlumatlandırılması və onun fikrinin dinlənilməsi hüququ COVID 19 pandemiya şərtlərində əlavə əhəmiyyət kəsb etdi. Məsələn, onlarda məlumat olmalıdır ki, hansı növ müalicə keçiriləcək, onun hansı effektləri və nəticələri olacaqdır.

Uşaqlardan bəzilərinin, məsələn, xüsusi ehtiyacı və ya imkanları olan uşağın verbal kommunikasiya zamanı, yəni sözlərlə, öz nəzərlərini ifadə etmək tərəfindən çətinlikləri ola bilər və üstünlüyü başqa, alternativ formalara verə bilər. Məsələn, oyuna, bədənin hərəkətinə, rəssamlığa və yonmağa.

Uşaqların suallarına səmimi cavablar vermək lazımdır, amma bu da müvafiq ölçüdə və xırdalıqlarla çatdırılmalıdır. Həddən çox və ya qorxuducu məlumat əsassız qorxu və ya təlatümə səbəb ola bilər. Onların virusla əlaqədar suallar vermədikləri halda, bu mövzuda söhbəti irəli sürməməyiniz daha yaxşı olardı.

COVID 19 pandemiyası ilə bağlı mövzular üzrə uşaqlara informasiyanı sadə və aydın formada çatdırmaq üçün aşağıda verilən cavablardan istifadə edə bilərsiniz. Məsələn:

## *Koronavirus nədir?*

Koronavirus insanın halını pisləşdirən virusdur. Mikrob elə kiçikdir ki, onu görə bilmirik, amma insanın asqırdığı və ya öskürdüyü halda, onlar havada hərəkət edə bilərlər.

## *Mən xəstələnə bilərəmmi?*

Bəzi insanlar bəzən xəstələnirlər, amma uşaqlar çox güclü olurlar ki, koronavirus kimi mikroblarla mübarizə aparsınlar. Sən xəstələndiyin halda, qayğına qalan böyüklər sənin təhlükəsizliyini təmin edəcəklər.

## *Nə üçün babamı və nənəmi görə bilmirəm?*

Bəzən mikroblar nənə-babanı daha çox xəstələndirirlər və biz istəyirik ki, hər kəs sağlam olsun. Onlar yenə də səni sevirlər və sən onlarla telefonla və ya kompüterlə danışa bilərsən.

## İnsanlar nə üçün maska taxırlar?

Maska taxmaqla bir-birimizə yardım etmiş oluruq. Bəzən insanlar maska ilə daha gülməli görünürlər, amma onların maskaları məni və səni müdafiə edir ki, xəstələnməyək və bizim maskalarımız onları xəstələnməkdən qoruyur.

## Uşağın zorakılıqdan qorunması

Uşağın inkişafı, fiziki və psixiki firavanlığı üçün təhlükə yaradan hər hansı bir əməl, tərbiyənin zorakılıq forması uşaq üzərində zorakılıq kimi başa düşülür. Zorakılıq uşağın hüquqlarının pozulmasını nəzərdə tutur. Bu zaman fərq etməz ki, bu hərəkət qəsdən və və ya qəsdsiz həyata keçirilir. Nəticədə uşağa zorakılıqla zərərverici təsir göstərilir.

İctimai sağlamlığın böhranı zamanı başqa problemlərlə yanaşı uşaq üzərində zorakılıq riski də artır və bu da oxşar böhranların nəticəsində yaranmış sosial, iqtisadi və emosional problemlərlə birbaşa əlaqədədir. Müvafiq olaraq, uşağa himayədarlıq göstərən şəxslər tərəfindən zorakılıq əlamətlərinin aşkar edildiyinə və lazımi məsul orqanlar üçün oxşar halların xəbərdar edilməsinə xüsusi diqqət verilir.

Zorakılıq əlamətlərinin müşahidəsi və tanınması həm əyani məktəbəqədər təhsil xidmətinin çatdırıldığı zaman, eləcə də hibrid və ya distant xidmətin göstərildiyi zaman həyata keçirilməlidir. Distant məktəbəqədər təhsilin həyata keçirildiyi halda, erkən təhsil mütəxəssisləri diqqəti zorakılığın elə bir əlamətlərinə yönəltməlidirlər ki, bunları vizual görmək və dinləməklə başa düşmək mümkün olsun. Məsələn, məktəbəqədər təhsil mütəxəssislərinin iştirakı ilə valideyn uşağın üzərində psixiki zorakılıq göstərir, ona qışqırır, silkələyir, çimdikləyir, fiziki cəzalandırma ilə uşağı təhqir edir, vurur və s.

# COVID 19 ŞƏRTLƏRİNDƏ MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRİN FƏALİYYƏTİNƏ DƏSTƏYİN VERİLMƏSİ, İDARƏ EDİLMƏSİ VƏ METODOLOJİ DƏSTƏK

**COVID 19 şərtlərində məktəbəqədər təhsilin keyfiyyətli və təhlükəsiz təhsil prosesinin təmin edilməsi üçün qeyd edilən qurumlar arasında koordinasiyanın gücləndirilməsi önəmlidir. Aşağıda tövsiyələr verilmişdir ki, bunlar da dövlət orqanları və munisipalitetlərinə, öz səlahiyyətləri çərçivəsində məktəbəqədər təhsil xidmətini çatdırılmasına dəstək verməkdə və ya təmin etməkdə yardım edəcəkdir.**

## Munisipalitetlərə tövsiyələr

Munisipalitetlər üçün icbari təyin olunması tövsiyə edilir:

- Məktəbəqədər müəssisələrdə təhsil prosesinin başlanılmasına qədər ehtiyacların tədqiqi və analizi;
- COVID 19 şərtlərində müxtəlif forma ilə təhsil prosesinin bərabər şəkildə əlçatmasının təmin edilməsi;
- Məktəbəqədər müəssisələrin kompüterlə təchizatı və internetləşdirilməsi;
- Məktəbəqədər təhsil xidmətinin çatdırılmasının relevant formasının (formaları uyğun fəsildə izləyə bilərsiniz) seçilməsi və həyata keçirilməsi məqsədilə, məktəbəqədər müəssisələrin menecerləri/rəhbərləri ilə məşvərət keçirilməsi və onlara dəstəyin verilməsi;
- Məktəbəqədər müəssisələr müvafiq resurslarla təhsil prosesini maneələrsiz və təhlükəsiz həyata keçirməlidirlər;
- Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınların Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi tərəfindən verilən tövsiyələrin yerinə yetirilməsi məqsədilə, məktəbəqədər müəssisələrin dəstəkləndirilməsi və onlar üçün uyğun resursların çatdırılması;
- Məktəbəqədər müəssiələrdə təhsil prosesinin monitorinqi və qiymətləndirilməsi, eyniləşdirilmiş ehtiyacların halında isə müəssisələrin dəstəkləndirilməsi (treninqlər, işgüzar görüşlər, dəstəkləndirici servislər və s.)
- Erkən və məktəbəqədər tərbiyə və təhsil haqqında Gürcüstan qanunun 14-cü maddəsinin 6-cı bəndinin yerinə yetirilməsi.

Məktəbəqədər təhsil sistemi üçün vahid təhsil statistikasının olması və məktəbəqədər təhsilin idarə edilməsinin informasiya sisteminin yaradılması bu günə qədər problem olaraq qalır. Erkən və məktəbəqədər tərbiyə və təhsil haqqında qanuna uyğun olaraq, munisipalitet orqanı müəssisələrin reyestrini aparmalı, Gürcüstan Hökuməti tərəfindən təsdiq edilmiş munisipalitet tərəfindən müəssisələr reyestrinin aparılması qaydası və bu reyestrə daxil ediləsi məlumatların və indikatorların siyahısına uyğun olaraq məlumatları toplamalı və onda əks etdirməli, məlumatların açıqlığını təmin etməli və bunları bu qanunun 12-ci maddəsinə uyğun olaraq, İHHŞ- Gürcüstan Milli Statistika Xidmətinə təqdim etməlidir. Eyni zamanda İHHŞ – Gürcüstan Milli Statistika Xidməti məktəbəqədər təhsil sahəsində munisipalitetlərdən götürülən statistik məlumatı dərc etməlidir.

Hal-hazırda Gürcüstan Milli Statistika Xidməti tərəfindən aparılan statistika məktəbəqədər təhsil sistemində mövcud vəziyyət haqqında tam şəkli vermir, COVID 19 şərtlərində isə dəqiq statistikanın olması prinsipcə

önəmlidir. Yaranmış vəziyyətdən irəli gələrək, nəinki kamil statistikanın yaradılması, eləcə də məktəbəqədər təhsilin idarə edilməsinin informasiya sisteminin yaradılması məqsədəuyğundur.

### *Bu məqsədlə tövsiyə edilir ki, munisipalitet təmin etsin:*

- Məktəbəqədər müəssisələrin sayının siyahıya alınması;
- Müəssisənin təhsil proqramına cəlb olunmuş uşaqların, o cümlədən məhdud imkanlı statusu təsdiq edilmiş, xüsusi ehtiyacı olan və ya belə bir risk altında olan uşaqların siyahıya alınması, onların sayının və məlumatlarının siyahıya alınması;
- Müəssisədə işlə təmin olunmuş şəxslərin fərdi məlumatlarının qeydə alınması;
- Valideynlərin/qanuni nümayəndələrin fərdi məlumatlarının siyahıya alınması;
- İdarəetmə proseslərinin vaxtında, relevant və dəqiq informasiya təminatı ilə təhsil prosesinin inkişafına dəstəyin verilməsi;
- Məktəbəqədər təhsil sistemində mövcud elektron məlumatların toplanılması, saxlanılması və inzibatiləşdirilməsi, o cümlədən məktəbəqədər təhsil müəssisələrinin idarəetməsinin informasiya sistemlərinin yaradılması, tətbiqi və inzibatiləşdirilməsi;
- Təhsil prosesində müasir təhsil texnologiyalarının tətbiqinə dəstəyin verilməsi;
- Məktəbəqədər müəssisəyə daxil olacaq uşağın elektron qeydiyyat prosesi;
- Məktəbəqədər təhsil sisteminə daxil olan orqanlarda elektron sənədlərin dövriyyəsinin və elektron imza sisteminin tətbiqi;
- Uşağın valideyni/qanuni nümayəndəsi və əməkdaşı üçün əvvəlcədən müəyyənləşdirilmiş elektron platforma üçün (məktəbəqədər müəssisənin idarəetmə sistemi, iştirakın elektron jurnalı, əməkdaşlıq sistemi və s.) istifadəçilərin profillərinin yaradılması;
- Əvvəlcədən müəyyənləşdirilmiş elektron platformaların (məktəbəqədər müəssisənin idarəetmə sistemi, elektron jurnal, əməkdaşlıq sistemi və s.) tətbiqinə dəstəyin verilməsi;
- Təhsil prosesində istifadə olunan platformaların texniki analizi və tövsiyələrin hazırlanması;
- Təhsil prosesində informasiya və kommunikasiya texnologiyalarının istiqamətində ayırd edilmiş ehtiyaclara əsasən, müvafiq sosial kampaniyaların və fəallıqların planlaşdırılması-həyata keçirilməsi;
- İştirakın elektron jurnalının ardıcıl fəaliyyəti;
- Distant forma ilə aparılan təhsil prosesi ilə bağlı statistikanın aparılması;

Məktəbəqədər müəssisələrə daxil olacaq uşaqların elektron qeydiyyat prosesinin təmin edilməsi ölkə miqyasında məktəbəqədər təhsil sisteminə uşaqların daxil olmasının vahid sisteminin yaradılmasına, məlumatların vahid sistemdə toplanmasına, uşaqların daxil olmasının vahid və ədalətli sisteminin yaradılmasına, munisipalitetlər səviyyəsində məktəbəqədər müəssisələrin/agentliklərin vəzifə borclarının modifikasiyasına dəstək verəcəkdir*. Hətta COVID 19 şərtlərində sistemə cəlb olunan insanların təhlükəsizliyini təmin edəcəkdir. Valideynlər/qanuni nümayəndələr ərizə yazmaq üçün məktəbəqədər müəssisələrə getməyəcəklər və bununla da insanların bir-biri ilə təması və infeksiyanın yayılma təhlükəsi minimuma qədər azalacaqdır.

Məktəbəqədər təhsil sisteminə uşaqların daxil edilməsinin vahid sisteminin yaradılması məqsədilə tövsiyə olunur ki, uşaqların qəbulu növbəti prioritetlərlə həyata keçirilsin. Bununla yanaşı, prioritetə əsasən, uşağın qeydiyyatının müxtəlif müddətlərinin müəyyənləşdirilməsi məqsədəuyğundur.

* Gələcək üçün: erkən və məktəbəqədər tərbiyə və təhsil haqqında qanuna əsasən, məktəbəqədər müəssisələr müstəqil hüquqi şəxslər olmalı və birliklərin/agentliklərin vəzifə borcları dəyişdirilməlidir. Məktəbəqədər müəssisənin idarəetməsi ilə bağlı məsələlər maksimal şəkildə onlardan kənarlaşdırılmalıdır, qəbulun vahid sisteminin yaradılması isə bu prosesə dəstək verəcəkdir. Eləcə də bu, məktəbəqədər müəssisələrin muxtariyyəti üçün irəli atılmış addım olacaqdır.

***Məktəbəqədər müəssisəyə uşağın qəbulunun prioritetliyi:***

| | |
|---|---|
| **I mərhələ** | • Sosial cəhətdən aztəminatlı ailələrin övladları<br>• Tənha valideynlərin övladları<br>• Məhdud imkanlı uşaqlar, xüsusi ehtiyacı olan uşaqlar |
| **II mərhələ** | • Məktəbəqədər müəssisənin əməkdaşlarının övladları<br>• Bacı-qardaşlar |
| **III mərhələ** | • Məktəbəqədər müəssisənin yerləşdiyi rayonda qeydiyyatda olan uşaqlar<br>• Digər qalan ərizələr |

COVID19 şərtlərində müasir təhsil texnologiyalarının tətbiqi məktəbəqədər təhsilin əlçatması və keyfiyyətini önəmli şəkildə artırır. Məktəbəqədər təhsil sisteminə daxil olan orqanlarda elektron sənəd dövriyyəsinin və elektron imza sisteminin tətbiq edilməsi sistemin işini nəinki asanlaşdırır, daha çevik edir, eləcə də sistemə cəlb olunan şəxslərin təhlükəsizliyini təmin edir.

***Təhlil edilməsi üçün təklif:***

Kamilləşdirilmiş statistikanın və məktəbəqədər təhsilin idarəetməsinin informasiya sisteminin yaradılması məqsədilə, təhsilin idarəetməsinin informasiya sistemində (EMIS) növbəti sxemdən istifadə etməklə, məktəbəqədər təhsil sisteminin inteqrativliyi həyata keçirilə bilər:

təhsilin idarəetməsinin informasiya sistemində (EMIS) məktəbəqədər təhsil sisteminin inteqrativliyi prosesinə dəstəyin verilməsi məqsədilə, məktəbəqədər təhsilin inkişafı üzrə idarələrin və təhsil resurs-mərkəzlərinin məqsədlərindən və funksiyalarından irəli gələrək, əlavə sistemli dairələrin və maliyyə xərclərinin xaricində yuxarıda qeyd edilən bu iki dairənin məktəbəqədər təhsilin idarəetmə informasiya sisteminin yaradılması/inkişafı prosesinə cəlb olunması məqsədəuyğundur. Xüsusilə də, təhsil resurs-mərkəzlərində məktəbəqədər təhsil koordinatorları munisipalitetlər səviyyəsində yaradılmış dairələrdən (munisipalitetlərin bağçalar birlikləri/Tbilisi bağça-yaslilər idarəsi agentliyi) EMIS üçün lazımi informasiyanın toplanılmasını təmin etməli və məktəbəqədər təhsilin inkişafı üzrə idarəyə çatdırmalıdırlar, bu sonuncu da, öz növbəsində, qeyd edilən informasiyanı EMIS-ə təqdim etməlidir. Qeyd edilən sxemlə məktəbəqədər təhsilin idarəetməsinin informasiya sistemi yaranacaq və lazım gəldiyində, EMIS-də yığılmış informasiya analiz ediləcəkdir və sistemə cəlb olunan dairələr üçün, o cümlədən maraqlı tərəflər üçün məktəbəqədər təhsilin inkişafı üzrə idarə tərəfindən bu məlumatın yayılması/ötürülməsi baş verəcəkdir.

## *Ehtiyacların araşdırılması və analizi*

Məktəbəqədər müəssisələrin fəaliyyətinin bərpası uşağın ən yaxşı maraqlarına əsaslanmalı və ümumiyyətlə, sistemə cəlb olunan bütün şəxslərin təhlükəsizliyini təmin etməlidir. COVID 19 şərtlərində təhsil prosesinin başlanılmasına qədər müxtəlif hədəf qrupu ilə (valideynlər/qanuni nümayəndələr, məktəbəqədər müəssisələrin müdiriyyət nümayəndələri və təhsil prosesində məsul, həm də texniki personal kimi əməkdaşlar) ehtiyacların araşdırılması keçirilməlidir; xüsusi ehtiyacı olan/məhdud imkanlı uşaqların və onların valideynlərinin əlavə ehtiyaclarına xüsusi diqqət verilməlidir. Qeyd edilən araşdırmanın analizi qərar qəbul edən şəxslərə imkan verəcəkdir ki, məktəbəqədər müəssisələrdə təhsil prosesinin yeniləşdirilməsini effektiv şəkildə planlaşdırsınlar və həyata keçirsinlər və riskləri maksimal olaraq azaltsınlar. Buradaca qeyd etmək lazımdır ki, təhlükəsizliyə əməl edilməsi məqsədilə, yaxşı olardı ki, onlayn (və ya telefon) araşdırma keçirilsin.

Ehtiyacların tədqiqatının analizi nəticəsində aşkarlanan imkanlara və ehtiyaclara əsaslanaraq, konkret məktəbəqədər müəssisənin vəziyyətindən irəli gələrək, munisipalitetlər həm məktəbəqədər müəssisənin açılma müddətləri ilə, eləcə də məktəbəqədər təhsil xidmətinin çatdırılma formaları və strategiyaları ilə bağlı qərar qəbul etməlidirlər (Baxın fəslə: "COVID 19 şərtlərində məktəbəqədər təhsil xidmətinin çatdırılma formaları"). Qeyd edilən qərarın qəbul edilməsi üçün çox vacibdir ki, munisipalitet təkbaşına yanaşma ilə qərar qəbul etməsin və bu qərar məktəbəqədər müəssisələrin kontekstual analizinin və fərdi imkanlarının nəzərə alınması ilə həyata keçirilsin (tədqiqatın keçirilməsi üçün lazımi qeyd vərəqinin nümunələrini Əlavə №2-də izləyə bilərsiniz: əməkdaşlar üçün işlənib hazırlanmış qeyd vərəqinin nümunəsi, Əlavə №3 Məktəbəqədər müəssisənin menecerləri üçün qeyd vərəqinin nümunəsi, Əlavə 4: Valideynlər üçün yaradılmış qeyd vərəqinin nümunəsi).

### *Təhsil prosesində nailiyyətlərin və problemlərin öyrənilməsi və dəstəkləndirilməsi*

Qeyd edilən məlumat kitabçasının təcrübədə tətbiq edilməsi məqsədilə önəmlidir ki, təhsil prosesinin başlanılmasına qədər və bundan sonra da müəyyən mərhələlərlə prosesə cəlb olunan qurumların və onların nümayəndələrinin dəstəyi baş versin. Bu dəstək işgüzar görüşlərin, treninqlərin, dəstəkləndirici superviziyaların və s. şəklində həyata keçirilə bilər. Qeyd edilən proses sistemdə çalışan şəxslərə təhsil prosesinin yeniləndirildiyində qarşılaşdıqları problemləri keçməkdə və həll etməkdə yardım edən sahə ekspertlərinin cəlb olunması ilə aparılmalıdır. Bununla belə, yaxşı olardı ki, görüşlər zamanı nailiyyətli və nailiyyətsiz praktiki misallar müzakirə edilsin ki, prosesə cəlb olunan şəxslər üçün doğru qərarların qəbul edilməsi və problemlərin həlli asan olsun.

## Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınların Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin tövsiyələri

Erkən və məktəbəqədər tərbiyə və təhsil haqqında Gürcüstan qanununa uyğun olaraq, Gürcüstanın Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi və İHHŞ – Milli Ərzaq Agentliyi səlahiyyətləri çərçivəsində öz öhdəliklərinin yerinə yetirilməsini, özəlliklə də, texniki reqlamentlərin və Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qaydaya əsasən, məktəbəqədər müəssisələrdə sanitar-gigiyena normalarına əməl edilməsini və ərzağın zərərsizliyinə nəzarəti təmin edirlər.

COVID 19 şərtlərində tövsiyə edilir ki, sözügenə qurumlar eləcə də Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınların, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi tərəfindən COVID 19-la bağlı verilmiş tövsiyələrə əsasən, məktəbəqədər müəssisələr üzərində nəzarəti təmin etsinlər.

### *Məktəbəqədər müəssisələrə tövsiyələr*

Tövsiyə edilir ki, məktəbəqədər müəssisə:

- məktəbəqədər müəssisələrdə təhsil prosesinin başlanılmasına qədər ehtiyacların öyrənilməsi və analizi prosesində munisipalitetin dəstəyini təmin etsin;
- məktəbəqədər müəssisənin maneəsiz və təhlükəsiz fəaliyyət göstərməsi məqsədilə, məktəbəqədər müəssisələrin əməkdaşlarının konsultasiyasını/hazırlığını/dəstəkləndirilməsini təmin etsin;
- Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınların Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi tərəfindən verilmiş tövsiyələrin yerinə yetirilməsini təmin etsin;
- müəssisənin resurslarının və hər bir uşağın maraqlarını və imkanlarını nəzərə almaqla təhsil prosesini

planlaşdırsın;
- məktəbəqədər təhsil xidmətinin hər hansı bir forma ilə çatdırılması və həyata keçirilməsində maksimal səylərə müraciət etsin;
- öhdəlikləri və səlahiyyətləri haqqında valideynlərin/qanuni nümayəndələrin mütəmadi məlumatlandırılmasını təmin etsin;
- məktəbəqədər müəssisənin maneəsiz və təhlükəsiz fəaliyyəti və onların bu prosesə cəlb olunması məqsədilə valideynlər/qanuni nümayəndələr üçün mütəmadi konsultasiyaları/hazırlığı/dəstəyi təmin etsin;
- COVID 19-un səbəb olduğu məsələlərlə bağlı məktəbəqədər müəssisənin konsultasiya şurasının yardımı ilə vaxtında və birgə iştirak prinsipinə əsaslanan qərarların qəbul edilməsini təmin etsin;
- seçilmiş cari formanın (formaların) əsasında keçirilən təhsil prosesində uşaqların iştirakının qeydə alınmasını sistemli şəkildə həyata keçirsin.
- müxtəlif seçilmiş cari formanın (formaların) əsasında keçirilən təhsil prosesində uşağın yayınma səbəblərini təyin etsin.

Qeyd edilən hala uşağın/qanuni nümayəndənin tərəfindən uyğun texniki dəstəyin (cihazın və internet bağlantısının) olmadığı səbəb olarsa, müəssisə rəhbərinə məlumat verilməli və problemin həllinə qədər həmkarları ilə birlikdə mövcud imkanları fərdi şəkildə nəzərdən keçirməli və uşağın həm əyani, eləcə də distant formada təhsil prosesinə qoşulması üçün alternativ tədbirləri planlaşdırmalıdır.

Uşağın əyani təhsil prosesində iştirakına mane olan səbəbin uşağın səhhəti ilə riskin çoxalması və ya onun məhdud imkanı müəyyən edilərsə, bu halda uşaq distant təhsil prosesində aktiv iştirak etməli, uşağın təhsil prosesinə qoşulmasının alternativ variantları nəzərdən keçirilməli və onun ən yaxşı marağının mühafizəsi ilə uyğun qərar qəbul edilməlidir.

- Müvafiq personal tərəfindən (tərbiyəçi, xüsusi müəllim və başqa təhsil personalı) fəallıqların planlaşdırılması/keçirilməsi üçün uyğun otağın ayrılması təmin edilsin, əgər:
  a) təhsil personalı evdən qoşula bilmirsə;
  b) təhsil personalının uyğun texniki avadanlığı/interneti yoxdursa;
- uşaqların ehtiyaclarının, imkanlarının, maraqlarının və resurslarının eyniləşdirilməsini təmin etsin;
- distant təhsil prosesinin monitorinqi üçün tədbirləri işləyib hazırlasın və həyata keçirsin. Monitorinq nəzərdə tutur:
  a) distant fəallıqların təyin edilən vaxtda və müddətdə keçirilməsinə nəzarəti;
  b) distant təhsil prosesinə cəlb olunmuş uşaqların iştirakının qeydə alınmasına nəzarəti;
  c) distant təhsil prosesindən kənar qalmış uşaqların qeydə alınmasını və səbəblərin araşdırılmasını;
  ç) etika və davranışın ümumi normalarına və təhlükəsizliyin mühafizəsinə nəzarəti.
- Distant təhsil prosesində hər hansı bir forma ilə zorakılıq əməli təsbit edilən kimi, ona verilən səlahiyyət çərçivəsində mövcud qanunvericiliyə əsasən hərəkət etsin.

## *Ailə ilə, əməkdaşlarla və yuxarı instansiyalarla kommunikasiya*

Məktəbəqədər müəssisə tərəfindən, xüsusilə də COVID 19 şərtlərində, uşağın ailəsi ilə, əməkdaşlarla və yuxarıda duran strukturlarla aktiv kommunikasiyanın qurulması çox önəmlidir. Bu məqsədlə, müxtəlif qaynaqlardan istifadə etmək olar, məsələn, açıq məkanda görüşlər (sağlamlıq və təhlükəsizlik qaydalarına əməl etməklə), müxtəlif onlayn platformalardan istifadə etmək, sosial media və s.

Xüsusi təhsilə ehtiyacı olan və məhdud imkanlı uşağın valideynləri ilə, onların ehtiyaclarının və təhsil prosesinin fərdi təhlili və planlaşdırılması məqsədilə, əlavə fərdi görüşlərin təşkil edilməsi zərurəti baş qaldıra bilər.

## *Valideynlərlə/qanuni nümayəndələrlə tərəfdaşlıq və kommunikasiya:*

Yaxşı olardı ki, sözügedən görüşlər qruplara əsasən keçirilsin.

- Məktəbəqədər müəssisənin valideynlərlə/qanuni nümayəndələrlə onların övladlarının təhlükəsiz qaytarılması məqsədilə hansı tədbirləri və nə üçün keçirdiyi barəsində danışın; eləcə də məktəbəqədər müəssisənin xüsusi təhsilə ehtiyacı olan və məhdud imkanlı uşaqlar üçün həyata keçirməsini planlaşdırdığı əlavə tədbirlər haqqında danışın;
- Valideynlərlə/qanuni nümayəndələrlə təhsil prosesinin maneəsiz aparılması və təhlükəsizliyin təmin edilməsi üçün onların qatılmasının və dəstəyinin nə qədər önəmli olduğu barəsində danışın;
- Valideynlərlə/qanuni nümayəndələrlə onların öhdəlikləri və bu öhdəliklərin yerinə yetirilməsi zərurəti barəsində danışın;
- Valideynlərlə/qanuni nümayəndələrlə müxtəlif vasitələrin istifadəsi ilə onlarla müntəzəm kommunikasiya/onlayn görüşlərin keçiriləcəyi haqqında danışın. Xahiş edin ki, müəssisənizin internet səhifəsinə, sosial səhifəsinə, feysbuk qruplara və s. göz gəzdirsinlər. İzah edin ki, onlar istənilən vaxt sizə sualları ilə müraciət edə bilərlər;
- Valideynlərlə/qanuni nümayəndələrlə araşdırma nəticəsində aşkar edilən ehtiyaclar, problemlər və bu problemlərin həlli yolları haqqında danışın. Onların əks əlaqəsini dinləyin və sonralar nəzərə almağa çalışın;
- Valideynlərlə/qanuni nümayəndələrlə COVID 19 simptomları və bunların eyniləşdirildiyi halda, lazımi protokol barəsində danışın; maraqlandıqları halda, informasiya ala biləcəkləri/dəqiqləşdirə biləcəkləri rəsmi qurumlar və qaynaqlar haqqında məlumat verin;
- Valideynlərlə/qanuni nümayəndələrlə ailədə koronavirus faktının təsbit edildiyi halda, onların uşağı müəssisəyə gətirə bilməyəcəkləri və bu zaman dərhal müəssisəni xəbərdar etmələri olduqları haqqında danışın;
- Valideynlərlə/qanuni nümayəndələrlə danışın ki, uşaqda azacıq da olsa soyuqdəymə əlamətlərini gördükləri halda, onu mütləq evdə saxlasınlar;
- Valideynlərlə/qanuni nümayəndələrlə uşağın aparılması və gətirilməsi prosedurları haqqında danışın ki, bu prosedur nə valideyn və nə də uşaq üçün stres olmasın. Bununla belə dəqiqləşdirin ki, təhlükəsizliyə görə, valideynin binaya girişinə icazə verilmir və uşağı evin yaşlı üzvü gətirməsin ki, risk qrupunda olan şəxslərin yoluxma halı minimuma endirilsin;
- Valideynlərə yazılı tövsiyələr verin ki, uşağa COVID 19-la bağlı dəyişiklikləri necə izah etsin və uşağı məktəbəqədər müəssisəyə aparmaq üçün necə hazırlasın.

## *Tərəfdaşlıq və əməkdaşlarla kommunikasiya:*

- Əməkdaşlarla danışın ki, təhlükəsiz açılış məqsədilə, məktəbəqədər müəssisə hansı tədbirləri və nə üçün keçirir;
- Əməkdaşlarla onların öhdəlikləri və bu öhdəliklərin yerinə yetirilməsi zərurəti barəsində danışın;
- Təhsil prosesi ilə bağlı əməkdaşları dəyişikliklərlə tanış edin;
- Əməkdaşlarla söhbət edin ki, təhlükəsizliyin və keyfiyyətli təhsil proesinin təmin edilməsi üçün onların dəstəyi nə qədər vacibdir;
- COVID 19 simptomları və bunların eyniləşdirildiyi halda, lazımi protokol barəsində danışın; maraqlandıqları halda, informasiya ala biləcəkləri/dəqiqləşdirə biləcəkləri rəsmi qurumlar və qaynaqlar haqqında məlumat verin;
- Danışın ki, imkan daxilində, əməkdaşlar tərəfinizdən qərarların qəbul edilməsi prosesinə cəlb olunacaqlar və qəbul edilən yeniliklər və dəyişikliklər haqında hər dəfə onlara məlumat verin;
- Onlarla mütəmadi görüşləri planlaşdırın və qeyd edilən görüşlər üçün günlər ayırın;

- Tədqiqat nəticəsində aşkar edilən ehtiyaclar, problemlər və bu problemlərin həlli yolları barəsində danışın. Dinləyin və onların əks əlaqələrini nəzərə almağa çalışın;
- Əməkdaşlarla söhbət aparın ki, ailədə koronavirus faktının təsbit edildiyi halda, onlar müəssisəyə gələ bilməzlər və bu zaman dərhal müəssisənin müdiriyyətini xəbərdar etməlidirlər;
- Müəssisəyə gəliş-gediş qaydalarını və iş prosesində əməl edəcəkləri təhlükəsizlik qaydalarını izah edin;
- Uşaqların qəbulu və evə göndərilmə prosedurlarını izah edin;
- Əməkdaşlarla valideynlərlə/qanuni nümayəndələrlə onların ünsiyyətinin əhəmiyyəti və formaları haqqında danışın.

### *Tərəfdaşlıq və yuxarıda duran strukturlarla kommunikasiya:*

- Yuxarıda duran strukturlarla mütəmadi ünsiyyət saxlayın;
- Yuxarıda duran strukturlar tərəfindən çatdırılan informasiyanın vaxtında və yaxşı yayımlandırılmasını təmin edin;

### *Görüntü*

- COVID 19-dan müdafiə qaydaları haqqında informasiya posterlərini həm onlayn məkanda yerləşdirin, eləcə də əyani yerlərdən asın;
- Məktəbəqədər müəssisə çərçivəsində işlənib hazırlanmış protokolların (uşaqların qəbulu və evə göndərilməsi qaydası, binaya giriş qaydası və s.) haqqında məlumatı həm onlayn məkanda yerləşdirin, eləcə də əyani yerlərdən asın.

## Valideynlərə/qanuni nümayəndələrə tövsiyələr

Valideyn/qanuni nümayəndə tərəfindən təhsil prosesinə dəstəyin verilməsi üçün məqsədəuyğundur:

- İmkan daxilində uşağın təlim prosesinə cəlb olunmasını təmin etsin və dəstək versin;
- Məktəbəqədər müəssisə ilə əməkdaşlıq etsin və uşağa bu müəssisə tərəfindən qarşıya qoyulan təlim məqsədlərinin əldə edilməsində yardım etsin; lazım gəldiyi halda, tərbiyəçinin tövsiyəsini nəzərə almaqla, qarşıya qoyulan məqsədlərin və irəliləyişin əldə edilməsi məqsədilə uşaqla əlavə işi təmin etsin;
- Uşağa diqqət yetirsin və distant təhsil prosesində hər hansı bir forma ilə zorakılıq əməlini, o cümlədən, kiberbulinqi təsbit etdiyi halda, dərhal məktəbəqədər müəssisəni xəbərdar etsin;
- Tez bir müddətdə uşağın təhsil prosesindən yayınma səbəbini məktəbəqədər müəssisəyə bildirsin; müəssisənin müvafiq nümayəndələrinə uşağın sağlamlıq vəziyyətinin səbəb olduğu əlavə risklər barəsində məlumat versin və müvafiq tibbi sənədi təqdim etsin (məs., müalicə edən həkimin nəticəsi və tövsiyəsi);
- Məktəbəqədər müəssisəyə distant təhsil prosesinə qoşulmaqla bağlı mövcud çətinliklər haqqında məlumat versin və çətinliyin aradan qaldırılmasının gerçək yolunun axtarışında müəssisə ilə əməkdaşlıq etsin və onların həlli prosesinə cəlb olunsun;
- Valideyn üçün qeydiyyat vərəqini doldurmağı məqsədəuyğundur (Baxın Əlavə №4: valideyn üçün hazırlanmış qeydiyyat vərəqinin nümunəsi).

# GÜRCÜSTAN TƏHSİL, ELM, MƏDƏNİYYƏT VƏ İDMAN NAZİRLİYİNİN TÖVSİYƏLƏRİ

## *Telebağça*

2018-ci ildə keçirilən tədqiqata (Gürcüstanda məktəbəqədər təhsil keyfiyyətinin öyrənilməsi) əsasən, erkən yaşında uşaqların məktəbəqədər müəssisələrə cəlb olunma göstəricisi 69.5%-i təqdim edirdi. Qeydiyyat göstəriciləri etnik azlıqların nümayəndələri olan uşaqlar arasında 33% idi, sosial cəhətdən aztəminatlı uşaqlar arasında – 39,7%, kənd uşaqlarında – 46,8%. Qeyd edilən statistikanı nəzərə almaqla, telebağçanın yaradılması, təəssüflər olsun ki, COVID 19 infeksiyasının yayılmasına qədər məktəbəqədər müəssisəyə gedə bilməyən uşaqların təhsil məkanına girişləri üçün prinsipcə çox önəmli idi və mövcud vəziyyətdə bu say daha da çoxaldı.

Telebağçanın Gürcüstanın İctimai Televiziyasının kanalında yayımlanması və məktəbəqədər yaşlı uşaqlara təhsil proqramı ilə nəzərdə tutulmuş telefəallıqlar təklif etməsi tövsiyə olunur. Telebağça, məktəbəqədər təhsil prosesinin bu və ya digər forma ilə həyata keçirilməsinə baxmayaraq, distant dəstəyin formatından biri olacaq və məktəbəqədər yaşlı uşaqların hamısına uyğunlaşdırılacaq və Gürcüstan miqyasında çatdırılacaqdır. Uşaqların internetə əllərinin çatıb-çatmadığına baxmayaraq, maraqlı inkişafetdirici fəallıqlar onlar üçün əlçatan olacaqdır.

Efir toru hər bir yaş qrupunun ehtiyaclarına uyğunlaşdırılmış fəallıqlarla tamamlanacaqdır. Təhsil proqramı ilə nəzərdə tutulmuş telefəallıqları sahə üzrə mütəxəssislər planlaşdıracaq və həm ictimai, eləcə də özəl şöbədən keçirəcəklər. Onu da qeyd etmək lazımdır ki, telebağçanın fəallıqlarının tərcüməsini jest dili tərcüməçisi təmin edir. Etnik azlıqlar üçün Azərbaycan və erməni dillərində telefəallıqlar da hazırlanacaqdır.

Fəallıqlar bazar ertəsindən cümə günü daxil olmaqla keçiriləcəkdir. Telebağçaya şənbə və bazar günlərində müxtəlif elmi-əyləncəvi proqramlar da əlavə ediləcəkdir. Telebağçanın fəallıqlarının cədvəli və başqa ətraflı məlumatı növbəti internet səhifələrində yerləşdiriləcəkdir: www.mes.gov.ge, www.inclusion.ge, www.el.ge və s.

Telebağça üçün müxtəlif media platformalardan istifadə ediləcəkdir –1tv.ge internet portalı, Gürcüstan Birinci Kanalının Youtube və Facebook səhifələri. Telebağça, öz əhəmiyyətindən irəli gələrək, uzunmüddətli olacaq və koronavirus təhlükəsinə üstün gəldikdən sonra da davam etdirilə bilər.

Telebağça öz strukturu və məzmunu ilə məktəbəqədər müəssisələrin əməkdaşlarının peşəkar inkişafı üçün dəstək aləti olacaqdır. Sözügedən resurs onlara yardım edəcəkdir ki, telefəallıqlara əsasən, standartlara istinad edən və təhsil proqramı ilə nəzərdə tutulan rəngarəng fəallıqları düzgün planlaşdırsınlar və həyata keçirsinlər.

- Telebağça valideynlərin maarifləndirilmə və məlumatlandırılma prosesində önəmli rol oynayacaqdır. Valideynə məktəbəqədər təhsilin önəmini dərk etməkdə, uşaqla ünsiyyət prosesində düzgün yanaşmaların istifadəsi və kommunikasiya yollarının formalaşdırılmasında dəstək verəcəkdir.

***Məktəbəqədər təhsilin onlayn platforması***

Hal-hazırda ölkədə elə bir vahid onlayn məkan yoxdur ki, burada həm məktəbəqədər təhsil sahəsinə cəlb olunan mütəxəssislər, eləcə də valideynlər üçün dərs vəsaitləri cəmləşdirilsin. Koronavirus təhlükəsinin azaldılması, məktəbəqədər təhsildə təhsil prosesinin ardıcıllığının təmin edilməsi və keyfiyyətin

yaxşılaşdırılması məqsədilə, məktəbəqədər onlayn platformanın, məsələn, artıq mövcud olan internet səhifələrin www.mes.gov.ge, www.inclusion.ge, www.el.ge və sairənin aktivləşdirilməsi, zənginləşdirilməsi, ona məktəbəqədər təhsillə bağlı resursların əlavə edilməsi çox vacibdir. Qeyd edilən platformaya həm məktəbəqədər təhsil menecerləri və əməkdaşları üçün, eləcə də uşaqlar və valideynlər üçün dərs və köməkçi materiallar əlavə ediləcək, hətta sözügedən məkana treninqlər, tutoriallar və vebinarlar yerləşdiriləcəkdir. Burada nailiyyətli və nailiyyətsiz vəziyyət üzrə misallar təhlil ediləcəkdir. Məktəbəqədər təhsilin onlayn platforması, onun əhəmiyyətindən irəli gələrək, koronavirus təhlükəsinin qarşısının alınmasından sonra da fəaliyyətini davam etdirəcəkdir.

# COVID 19 ŞƏRAİTİNİ NƏZƏRƏ ALMAQLA, MƏKTƏBƏQƏDƏR TƏHSİL XİDMƏTLƏRİNİN ÇATDIRILMA FORMALARI

**Qarşıdakı fəsildə məktəbəqədər təhsil xidmətlərinin çatdırılma formaları və strategiyaları təsvir olunmuşdur. Müəssisələrin özləri epidemioloji vəziyyəti nəzərə almaqla, Gürcüstanın İşğal Olunmuş Ərazilərindən Qaçqınların, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi tərəfində müəyyən edilən tənzimlərə uyğun olaraq, bunları seçə və tətbiq edə bilərlər. Yaxşı olardı ki, məktəbəqədər müəssisə valideynlərlə məsləhətləşmə əsasında, verilən formalardan və strategiyalardan özü optimal olan variantı seçsin.**

Aşağıda məktəbəqədər təhsil xidmətlərinin çatdırılmasının üç forması təklif edilir: əyani, distant və hibrid. Sözügedən formalar çərçivəsində müvafiq strategiyaları təklif edirik (burada verilən Excell faylında).

## Məktəbəqədər təhsil xidmətlərinin çatdırılmasının əyani forması

Məktəbəqədər təhsil xidmətinin çatdırılmasının əyani forması elə bir təhsil prosesini təqdim edir ki, bu zaman uşaq və tərbiyəçi eyni məkanda olurlar, məktəbəqədər təhsil müəssisəsi mühitində, hansında pandemiya şəraiti ilə müəyyən edilmiş tənzimləmələrə uyğun olaraq, təhsil prosesinin adi tərzi qorunub saxlanılmışdır.

Əyani forma ilə məktəbəqədər təhsil xidmətlərinin çatdırılması tam (bazar ertəsindən – cümə daxil olmaqla, 9 saatlıq təhsil prosesi) və ya yarımsahə ilə (hər gün iki sahədə, bazar ertəsi – cümə, hər gün – 5 saat). Məktəbəqədər təhsil müəssisəsi tərəfindən sahəyə uyğunlaşma onun fiziki mühitindən, insan resursundan, uşaqların sayından və müəssisənin təyin edilən tənzimləmələri nə dərəcədə yerinə yetirə biləcəyindən asılıdır.

### *Həftəlik cədvəlin işlənib hazırlanması və çatdırılması*

Məktəbəqədər təhsil müəssisəsi hər həftənin cümə günü, saat 18:00-a qədər valideynə uşağın qrupunun təhsil personalı tərəfindən (tərbiyəçi, tərbiyəçinin köməkçisi) yazılmış növbəti həftənin fəallıqlarının cədvəlini təqdim etməlidir. Həftəlik cədvəllə tanışlıq valideynə və uşağa imkan verir ki, uşağın yaş maraqlarına və imkanlarına uyğunlaşdırılmış təlim fəallıqları üçün əvvəlcədən hazırlaşsınlar və yönəlsinlər. Həftəlik cədvəl haqqında informasiya valideynə yardım edir ki, bir tərəfdən, uşağının hansı fəallıqlara cəlb olunduğu ilə tanış olsun, hər günün sonunda ondan gündəlik təəssüratları dinləsin (bu zaman valideynin cəlb olunması və marağı artacaqdır), digər tərəfdən isə, uşağın motivasiyasını artırır, növbəti günün planı haqqında hazırlığına şərait yaradır.

Məktəbəqədər müəssisə həftəlik cədvəli kurrikulum vasitəsilə hazırlayır (tematik kurrikulum, oyun) və ya adi kontekstdə rəhbər tutduğu proqramlara istinad edərək.

Həftəlik cədvəli hazırladıqda, tərbiyəçi xüsusi təhsilə ehtiyacı olan uşaqla əlavə görüş zərurətini nəzərə almalıdır, müvafiq olaraq, bunu özü və valideyn üçün müəyyən edilmiş cədvəldə qeyd etməlidir.

| Xidmət forması/ strategiya | Həftəlik cədvəlin çatdırılması | Məktəbəqədər təhsil müəssisəsində təlim prosesinin həyata keçirilməsi | Uşaqlarla kiçik onlayn qruplarında görüş, valideynlərin dəstəyi və qoşulması ilə | Uşaqlarla onlayn fərdi və ya telefonla görüş, valideynlərin dəstəyi və qoşulması ilə | Onlayn və ya telefonla görüş valideynlərlə | Onlayn qrup görüşü valideynlərlə | Uşaqlarla onlayn görüş, valideynlərin dəstəyi və qoşulması ilə | Həftə |
|---|---|---|---|---|---|---|---|---|
| Distant məktəbəqədər təhsil xidməti | Hər həftənin cümə günü, saat 18.00-a qədər. | | Hər gün, kiçik qruplarda 20-30 dəqiqə, kiçik qruplarda uşaqları sayı: 2-5 | Ayda ən azı 4 görüş | Ayda ən azı 2görüş; və lazım gəldiyində | • İki sessiyalı oriyentasiya iclası:<br>A) Distant təhsil xidmətlərinin inzibati hissəsinə giriş; – 90 dəqiqə<br>B) proqram hissəsi ilə tanışlıq – 90 dəqiqə<br>• 3 ayda bir dəfə məsləhətləşmə iclası "Təhsil prosesinin başlamasından 1 həftədən gec olmayaraq" | Ayda ən azı 1 görüş | Bazar ertəsi – cümə |
| Tamsahəli əlaqəli | Hər həftənin cümə günü, saat 18.00-a qədər. | Hər gün tam sahə (Tam sahə = 9 saat (fasilə vaxtı daxil olmaqla) | | | lazım gəldiyində | • İki sessiyalı oriyentasiya iclası:<br>A) Distant təhsil xidmətlərinin inzibati hissəsinə giriş; – 90 dəqiqə<br>B) proqram hissəsi ilə tanışlıq – 90 dəqiqə<br>• 3 ayda bir dəfə məsləhətləşmə iclası "Təhsil prosesinin başlamasından 1 həftədən gec olmayaraq" | | Bazar ertəsi – cümə |
| Yarımsahəli əlaqəli | Hər həftənin cümə günü, saat 18.00-a qədər. | Hər gün 2 sahədə: (1 sahə = 5 saat) | | | lazım gəldiyində | • İki sessiyalı oriyentasiya iclası:<br>A) Distant təhsil xidmətlərinin inzibati hissəsinə giriş; – 90 dəqiqə<br>B) proqram hissəsi ilə tanışlıq – 90 dəqiqə<br>• 3 ayda bir dəfə məsləhətləşmə iclası "Təhsil prosesinin başlamasından 1 həftədən gec olmayaraq" | | Bazar ertəsi – cümə |
| Hibrid 2 (əlaqəli + distant) | Hər həftənin cümə günü, saat 18.00-a qədər. | Hər gün 2 sahədə: (1 sahə = 5 saat) | | Ayda ən azı 2 görüş | lazım gəldiyində | • İki sessiyalı oriyentasiya iclası:<br>A) Distant təhsil xidmətlərinin inzibati hissəsinə giriş; – 90 dəqiqə<br>B) proqram hissəsi ilə tanışlıq – 90 dəqiqə<br>• 3 ayda bir dəfə məsləhətləşmə iclası "Təhsil prosesinin başlamasından 1 həftədən gec olmayaraq" | | Bazar ertəsi – cümə |
| Hibrid 1 (əlaqəli + distant) | Hər həftənin cümə günü, saat 18.00-a qədər. | Bağçanın kontingenti həftə ərzində üç sahəyə bölünür: 2 gün əlaqəli, tam sahə + 3 gün distant | Hər gün, kiçik qruplarda 20-30 dəqiqə, kiçik qruplarda uşaqları sayı: 2-5 | | Ayda ən azı 2 görüş; və lazım gəldiyində | • İki sessiyalı oriyentasiya iclası:<br>A) Distant təhsil xidmətlərinin inzibati hissəsinə giriş; – 90 dəqiqə<br>B) proqram hissəsi ilə tanışlıq – 90 dəqiqə<br>• 3 ayda bir dəfə məsləhətləşmə iclası "Təhsil prosesinin başlamasından 1 həftədən gec olmayaraq" | | Bazar ertəsi – cümə<br>Bazar ertəsi – şənbə (böyük qrupların olduğu halda) |

### *Valideynlə onlayn fərdi görüşlər*

Məktəbəqədər təhsil prosesinin əyani forma ilə aparıldığı zaman, təhsil personalının valideynlə kommunikasiyası olur və lazım gəldiyi halda, onunla onlayn və ya telefon görüşünü planlaşdırır. Görüş zamanı tərbiyəçi valideyni övladının inkişaf dinamikası ilə tanış edir, uşağın güclü tərəfləri və onun ehtiyacları haqqında danışır ki, hansılara əsasən gücləndirilməli və dəstəkləndirilməlidir. Tərbiyəçi, lazım gəldiyi halda, valideynlə əlaqə saxlamalı və uşağın nailiyyətləri haqqında danışmalıdır. Qeyd edilən kommunikasiya onun məlumatlandırılması, məktəbəqədər təhsil xidməti prosesinə cəlb olunması məqsədini daşıyır və ona pozitiv valideyn olmağa imkan yaradır.

### *Valideynlərlə onlayn birləşmiş görüşlər*

Onlayn birləşmiş görüşlər zamanı təhsil personalı (tərbiyəçi, tərbiyəçinin köməkçisi, başqa uşaqlarla işləyən şəxs) valideyndən təhsil prosesinin davamiyyəti ilə bağlı əks əlaqəni alır. Tərbiyəçi valideynlərin məmnuniyyət dərəcəsini təyin edir, onların cəlb olunmasının artırılmasına qayğı göstərir və valideynlərin müraciəti əsasında təhil prosesinin planlaşdırılması və ya həyata keçirilməsi tərəfindən lazımi dəyişiklikləri həyata keçirir. Onlayn birləşmiş görüş çərçivəsində tərbiyəçi valideynlər arasında kommunikasiyanın, təcrübələrin, hisslərin, təkliflərin və ya təəssüratların paylaşmasına dəstək verir.

Məqsədəuyğundur ki, tədris ilinin semestri başlayana qədər, ən azı bir həftə əvvəl məktəbəqədər müəssisə valideynlərlə iki sessiyalı orientasiya görüşünü təşkil etməlidir. Görüşün məqsədi valideynlərin yeni tədris ili üçün hazırlığıdır ki, burada onlar məktəbəqədər təhsil xidmətinin çatdırılmasının inzibati məsələlərlə, müəssisənin fəaliyyətinə (xüsusilə pandemiya şərtlərində) aid olan öhdəliklərlə, məsuliyyətlə və səlahiyyətlə tanış olurlar. Digər tərəfdən, önəmlidir ki, məktəbəqədər müəssisə məktəbəqədər təhsil xidmətinin çatdırılması formaları və strategiyaları haqqında ətraflı məlumatlandırılmasına əmin olsun.

Lazım gəldiyində, məktəbəqədər müəssisə məhdud imkanlı və ya xüsusi təhsilə ehtiyacı olan uşağın valideynləri ilə onların övladlarının vəziyyəti ilə müəyyən edilmiş ehtiyacların özünəməxsus təhlili və konkret informasiyanın çatdırılması məqsədilə, əlavə fərdi görüş planlaşdırmalıdır.

## Məktəbəqədər təhsil xidmətlərinin çatdırılmasının distant forması

Məktəbəqədər təhsil xidmətinin çatdırılmasının distant forması yeniliyi təqdim edir və buna da pandemiyanın yaratdığı vəziyyət səbəb oldu. Müvafiq olaraq, təhsil prosesinin yeni forması kimi, bir çox problemlərlə bağlıdır. Amma distant forma bir sıra məsələlərin nəzərə alındığı və fəaliyyətin düzgün aparıldığı halda, uşağın təliminə və inkişafına dəstək verən prosesin qorunub saxlanılmasına imkan yaradır.

Məktəbəqədər təhsil xidmətinin çatdırılmasının distant forması erkən yaşında uşağın inkişafını və onun valideynlərinin dəstəkləndirici təhsil prosesini təqdim edir ki, bu da internetdən və müxtəlif elektron resursdan istifadə etməklə davam edir. Uşaq distant forma zamanı ev mühitində valideynin yüksək cəlbolunması və məktəbəqədər təhsil xidmətinin çatdırıcısının dəstəyi ilə məktəbəqədər təhsil müəssisəsi tərəfindən təşkil edilmiş fəallıqlarda iştirak edir (kiçik qruplar, fərdi görüşlər). Eyni zamanda, tərbiyəçi ardıcıllıqla valideynlərə yaş və inkişaf üçün uyğun fəallıqları/tövsiyələri çatdırır.

Distant formanı apardıqda, təhsil personalı kurrikulumla/proqramla təklif edilən fəallıqları, xüsusi təhsilə ehtiyacı olan uşağın halında isə, onun üçün fərdi müəyyən edilmiş planı (məqsədləri və fəallıqları) həyata

keçirir, görüşləri təşkil edir ki, bu da plana uyğun və ardıcıl bir prosesdir. Qeyd edilən proses uşağın (uşaqların) təliminə və inkişafının dəstəkləndirilməsinə, təhsil prosesinin və məktəbəqədər təhsil xidmətinin və onunla əlaqənin ardıcıllığına qulluq edir. Eyni zamanda, distant forma valideynin təhsil fəallıqlarına cəlb olunmasına dəstək verir və bu da öz növbəsində, uşaq və valideyn arasında interpersonal münasibətlərin inkişafına, məktəbəqədər müəssisənin təklif etdiyi həftəlik cədvələ əsasən, valideyn tərəfindən fəallıqların həyata keçirilməsinə və s. təsir göstərir. Bu yolla uşaq kommunikasiyanın alternativ yolları ilə tanış olur və tərbiyəçi və həmyaşıd uşaqlarla münasibəti qoruyub saxlayır.

## *Həftəlik cədvəlin işlənilməsi və çatdırılması*

Məktəbəqədər təhsil xidmətinin çatdırılma prosesində çox önəmlidir ki, valideynə hər həftənin cədvəli çatdırılsın və bunda da günün tarazlaşdırılmış cədvəli və təklif edilən fəallıqlar təqdim edilsin.

Məktəbəqədər təhsil xidmətinin distant forma ilə çatdırıldığı zaman, tərbiyəçi hər həftənin cümə günü, saat 18:00-a qədər, valideynə növbəti həftənin fəallıqlarının cədvəlini yazılı formada təqdim etməlidir. Qeyd edilən fəallıq valideynin və uşağın məlumatlandırılmasını, onların hazırlığını və tədris prosesinə cəlb olunmasını təmin edir. Növbəti həftənin fəallıqlarını işləyib hazırladıqda, lazım gəldiyi halda, tərbiyəçi xüsusi təhsilə ehtiyacı olan uşaq üçün lazımi şəkildə modifikasiya olmuş fəallıqları müəyyən edir və valideynlə paylaşır.

## *Uşaqların kiçik qrupları ilə onlayn görüşlər*

Bu növdə qrup görüşünün əsas məqsədini uşaq üçün çox vacib olan emosional və sosial əlaqənin qorunub saxlanılması təqdim edir. Qeyd edilən görüş çərçivəsində, tərbiyəçi uşaqlar arasında kommunikasiyanı, bir-biri arasında yeniliklərlə, təcrübə və emosiyalarla paylaşmağı həvəsləndirməyə çalışır. Tərbiyəçi oyun forması ilə uşaqlara qrup fəallığını təklif edir və bu da məktəbəqədər təhsil xidmətinin kurrikulumuna/ proqramına istinad edir. Bu yolla uşaqlar arasında informasiya və kompetensiyanın paylaşmasına dəstək verir, uşağın təklif edilən proqrama cəlb olunma səviyyəsi haqqında məlumat alır.

Onlayn kiçik qrupların görüşləri planlaşdırılan zaman, tərbiyəçi qrupları elə komplektləşdirməli və onların tərkibini elə dəyişməlidir ki, hər bir uşaq müəyyən müddət ərzində qrupunun bütün üzvləri ilə ünsiyyət qura bilsin (məsələn, qrupun komplektləşdirilməsi hər həftə dəyişə bilər).

Kiçik qrupların fəallıqlarını planlaşdırdıqda və görüşləri həyata keçirdikdə, tərbiyəçi xüsusi təhsil ehtiyacı/ məhdud imkanı olan uşaqların və onların valideynlərinin ehtiyaclarını nəzərindən kənar qoymamalıdır.

Hətta uşağın imkanı nəzərə alınsa belə, distant təhsil prosesində aktiv iştirak edə bilmədiyində, passiv də olsa, onlayn kiçik qruplarda planlaşdırılmış fəallıqlarda iştirak etməlidir. Bu onun psixi-emosional vəziyyətinə, sosial əlaqələrin ardıcıllığına və aid olma hissinə müsbət təsir göstərə bilər. Eyni zamanda, qrup fəallıqlarında uşağın iştirakının qiymətləndirilməsi əsasında tərbiyəçi əsas məsələ olaraq, uşaqla əlavə fərdi görüşlərin zərurətini və ya valideyn tərəfindən fərdi işin həyata keçirilməsini müəyyənləşdirir.

Qeyd edilən görüşün tövsiyə edilən vaxtı 15-20 dəqiqədir. Onlayn kiçik qruplarda uşaqların sayı beşdən çox olmamalıdır.

**Vəziyyət üzrə misal**

Tərbiyəçi uşaqlarla əlaqə saxlayır, onlarla salamlaşır, hal-əhval tutur, günün mövzusunu təqdim edir və müxtəlif formada məlumat verir (prezentasiya, nümayiş üçün yaradıcılıq fəallığı və s.). Bundan sonra tərbiyəçi uşaqlara "Assosiativlik" oyununu təqdim edir və günün mövzusundan əvvəlcədən hazırlanmış iki və ya üç sualı/assosiasiyanı verir (məsələn, tikanları olan və almanı sevən heyvanı adlandırın).

Tərbiyəçi kiçik qrupun üzvlərinə imkan verməlidir ki, bir-birinin arasında müzakirələr aparsınlar, cavab üzərində razılığa gəlsinlər və yalnız bundan sonra tərbiyəçinin verdiyi suallara qayıtsınlar.

Bu fəallıq tərbiyəçiyə müəyyənləşdirməyə imkan verir: uşaq ev şəraitində tərbiyəçinin təklif etdiyi fəallıqları həyata keçirməyi nə qədər bacarır, uşağa nədə güclənmək və dəstək lazımdır, öz həmyaşıdları ilə necə əməkdaşlıq edir və münasibət saxlayır, müzakirə aparmağı bacarırmı, öz fikrini ifadə edib paylaşa bilirmi, nailiyyətə və uğursuzluğa nə qədər həssasdır. Tərbiyəçi görüşün sonunda uşaqlara cəlb olunduqları və iştirakları üçün təşəkkür edir, onlarla sağollaşır.

## *Valideynin dəstəyi və cəlb olunması ilə onlayn fərdi görüş*

Vacibdir ki, distant forma zamanı tərbiyəçi uşaqların maraqlarını və motivasiyalarını artırmaq məqsədilə, onların yaş xüsusiyyətlərini və maraqlarını nəzərə alsın. Tərbiyəçi valideynlə birlikdə uşaqla fərdi onlayn görüşü həftədə ən azı bir dəfə təşkil etməli və aylıq tematikaya istinad edərək, kiçik layihə hazırlamağı təklif etməlidir. Bu layihəni də qrupun ümumi onlayn görüşündə nümayiş etdirir.

➤ ***Qeyd edilən görüşün tövsiyə edilən müddəti 10-20 dəqiqədir.***

## *Onlayn görüşlər uşaqların böyük qrupları ilə*

Bu növdə qrup görüşünün əsas məqsədini uşaqlar və tərbiyəçi arasında emosional əlaqənin saxlanılması, şənlik əhvalının yaradılması, müsbət emosiyalarla paylaşma, özünü ifadə etmə, yaradıcılıq qabiliyyətlərinin inkişafı, birlik hissi, ayın tematikasının cəmləşdirilməsi və kurrikulumun rəngarəngləşdirilməsi təqdim edir. Tərbiyəçi ayda bir dəfə ayın mövzusunun uyğun prezentasiya fəallığını düşünməlidir.

➤ ***Qeyd edilən görüşün tövsiyə vaxtı 20-30 dəqiqə, ayda bir dəfə.***

**Vəziyyət üzrə misal**

Tərbiyəçi "Sevimli meyvə" payız mövzusu üzrə fəallıq planlaşdırdı.

Tərbiyəçi qrup üzvlərinə imkan verir ki, hər hansı bir meyvəni seçsinlər və istədikləri formada (kostyum, aksesuar, sifətin rənglənməsi, aplikasiya və s.) onu qrup üzvlərinə və tərbiyəçiyə təqdim etsinlər. Tərbiyəçi hər bir uşağa özünü göstərmək imkanını verməlidir; o, suallar verir: seçdiyi meyvəni nə üçün sevir? Hansı faydalı xassələri var və onu hazırlamaq üçün hansı materialdan istifadə etdi? Tövsiyə edilir ki, qeyd edilən fəallıq üçün tərbiyəçinin özü də hazırlaşsın və sevimli meyvəsini adlandırsın, onun haqqında prezentasiya hazırlasın.

## *Valideynlərlə onlayn fərdi görüşlər*

Distant forma zamanı tərbiyəçi və valideyn arasında müntəzəm fərdi ünsiyyət çox vacibdir və onun məqsədi valideynin dəstəyi və həvəsləndirilməsidir. Sözügedən tipdə görüşlər xüsusi təhsilə ehtiyacı olan/məhdud

imkanlı uşaqların valideynləri ilə xüsusilə önəmlidir. Tərbiyəçi valideynə uşağın yaşı və fərdi xassələri haqqında məlumat verir, ona inkişafetdirici fəallıqlar və tövsiyələr təklif edir, bu da gələcəkdə uşağın məktəbə hazırlığını təmin edir. Görüş növbəti tezliklə keçirilir: ayda ən azı 2 görüş, əlavə görüş ehtiyac olduğunda mümkündür (özəlliklə də xüsusi təhsilə ehtiyacı olan uşaqların halında).

- ***Qeyd edilən görüşün tövsiyə edilən vaxtı 10 dəqiqədir.***

Valideyn tərbiyəçi ilə uşağın emosional sahəsi ilə, davranışı ilə, nitqi ilə bağlı narahatçılığını paylaşdığı halda, tərbiyəçi mütləq valideyni psixoloqa/pediatora/xüsusi müəllimə (müəssisənin belə bir mütəxəssisi olmadığı halda, kənar mütəxəssis axtarmalı və ona ünvanlamalıdır) ünvanlamalıdır.

### *Valideynlərlə onlayn birləşmiş görüşlər*

Valideynlərin dəstəklndirilməsi və gücləndirilməsi məqsədilə, məktəbəqədər təhsil xidmətini çatdıran müəssisə üç ayda bir dəfə maarifləndirici, informasiya xarakterli onlayn birləşmiş görüşləri valideynlərlə keçirməlidir.

Məktəbəqədər müəssisənin təhsil işçiləri və müdiriyyət nümayəndəsi görüşü planlaşdırır və valideynlərlə görüşürlər, onları təhsil prosesi ilə bağlı dəyişikliklərlə və ya yeniliklərlə tanış edirlər. Eləcə də tərbiyəçi, məktəbəqədər müəssisənin psixoloqu, pediatr və ya xüsusi pedaqoq valideynləri gücləndirmək üçün tədris sessiyasını təşkil edirlər (məsələn, ev şəraitində hərəki fəallıqlar, stresin idarə edilməsi, davranışın idarə edilməsi, uşağın sağlamlıq vəziyyətinin eyniləşdirilməsi və s.).

Onlayn birləşmiş görüşlər zamanı tərbiyəçi valideyndən tədris prosesinin davamiyyəti ilə bağlı əks əlaqə verir, sonra da o, valideynlərin razılıq həddini müəyyənləşdirir, onların cəlb olmalarının artırılmasına qayğı göstərir və müraciət əsasında proqram hissəsində dəyişiklikləri həyata keçirir.

Onlayn birləşmiş görüş çərçivəsində, tərbiyəçi valideynlər arasında kommunikasiyaya və emosiyalarla paylaşmağa dəstək verir.

- ***Qeyd edilən görüşün tövsiyə edilən vaxtı 60-90 dəqiqədir.***

Semestr başlamazdan ən azı 1 həftə əvvəl məktəbəqədər tədriss xidməti proqramı valideynlərlə iki-sessiyalı orientasiya görüşünü təşkil etməlidir və onun məqsədi yeni dərs ili üçün valideynlərin hazırlığıdır; gündəlik belədir:

a) məktəbəqədər təhsil xidmətinin inzibati hissəsi ilə tanışlıq – 90 dəqiqə;
b) proqram hissəsi ilə tanışlıq – 90 dəqiqə.

## Məktəbəqədər təhsil xidmətinin çatdırılmasının hibrid forması

Məktəbəqədər təhsil xidmətinin hibrid forma ilə çatdırıldığı zaman, əyani forma qismən qorunub saxlanılmışdır, eyni zamanda xidmət distant forma ilə də təmin edilir.

Burada hibrid formanın iki variantı təklif edilmişdir, bu da həftənin günlərinə və ya günün sahələrinə əsasən uşaqların bölünməsini nəzərdə tutur. Məktəbəqədər müəssisə tərəfindən hibrid formanın qəbul edilən variantının seçilməsi fiziki mühitdən, insan resurslarından, uşaqların sayından və onun təyin edilən tənzimləmələri nə dərəcədə yerinə yetirə biləcəyindən asılıdır.

Aşağıda hibrid formanın iki variantı təsvir edilmişdir:

**I variant:** uşaqlar həftədə 5 gün məktəbəqədər təhsilin əyani forması xidmətinə yarımsahəli cədvəllə cəlb olunurlar. Hər sahənin müddəti gündə 5 saatdır, bazar ertəsindən cümə günü daxil olmaqla;

**II variant:** uşaqlar həftədə 2 gün tamsahəli cədvəllərlə məktəbəqədər təhsilin əyani forması xidmətini alırlar, qalan 3 gün isə distant fəallıqlara cəlb olunurlar (kiçik qruplar, fərdi görüşlər).

Tövsiyə edilir ki, həftənin günlərində tam sahə ilə uşaqların bölgüsü yaş qruplarına əsasən tövsiyə edilir. Lazım gəldiyində, məktəbəqədər müəssisə şənbə gününü də yükləməlidir. Aşağıda nümunə üçün cədvəli nəzərdən keçirin:

| Qrup | Hibrid formanın əyani hissəsi | Hibrid formanın distant hissəsi |
|---|---|---|
| | Həftənin günləri | Həftənin günləri |
| 2-3yaşlıların qrupu<br>3-4yaşlıların qrupu | Bazar ertəsi, çərşənbə axşamı | Çərşənbə, cümə axşamı, cümə |
| 4-5yaşlıların qrupu | Çərşənbə, cümə axşamı | Bazar ertəsi, çərşənbə axşamı, cümə |
| 5-6yaşlıların qrupu | Cümə, şənbə | Çərşənbə axşamı, çərşənbə, cümə axşamı |

## Həftəlik cədvəlin işlənilməsi və çatdırılması

Məktəbəqədər təhsil müəssisəsi hibrid təhsil prosesinin hər hansı bir variantını hər həftənin cümə günü saat 18:00-a qədər uşağın qrupunun təhsil personalı (tərbiyəçi, tərbiyəçinin köməkçisi) tərəfindən yazılmış növbəti həftənin gündəlik fəallıqlarının cədvəlini yazılı şəkildə valideynə çatdırmalıdır. Həftəlik cədvəllə tanışlıq valideynə və uşağa imkan verir ki, uşağın yaş maraqlarına və imkanlarına uyğunlaşdırılmış təhsil fəallıqları üçün əvvəlcədən hazırlaşsınlar və yönlənsinlər. Həftəlik cədvəl haqqında valideynin məlumatlandırılması ona yardım edir ki, bir tərəfdən məktəbəqədər müəssisədə uşağın hansı fəallıqlara cəlb olunduğu ilə tanış olsun, hər günün sonunda ondan gündəlik təəssüratları dinləsin, valideynin cəlb olunması və marağı artsın, digər tərəfdən isə, uşağın motivasiyasını həvəsləndirsin, növbəti günün planı ilə bağlı hazırlıq yaransın.

Bu halda, məktəbəqədər müəssisə kurrikulumdan (tematik kurrikulum, oyun) istifadə edərək, və ya adi kontekstə rəhbərlik edən proqramlara istinad edərək, həftəlik cədvəli tərtib edir. Xüsusi təhsilə ehtiyacı olan və məhdud imkanlı uşağın halında, həftəlik fəallıqlar onun ehtiyacının və inkişafının fərdi planının nəzərə alınması ilə hazırlanır.

Hibrid formanın birinci variantına əsasən, tərbiyəçi ayda iki dəfə valideynin yüksək cəlb olunması ilə qrupun hər bir üzvü ilə onlayn fərdi görüşü həyata keçirir və ona kömək edir ki, kurriklumla nəzərdə tutulan ayın mövzusu üzrə layihəni hazırlasın. Uşaq prezentasiyanı məktəbəqədər müəssisədə, qrupda (əyani hissə zamanı) keçirir.

➤ ***Qeyd edilən görüşün tövsiyə edilən vaxtı 10-20 dəqiqədir.***

## Valideynlərin dəstəyi və cəlb olunması ilə onlayn fərdi (hibrid, 1-ci variant) və ya onlayn kiçik qruplarda uşaqlarla görüş (hibrid, 2-ci variant).

Hibrid formanın ikinci variantına əsasən, tərbiyəçi həftədə 3 gün distant hissəni həyata keçirdikdə, valideynin yüksək cəlb olunması ilə kiçik qruplarda uşaqlarla görüşür (hər bir qrupda iştirakçıların sayı 2-5 iştirakçını təşkil edir). Onlayn kiçik qruplarda uşaqların cəlb olunması tərbiyəçi və uşaq arasında, eləcə də uşaq və onun yaş qrupunun üzvləri arasında emosional əlaqənin qorunub saxlanılmasına və ötən akademik qabiliyyətlərin inkişafına dəstək verir.

Onlayn kiçik qruplarda cəlb olunmalar zamanı tərbiyəçi uşaqlara konkret fəallıq təklif etməlidir və bu da təhsil proqramı/planı ilə, kurrikulumla nəzərə alınmış və ayın mövzusuna uyğundur.

- ***Qeyd edilən görüşün tövsiyə edilən vaxtı 10-20 dəqiqədir.***

## Valideynlə onlayn fərdi görüşlər

Məktəbəqədər təhsil prosesinin hibrid birinci variantının forması ilə aparıldığı zaman, təhsil işçisinin valideynlə əlaqəsi var və lazım gəldiyində, onlarla onlayn və ya fərdi onlayn görüşü planlaşdırır. Görüş zamanı tərbiyəçi valideynə onun övladının inkişafı dinamikası barəsində məlumat verir, uşağın güclü və gücləndiriləsi və dəstəkləndiriləsi tərəfləri haqqında danışır. Lazım gəldiyində, tərbiyəçi valideynlə əlaqə saxlamalı və uşağın nailiyyətləri ilə paylaşmalıdır. Qeyd edilən kommunikasiyanın məqsədi valideynin məlumatlandırılması, məktəbəqədər təhsil xidməti prosesinə cəlb olunması və pozitiv valideyn olmaqda ona dəstək verilməsidir.

- ***Qeyd edilən görüşün tövsiyə edilən vaxtı 10-20 dəqiqədir.***

Hibrid formanın ikinci variantına əsasən, tərbiyəçinin valideynlə mütəmadi, fərdi ünsiyyəti olmalıdır və bunun məqsədi də valideynin dəstəkləndirilməsi və həvəsləndirilməsidir. Tərbiyəçi valideynə uşağın yaş və fərdi xüsusiyyətləri haqqında məlumat çatdırır, ona müvafiq inkişafetdirici fəallığı və tövsiyələri təklif edir və bunlar da gələcəkdə uşağın məktəb üçün hazırlığını təmin edir, növbəti tezlikdə: ayda ən azı 2 görüş (əlavə isə lazım gəldiyində).

## Valideynlərlə onlayn birləşmiş görüşlər

Hibrid formanın hər hansı bir variantının tətbiq edildiyi halda, valideynlərin dəstəkləndirilməsi və gücləndirilməsi məqsədilə, məktəbəqədər müəssisə üç ayda bir dəfə valideynlərlə tədris, informasiya tipli onlayn birləşmiş görüşləri təşkil etməlidir.

Məktəbəqədər müəssisənin nümayəndələri (tərbiyəçi və müdiriyyətin nümayəndəsi) görüşü planlaşdırır və valideynlərlə görüşürlər, onları dərs prosesi ilə bağlı dəyişikliklərlə və ya yeniliklərlə tanış edirlər. Eləcə də, tərbiyəçi, müəssisənin psixoloqu, pediatr və ya xüsusi müəllim valideynləri gücləndirmək üçün dərs sessiyasını təşkil edirlər (məs., ev şəraitində hərəki fəallıqlar, stresin idarə edilməsi, davranışın idarəetməsi, uşaqların vəziyyətinin eyniləşdiriıməsi və s.).

Onlayn birləşmiş görüşlər zamanı tərbiyəçi valideyndən tədris prosesinin davamiyyəti ilə bağlı əks əlaqə verir, sonra da o, valideynlərin razılıq həddini müəyyənləşdirir, onların cəlb olmalarının artırılmasına qayğı göstərir və müraciət əsasında proqram hissəsində dəyişiklikləri həyata keçirir.

Onlayn birləşmiş görüş çərçivəsində, tərbiyəçi valideynlər arasında kommunikasiyaya və emosiyalarla paylaşmağa dəstək verir .

➤ ***Qeyd edilən görüşün tövsiyə edilən vaxtı 60-90 dəqiqədir.***

Dərs ilində semestr başlamazdan ən azı 1 həftə əvvəl məktəbəqədər tədris xidməti proqramı valideynlərlə iki-sessiyalı orientasiya görüşünü təşkil etməlidir və onun məqsədi yeni dərs ili üçün valideynlərin hazırlığıdır; gündəlik belədir:

a) məktəbəqədər təhsil xidmətinin inzibati hissəsi ilə tanışlıq – 90 dəqiqə;
b) proqram hissəsi ilə tanışlıq – 90 dəqiqə.

# COVID 19-UN SƏBƏB OLDUĞU PANDEMİYA ŞƏRTLƏRİNDƏ MƏKTƏBƏQƏDƏR TƏHSİL XİDMƏTİNİN ÇATDIRILMA PROSESİNDƏ UŞAQLARIN EMOSİONAL FİRAVANLIĞI

**Təhsil prosesinin əvvəli, onunla bağlı dəyişikliklər, valideynlərlə ayrılma, kənar insanlarla tanışlıq, yad mühitdə qalmaq, yeni qaydalara adət etmək – bunlar uşağın təhsil müəssisəsinə birinci dəfə getdiyi halda, qarşılaşacaqları qısa siyahıdır. COVID 19-un səbəb olduğu pandemiya şərtlərində qeyd edilən yeniliklərə əlavə stressorlar əlavə olunur, məsələn, müəyyən məsələlərə diqqətin kəskinləşdirilməsi (temperaturun ölçülməsi, dezinfeksiya məhlulunun istifadəsi), valideynin çoxalmış həyəcanı, tərbiyəçilərin çoxalmış həyəcanı, bir sıra hallarda artıq mövcud rutinin pozulması (əvvəllər bağçaya gedənlər üçün) və s. Nəticədə, uşaq üçün təlim prosesi daha çox stres olur, nəinki başqa zaman.**

Eləcə də valideynlərin əksəriyyəti uşaq təhsil müəssisəsinə (məktəbəqədər, məktəb) getməzdən öncə, xüsusilə də uşağın sözügedən müəssisəyə birinci dəfə getdiyində narahat olurlar. Uşaqları artıq məktəbəqədər müəssisəyə və məktəbə gedən valideynləri daha az narahatçılıq xarakterizə edir. COVID 19 pandemiyasının səbəb olduğu vəziyyətə görə, məktəbəqədər müəssisəyə gedən və gündəlik rutinə öyrəşən, bir neçə aylıq onlar üçün adi mühitdən, fəallıqlardan, rutindən kənarlaşan uşaqlar məktəbəqədər müəssisəyə ilk dəfə gələn uşaqlarla bərabərləşirlər, müvafiq olaraq valideynlər yenə də narahat olurlar. Onu da nəzərə almaq lazımdır ki, uşaqların qayıtmalı olduqları mühit müəyyən qismdə adi mühitdən fərqlənir, onlar üçün adi, tanış qaydalardan fərqlənir. Müvafiq olaraq, yeni dərs ilinə hazırlaşan hər bir valideynə və uşağa müəyyən dəstək lazımdır ki, əvvəlcədən bir sıra məsələlərlə tanış olsunlar, təhsil prosesi ilə bağlı müvafiq gözləntiləri yaransın və pandemiyaya görə, yaranmış qeyri-adi qaydalar və tənzimləmələr çərçivəsində fəaliyyət cəhətindən hazırlıqları olsun.

## *Təhsil prosesi üçün valideynin hazırlığı*

Məktəbəqədər müəssisə valideyni əvvəlcədən məktəbəqədər müəssisə tərəfindən təklif edilən məktəbəqədər təhsil xidmətinin forması və strategiyaları haqqında məlumatla (Baxın: “COVID 19 şərtlərinin nəzərə alınması ilə məktəbəqədər təhsil xidmətinin çatdırılma formaları” fəsli), eləcə də Gürcüstanın İşğal edilmiş Ərazilərindən Qaçqınların, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi tərəfindən işlənib hazırlanmış tövsiyələrə və tənzimləmələrə əsaslanan ümumi qaydalarla, dəyişmiş rutinlə tanış etməlidir.

COVID 19-un səbəb olduğu vəziyyəti nəzərə almaqla, məktəbəqədər təhsil xidmətinin çatdırılma forması il ərzində müxtəlif ola bilər və qeyri-adi forma ilə həyata keçirilə bilər (məsələn, müəssisə məktəbəqədər təhsil xidmətini distant forma ilə çatdırdığında, natamam əyani və ya hibrid forma ilə); əsas odur ki, uşaq və ona qayğı göstərən şəxslər gözlənilən dəyişikliklər haqqında lazımi məlumatlı olmalıdırlar, çünki bu, gündəlik həyatı proqnozlaşdırılan edir və həm uşağın ailə üzvlərinin, eləcə də məktəbəqədər müəssisənin təlim personalının lazımi hazırlığını və mobilliyini formalaşdırır. Bu da öz tərəfindən, azyaşlı uşaqlar üçün sosial-emosional cəhətdən mühafizə olunan və proqnozlaşdırılan fiziki, virtual və sosial məkanların/mühitin yaradılmasını təmin etməlidir.

## *Təhsil prosesinin əvvəlinin maksimal cəhətdən ağrısız keçirilməsi üçün vacibdir ki, məktəbəqədər müəssisə növbəti tövsiyələri nəzərə almalıdır:*

- Valideyni Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınlar, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi tərəfindən göstərilən məktəbəqədər müəssisənin ümumi qaydaları ilə tanış edin;
- Valideynə məktəbəqədər təhsil xidmətinin müxtəlif formalarının (əlaqəli, hibrid, distant) formalarının çatdırılması haqqında məlumat verin. İzah edin ki, nə üçün müəssisəniz üçün bu konkret forma seçilmişdir və məktəbəqədər müəssisənin istifadə etdiyi və təhsil prosesini həyata keçirdiyi forma haqqında ətraflı şəkildə tanış edin;
- Valideyni məktəbəqədər təhsil xidmətinin çatdırılma formalarına (əyani, hibrid, distant) əsasən, günün dəyişmiş rutini/rejimi ilə tanış edin;
- Valideyni əvvəlcədən uşağın günün əsas hissəsini keçirəcəyi mühitlə tanış edin. Valideynin mövcud tənzimləmələr fonunda binaya daxil ola bilmədiyi halda, mühit haqqında məlumatı foto- və ya videomaterial vasitəsilə ona çatdıra bilərsiniz. Çünki pandemiya ilə bağlı vəziyyətə görə, təhsil prosesinin əvvəlində də və sonra da valideynin müəssisəyə girişi məhdudlaşdırılacaq, Bunu qeyd edilən təhsil prosesinin başlanmasına qədər həyata keçirə bilərsiniz. Bir sıra hallarda, interneti vasitəsilə də valideyni qrupun otaqları, eləcə də izolyasiya otağı ilə tanış edə bilərsiniz.
- Valideynlə paylaşın ki, hansı strategiyalardan istifadə etməklə uşaqların təhlükəsizliyi mühafizə olunacaqdır;
- Tanış edin ki, mövcud dəyişikliklər fonunda uşaq üçün stimullaşdırıcı mühitin yaradılması necə baş verəcək və təhsil prosesi necə keçiriləcəkdir;
- Məktəbəqədər təhsil kurrikulumunda mövcud dəyişikliklər haqqında məlumat verin, məsələn, gigiyena barəsində söhbət edərkən qrupda bakteriyalardan və viruslardan yaxa qurtarmaq vasitələrini müzakirə edəcəksiniz.
- Əvvəlcədən tanış edin ki, hansı halda məktəbəqədər təhsil xidmətinin çatdırılmasının bir forması ikinci ilə əvəz oluna bilər (məsələn, əyanidən hibridə və oxşar birinə).
- Məktəbəqədər təhsil xidmətinin distant və ya hibrid forma ilə planlaşdırıldığı və ya həyata keçirildiyi halda, valideynə uyğun cədvəl haqqında məlumat verin. Məktəbəqədər təhsil xidmətinin distant və ya hibrid forması ilə təmin edildiyi halda, məktəbəqədər müəssisə valideyni xırdalıqları ilə strategiyalarla tanış edir və öz rolunun və cəlb olunmasının intensivliyi ilə bağlı lazımi hazırlığı yaradır.
- Təhsil prosesinin distant və ya hibrid forması ilə həyata keçirildiyi halda, valideynin cari prosesə necə qoşulacağını bildiyinə əmin olun və lazım gəldiyi halda, texnoloji vasitələri mənimsəməkdə yardım edin (konkret aplikasiyalar, linklər, internet səhifələr, şifahi və ya yazılı təlimatlar və tövsiyələr verin).
- əmin olun ki, valideyn onun üçün lazımi bütün suallar haqqında məlumatı almışdır.

Məktəbəqədər təhsil xidmətinin çatdırılma formalarını və strategiyalarını təklif etdikdə (məktəbəqədər təhsil müəssisəsinin müəyyən səbəblərə görə adi tamsahəli əlaqə formasını seçə bilmədiyinə görə), valideynlərin sorğusunun keçirilməsi və əməkdaşlıq əsasında təhsil prosesinin yekun formasının seçilməsi yaxşı olardı (Baxın: „COVID 19 şərtlərinin nəzərə alınması ilə məktəbəqədər təhsil xidmətinin çatdırılma formaları" fəsli, eləcə də izləyin: Əlavə №4: Valideyn üçün hazırlanmış qeyd vərəqinin nümunəsi).

Valideynin emosional firavanlığı üçün yaxşı olardı ki, əvvəlcə uşağın tərbiyəçisi ilə tanış olsun. Tərbiyəçi ona təhsil prosesinin formaları və strategiyaları haqqında məlumatı çatdıracaqdır. Yaxşı olardı ki, tərbiyəçi valideynə məlumat çatdırsın ki, uşaq üçün rutinin və tarazlaşdırılmış gündəliyin planlaşdırılması və izləməsi/cəlb olunması nə qədər önəmlidir.

Təhsil prosesinin distant forma ilə həyata keçirildiyi halda məqsədəuyğundur ki, valideyn yaxşı məlumatlı olmalı və dərk etməlidir ki, nə üçün çatdırılmış həftəlik cədvələ əsasən uşağın rutini qoruyub saxlaması vacibdir. Eləcə də vacibdir ki, məktəbəqədər müəssisə valideynə təhsil prosesinin distant formasının nəyi

nəzərdə tutduğunu, həm onlayn kiçik qruplarda, eləcə də onlayn fərdi görüşlərdə onun cəlb olunma və iştirak səviyyəsinin necə olduğunu yaxşı izah etsin. Valideyn anlamalıdır ki, uşaq ekran arxasında tövsiyə edilən vaxtdan artıq vaxt keçirmir və bu prosesdə vacibdir ki, uşaqla birlikdə valideyn/himayədar şəxs cəlb olunsun.

Tövsiyə edilir ki, məktəbəqədər müəssisə valideynə uşaq üçün diqqətini cəmləşdirə biləcəyi otaq ayırmasını məsləhət görsün və imkan daxilində valideyn və uşaq onlayn fəallıqlara eyni yerdən qoşulsunlar, – bu, uşağın rutinə hazırlaşması və hazırlığa adət etməsi üçün öz töhfəsini vermiş olacaqdır.

Vacibdir ki, məktəbəqədər müəssisənin nümayəndəsi (xüsusilə də tərbiyəçi) uşağın özünəməxsusluqları, maraqları haqqında bilsin; sözügedən xüsusilə də COVID 19-un səbəb olduğu vəziyyətin fonunda önəmlidir, çünki bəzi uşağın (o cümlədən, məhdud imkanlı və ya xüsusi təhsilə ehtiyacı olan uşağın) narahatlıq fonunda sosial-emosional vəziyyəti dəyişə bilər. Aşağıda cədvəldə yaş xüsusiyyətlərinin nəzərə alınması ilə ümumi tövsiyələr verilmişdir ki, bunlar da həm tərbiyəçiyə, eləcə də valideynə diqqətəlayiq əlamətlərin eyniləşdirilməsində və lazımi şəkildə reaksiya göstərməkdə yardım edəcəkdir.

Yaxşı olardı ki, məktəbəqədər müəssisə, özəlliklə də, uşağın tərbiyəçisi valideynə uşağın hazırlığı ilə bağlı tövsiyələr versin.

Cədvəldə 1-8 yaşına qədər uşaqların və yeniyetmələrin stres vəziyyətinə reaksiyaları və bunlarla ayaqlaşmanın müxtəlif strategiyaları təsvir edilmişdir. Cədvəldə təqdim edilən informasiya Kolumbiya Universiteti və SAVE THE CHILDREN tərəfindən nəşr edilən – „Uşaqlar (1-18) tərəfindən yaşanılmış stresə reaksiyanın göstərilməsinin adi reaksiyaları, stresdən/böhran vəziyyətindən sonra və travma zamanı istifadə olunan ayaqlaşma strategiyaları” sənədə əsaslanır.

| Yaş | Stresə reaksiya | Dəstək strategiyaları |
|---|---|---|
| ***1-5 yaş*** | • **Reqressiv reaksiya:** gecə enurezi (yuxuda sidik qaçırması), barmağı sormaq, qaranlıqdan qorxmaq, heyvanlardan qorxmaq, "monstrlardan" qorxmaq, yad insanlardan qorxmaq.<br>• **Fizioloji reaksiyalar:** iştahanın itirilməsi, həddən çox yemək, həzm sistemi və işəmə çətinlikləri (diareya, işəmə problemləri), ürək bulantısı, yuxu çətinlikləri və gecə dəhşətləri<br>• **Emosional/davranış reaksiyaları:** əsəbilik, qıcıqlanma, mızıldanma, tərslik, hiperaktivlik, nitq çətinlikləri, valideynlə ayrılığa görə narahatlıq, diqqəti cəmləşdirmək çətinlikləri, aqressiv davranış, travmatik vəziyyətin və təcrübənin şişirdilməsi və ya eybəcər şəklə salınması, travmatik/böhran vəziyyəti, təcrübə haqqında təkrar söhbət (məs., həkim gələndə mən qorxdum, həkim gələnə qədər mən qorxdum və s.) | • əlavə şifahi dəstək verin və lazım gəldiyində, fiziki rahatlığı təmin edin (məs.: qucağınıza alın, qucaqlayın)<br>• Uşağı rahat yuxu rutini ilə təmin edin (yuxu zamanı, yatmazdan öncə fəallıqlar və s.)<br>• İmkan verin və həvəsləndirin ki, emosiyalarını oyun və rəssamlıq, rollarla oyun, kuklalarla oyun, təcrübə haqqında əhvalatların nəqli kimi fəallıqlar şəklində təsvir etsin<br>• Uşaqlara imkan verin ki, lazım gəldiyi halda, davranışlarını müvəqqəti dəyişsinlər, məs.: qrupda tərbiyəçinin yanında otursunlar, valideynlərinin otağında yatsınlar<br>• Uşaq üçün adi rutini maksimal sürətlə bərpa edin<br>• Lazım gəldiyi halda, valideynlə uşağın emosional vəziyyəti ilə paylaşın və mütəxəssisə müraciət etməyi tövsiyə edin. |
| **5-11 yaş** | • **Reqressiv reaksiyalar:** valideynin və ya başqa böyüyün diqqətini çəkmək məqsədilə, bacı-qardaşla və ya başqa uşaqla rəqabət, bərk-bərk yapışmaq, tez-tez ağlamaq və mızıldanmaq; müstəqil yerinə yetirdiyi əməllərdə böyüyün yardımı və cəlb olunmasını tələb edir, məs., onu geyindirmələrini və yedizdirmələrini tələb edir<br>• **Fizioloji reaksiyalar:** baş ağrısı, eşitmə və görmə ilə bağlı şikayət, tez-tez qaşınmaq, ürək bulanması hissi, yuxunun pozulması, gecə dəhşətləri | • əlavə diqqət verin və onun fiziki rahatlığını təmin edin<br>• uşaq üçün yaşa uyğun davranışı pozitiv bərkidin<br>• məktəbdə davamiyyət və başqa fəallıqlarla bağlı tələbləri müvəqqəti yumşaldın və ya azaldın<br>• şagirdi inandırın ki, kompetensiya və yerinə yetirmə səviyyəsi ona qayıdacaqdır (məs.: narahatçılıq fonunda diqqətini cəmləşdirməkdə çətinlik çəkirsə, bu halda onu tərifləyin və deyin ki, bu konkret fəallıq hər zaman onda yaxşı alınırdı və siz əminsiniz ki, tezliklə yenə də yaxşı bacaracaqdır). |

| Yaş | Stresə reaksiya | Dəstək strategiyaları |
|---|---|---|
| | • **emosional/davranış reaksiyaları:** məktəb fobiyası, yoldaşların və kiçik qrupların arasından təcrid edilmə, ailə üzvləri ilə ünsiyyətin azalması, qıcıqlanma, qaydalara əməl edilməməsi, müxtəlif növdə qorxu (məs., hər hansı bir ailə üzvünün xəstələndiyində, özü də xəstələnəcəkdir), aqressiv davranış, onun üçün travmatik hadisə, fakt, təcrübə, itki və ya emosiya barəsində təkrar söhbət. | • Strukturkaşdırılmış, amma mülayim tələblər rutinini və məsuliyyətləri təmin edin, uşağı fiziki fəallıqlara həvəsləndirin<br>• Qrupda müxtəlif növ emosiyaları və bunlarla ayaqlaşma strategiyalarını təhlil edin (məs., qrupda qorxunu təhlil edin və uşaqları cəlb etməklə və diskussiya ilə ayaqlaşma strategiyalarını müzakirə edin).<br>• Həmyaşıdlarla və ya böyüklərlə oyun sessiyalarını təmin edin, rollarla oyun zamanı gigiyenaya əməl edilməsi və təhlükəsizlik qaydalarını oynayın<br>• Lazım gəldiyi halda, valideynlə uşağın emosional vəziyyəti ilə bağlı narahatçılığınızla paylaşın və mütəxəssisə müraciət etməsini tövsiyə edin. |
| **11-14 yaş** | • **Reqressiv reaksiya:** valideynin və ya başqa böyüyün diqqətini çəkmək məqsədilə, bacı-qardaşla və ya başqa uşaqla artmış rəqabət, rutin və məsuliyyətin yerinə yetirilməsi çətinliyi<br>• **Fizioloji reaksiyalar:** baş ağrısı, şikayət, qeyri-müəyyən ağrılardan şikayətlənmə, həddən çox yemək və ya iştahanın itirilməsi, mədə-bağırsaq sisteminin çətinlikləri, dəri pozuntuları, yuxu pozuntuları<br>• **emosional/davranış reaksiyaları:** həmyaşıdlarla birlikdə fəallıqlara cəlb olunma çətinlikləri, dərs nailiyyəti səviyyəsinin zəifləməsi, destruktiv davranış, hobbi və istirahətə qarşı marağın azalması (qanunlara və qaydalara əməl etmir); həmyaşıdlarla, bacı-qardaşlarla və valideynlərlə ünsiyyət prosesində çətinliklər, məyusluq, depressiya, anti-sosial davranış (məs., oğurluq, yalan və s.) | • nəzarətə deyil, pozitiv ünsiyyətə və əhval-ruhiyyəyə əlavə diqqət yetirin<br>• Təlimdə maneələri olduğu halda, uşağı əmin edin ki, bilgi və yerinə yetirmə səviyyəsi qayıdacaqdır<br>• Evdə və məktəbdə tələbləri müvəqqəti olaraq yumşaldın və ya azaldın, yaxud da dəyişdirin<br>• • Strukturlaşdırılmış, lakin ciddi olmayan rutinləri və məsuliyyətləri təmin edin<br>• Uşağın fiziki fəallıqlara cəlb olunmasını həvəsləndirin<br>• Uşağın emosional ifadəetməsini şifahi və yazılı şəkildə həvəsləndirin<br>• Uşağı onun emosional rifahına kömək edəcək müxtəlif qrup və ya məktəb fəaliyyətlərində iştirak etməyə həvəsləndirin<br>• Uşağın sosial interaksiyasını həvəsləndirin<br>• Həmyaşıdlarla və ya böyüklərlə gigiyenaya əməl edilməsi və təhlükəsizlik qaydalarını oynayın (uşaqların yaş qrupu üçün müvafiq oyunlarla).<br>• Lazım gəldiyi halda, valideynlə uşağın emosional vəziyyəti ilə bağlı narahatçılığınızla paylaşın və mütəxəssisə müraciət etməsini tövsiyə edin. |
| **14-18 yaş** | • **Reqressiv reaksiya:** məsuliyyətli davranışın azaldılması, yaşa uyğun valideyn nəzarətinə qarşı mübarizənin azaldılması, sosial maraqların və fəallıqların azaldılması<br>• **Fizioloji reaksiyalar:** həzm sisteminin və sidik kisəsinin fəaliyyətindən şikayət, baş ağrısı, dəri səpkisi, yuxu pozuntuları, izah edilməmiş fiziki şikayətlər və ya fiziki problemlərin olmasının şişirdilmiş qorxusu<br>• **emosional/davranış reaksiyası:** fiziki fəallıqda nəzərə çarpan dəyişiklik, məs., çox artırılmış və azaldılmış fəallıq. Natamamlıq və müdafiəsizlik hissi, acizlik hissi, anti-sosial davranış (oğurluq və ya vandalizm), planlaşdırılmış fəallıqlara qarşı zəifləmiş diqqətin cəmləşdirilməsi, depresiya, izolyasiya. | • Uşağı həvəsləndirin ki, öz təcrübəsi barəsində söhbət etsin<br>• Evdə və məktəbdə nailiyyət gözləntisini müvəqqəti azaldın<br>• Sosial fəallıqlara cəlb olunmanı/qayıdışı həvəsləndirin<br>• Uşağın həmyaşıdlarla və ya böyüklərlə sosial interaksiyasını həvəsləndirin<br>• Uşağı həvəsləndirin ki, onun emosional firavanlığına dəstək verən müxtəlif qrup və ya məktəb fəallığında iştirak etsin<br>• Lazım gəldiyi halda, valideynlə uşağın emosional vəziyyəti ilə bağlı narahatçılığınızla paylaşın və mütəxəssisə müraciət etməsini tövsiyə edin. |

Hər bir uşaq fərdidir, belə ki, qeyd edilən davranışların arxasında siyahıda göstərilməyən başqa növdə davranış ayırd edilə bilər. Müvafiq olaraq, tərbiyəçi hər zaman diqqətli olmalıdır ki, uşaqda cüzi dəyişiklik də nəzərdən kənara qalmasın.

Unutmayın! Yuxarıda qeyd edilən və ya başqa davranışın ayırd edildiyi halda uşaqla dalaşmayın. Dialoq, söhbət, oyun vasitəsilə onun emosional vəziyyətini ayırd etməyə çalışın və davranışın pozitiv idarəetməsinin və ya emosiyaların tənzimləmə strategiyalarından istifadə etməklə yardım göstərin.

Yaxşı olardı ki, tərbiyəçi valideynə aşağıda təqdim edilən cədvələ əsasən məlumatı təqdim etsin:

***Əyani forma***

- ✓ Səhər-səhər məktəbəqədər müəssisəyə gəliş vaxtı;
- ✓ Məktəbəqədər müəssisəyə giriş zamanı həyata keçirilmiş rutin və prosedurlar (uşaq və valideyn bir-biri ilə harada ayrılırlar və s.);
- ✓ Tərbiyəçi kim olacaqdır (yaxşı olardı ki, əyani yolla və ya internetdən istifadə etməklə valideynlə əvvəlcədən görüş həyata keçirilsin)?
- ✓ Qrupda təxminən neçə uşaq olacaqdır?
- ✓ Qrupun rutini və fəallıqları necə olacaqdır?
- ✓ Həyətə çıxmaq prosedurları;
- ✓ Qidalanma harada və hansı formada olacaqdır? Qidalanma rutini və prosedurları;
- ✓ Əllərin yuyulması ilə bağlı prosedurlar;
- ✓ Gediş vaxtı və prosedurlar.

***Distant forma***

- ✓ Hansı növdə onlayn görüşlər olacaq (fərdi, kiçik qruplarda, birləşmiş qruplarda)?
- ✓ Onlayn qoşulmalar haqqında təlimatlar;
- ✓ Onlayn görüş üçün konkret məktəbəqədər müəssisə hansı platformadan istifadə edir?
- ✓ Hansı onlayn görüş zamanı hansı növdə fəallıqları çatdıracaqlar?
- ✓ Uşaq onlayn fəallıqlara necə cəlb olunmalı və bu prosesdə valideynə hansı rol verilir?
- ✓ Onlayn görüşlərin rutini və fəallıqları necə olacaqdır?

***Hibrid forma***

- ✓ Tədris prosesinin əyani və distant formalarla həyata keçirilməsinin bölgü cədvəli (həftənin günləri və ya günün sahələri);
- ✓ Lazımi cədvəldən əyani formanın günlərinin informasiyası;
- ✓ Lazımi cədvəldən distant formanın günlərinin informasiyası.

Yaxşı olardı ki, məktəbəqədər müəssisə müxtəlif xidmət haqqında lazımi məlumata malik olsun ki, müəyyən ehtiyaclar və ya yüksək distres halında, məlumatlı valideyni müvafiq peşəkar mütəxəssisə və ya əlavə dəstək almaq məqsədilə quruma ünvanlandırsın.

## Tərbiyəçi təlimin başlanılması üçün necə hazırlaşır

Məktəbəqədər müəssisənin nümayəndəsi və xüsusilə də, tərbiyəçi uşağın xüsusiyyətlərini və maraqlarını bilməlidir. Sözügedən xüsusilə də COVID 19-un fonunda önəmlidir, çünki uşaqların müəyyən hissəsinə

yüksək stres fonunda emosional dəstək lazım gələ bilər. Uşağın müəyyən qorxusu, təlatümü ola bilər və tərbiyəçi bunları tədris prosesində nəzərə almalı olduğunu bilməlidir.

Tövsiyə edilir ki:

- Tərbiyəçi dərs ilinin başlanmasına qədər müxtəlif ədəbiyyatla, audio- və videomaterialla tanış olmalı və bunlardan uşaqlarda özünü göstərən stres barəsində məlumat almalıdır.
- Tərbiyəçi uşaqlarda stresin idarə edilməsi, onlara emosional dəstəyin verilməsi və dözümün artması strategiyaları ilə tanış olmalıdır (verilən linklərdəki məqalələrlə tanış olun*).
- Məktəbəqədər təhsil müəssisəsinin nümayəndələri və tərbiyəçi valideynlə kiçik qruplarda görüşməlidirlər (lazım gəldiyində, fərdi) ki, uşaq haqqında əlavə məlumat alsınlar
- Tərbiyəçi uşağın ehtiyacları, maraqları, özünəməxsusluqları haqqında məlumatı əldə etməli və bunları tədris prosesində nəzərə almalıdır.
- Tərbiyəçi əllərin yuyulması prosedurlarına, əllərin üzə toxunulmamasına, öskürmə qaydasına (uşaqlar elə öskürməlidirlər ki, başqasına narahatlıq və təhlükə yaratmasınlar) aid oyunları axtarıb tapmalı və yaratmalıdır. Qeyd edilən oyunlar həvəsli və maraqlı olmalıdır.

**Vəziyyət üzrə misal**

Valideyn tərbiyəçiyə məlumat verir ki, 3 yaşlı Nini öz yumşaq “ayısını” çox sevir, onu hər zaman özü ilə gəzdirir və gecə də onunla yatır. Bağçaya getmək təklif edilən kimi Nini söhbətə başladı ki, o və “ayı” bağçaya birlikdə gedəcəklər. COVID 19-un səbəb olduğu vəziyyətə görə, bağçaya yumşaq oyuncaqların gətirilməsinə icazə verilmir və valideyn də narahatdır ki, uşağı bağçaya gətirmək və sonra da onu qrupda saxlamaq çox çətin olacaqdır. Tərbiyəçi bunu nəzərə alır və uşağın valideyni ilə birlikdə müxtəlif alternativi nəzərdən keçirir ki, “ayını” necə əvəz etmək mümkündür. Variantlar hazırlanır.

Alternativ 1. Tərbiyəçi valideynə təklif edir ki, bağçaya gedənə qədər valideyn uşaqla birlikdə müzakirə etsin və ayısız bağçaya gedişin müxtəlif ssenarilərini oynasınlar, məsələn, ayı uşağı evin qapısından yola salır və ya ayı Nini ilə bağçaya qədər gedir, sonra ona əl edir və anası ilə birlikdə evə dönür.

Alternativ 2. Ev şərtlərində bağça düzəldilsin və ayı da bu bağçaya getsin, Nini onu bağçaya aparsın və orada bir müddət qoysun (bağça çadır tipli məkanda ayrı otaqda oyuncaqlarla təşkil edilə bilər və ya xüsusi guşə düzəldilə bilər). Bununla valideyn Niniyə onun və ayının bağçasını bir-birindən ayırmaqda, eləcə də ayı ilə müvəqqəti ayrılmağa yardım edəcəkdir.

Alternativ 3. Tərbiyəçi valideynə təklif edir ki, ayının şəklini çəksin və valideyn evdə uşaqla birlikdə ssenari hazırlasınlar, rol oynasınlar, bunun əsasında da Nini bağçaya ayının fotoşəklini aparsın.

Alternativ 4. Tərbiyəçi və valideyn razılaşırlar ki, videozəng vasitəsilə bağça mühitini ayıya göstərəcəklər.

# Valideynin dəstəyi ilə uşaq məktəbəqədər müəssisəyə necə hazırlaşır

Həyatın bütün mərhələsində uşağın inkişafı üçün ən önəmli komponentdən birini emosional firavanlıq təqdim edir. Dəstək, təhlükəsizlik, xoşbəxtlik hissinin olduğu halda, uşağın motivasiyası olur ki, bu və ya digər fəallığa qoşulsun, özünü müxtəlif mühitdə təhlükəsiz hiss etsin, eksperimentlər keçirsin, yenilikləri öyrənməyə həvəsli və maraqlı olsun. Uşaqda təhlükəsizlik və yeni mühitə mənsubiyyət hissi olduğunda, özünü rahat hiss etdiyində və firavanlıq hissi olanda, həm tərbiyəçilərə, eləcə də həmyaşıdlarına qarşı xoş davranır və təklif edilən fəallıqlara cəlb olunmasına hazır olduğunu göstərir.

* https://drive.google.com/file/d/1i2yCZxo0dzguvNPYIsPO2pcD-xZd3_nz/view?usp=sharing

Emosional firavanlıq, təhlükəsizlik və aidiyyat hissinin yaradılmasına məktəbəqədər müəssisəyə getməzdən öncə qayğı göstərilməlidir. Məktəbəqədər müəssisəyə və onun rutin həyatına olan ilkin əhval-ruhiyyə və hazırlıq nəinki uşağın emosional firavanlığına dəstək verir, eləcədə də onun tədris prosesinə cəlb olunmasında birbaşa öz əksini tapır. Uşaq nə qədər çox hazırlıqlı olarsa, bağça rutinini, gözlənilən fəallıqları bilərsə, prosesə cəlb olunan şəxslərin kim olduğunu və ətraf mühitdən nəyi gözləyəcəyini bilərsə, bu halda yeni mühitə daha sürətlə və ağrısız adət edəcək, yeniliyin (mühit, insanlar) səbəb olduğu stres azalacaq və tədris prosesinə həvəslə qatılacaqdır. COVID 19 şərtlərində uşağın məlumatlandırılması daha önəmlidir ki, təhsil müəssisəsində onu hansı mühit, fəallıqlar, rutin və prosedurlar gözləyir. Bunun üçün məktəbəqədər müəssisənin xidmət nümayəndəsi valideynə ətraflı məlumat verməli və uşağı hazırlamaqda ona yardım etməlidir.

Uşaq üçün gündəlik həyatda müəyyən rutinin olması çox vacibdir. Kiçik yaşlı uşaqlar çox inadkar olurlar və onlara hazırlıq gərəkdir. Yenilik üçün əvvəlcədən çatdırılmış cədvəl onlara əhval-ruhiyyəni yaratmaqda, motivasiyanı artırmaqda və marağı oyatmaqda yardım edir. Qeyd ediləndən irəli gələrək, gündəlik və həftəlik fəallıqların cədvəli və rutinlə əvvəlcədən tanışlıq uşağın təlimə cəlb olunması prosesində həlledici rollardan birini oynayır. Eləcə də cədvəllə tanışlıq zamanı uşağı dinləmək və ondan əks təsir almaq lazımdır, məsələn, tərbiyəçinin ona təklif etdiyində ki, onlar həftə ərzində heyvanlar haqqında danışacaqlar, uşaq isə cavab verir ki, dinozavrlar haqqında danışmaq istəyir. Tərbiyəçi uşağın marağını nəzərə alır, uşağı xəbərdar edir ki, onun marağı da nəzərə alınacaqdır və heyvanlarla birlikdə planlaşdırılmış fəallıqda hal-hazırda mövcud olmayan nəhəng heyvan – dinozavr haqqında da danışacaqdır. Nəticədə uşaq bilir ki, tərbiyəçi onun xahişini nəzərə almış, bilir ki, bu həftədə hansı mövzular və hansı növdə fəallıqlar olacaqdır, gözləntiləri var, motivasiyalıdır və gündəlik görüşlər üçün hazırlaşır və bunların fonunda da təhsil prosesi uşaq üçün də, tərbiyəçi üçün də həvəsli və maraqlı keçir.

# Valideyn uşağı məktəbəqədər müəssisə üçün necə hazırlayır?

## *Tərbiyəçilər üçün tövsiyələr*

- Tərbiyəçi valideynə məsləhət görür ki, uşaqla dialoq aparsın, ona məktəbəqədər müəssisə ilə bağlı suallar versin, ayırd etsin ki, uşağın hansı gözləntisi var, müxtəlif fəallıqlara qoşulmaqla ilkin əhval ruhiyyə yaratsın. Aşağıda verilən fəallıqlar, təkliflər tövsiyə olunur.
    - Valideyn uşaqdan xahiş edir ki, birlikdə bağça şəklini çəksinlər və sonra şəkli müzakirə etsinlər; valideyn uşaqdan soruşur ki, bağça necədir, uşaq bağçada nə etməlidir, orada onu kim qarşılayacaq, kim aparacaq, uşaq orada nə qədər vaxt olacaqdır, kim oradan gətirəcəkdir və s.
    - Valideyn uşağa baş qəhrəmanın bağçaya getdiyi barəsində hekayə danışır. Hekayədə təsvir edilir ki, bağça necə görünür, burada hansı fəallıqlar, hansı qaydalar var və s.
    - Valideyn uşaqla birlikdə cizgi filminə baxır və sonra onda baş verən hadisələri təhlil edirlər.
    - Rollarla oyun da ən yaxşı strategiyanı təqdim edir: valideyn uşaqla oyuncaqlarla və ya özləri qəhrəman olduqları “bağça-bağça” oyununu oynayırlar. Oyun prosesində məktəbəqədər müəssisədə qüvvədə olan qaydalar fəaliyyət göstərir, oxşar fəallıqlardan istifadə olunur və s.
- Tərbiyəçi valideynə müxtəlif strategiyanı çatdırır ki, uşaqla viruslarla, bakteriyalarla və bununla bağlı prosedurlar haqqında onun yaş qrupu üçün aydın dildə və vasitələrlə söhbət aparmaq olar. Bu halda da, sözügedən strategiyalardan istifadə etmək olar. Yaxşı olardı ki, tərbiyəçi valideynə sözügedən mövzu üzrə uşaq üçün ədəbiyyatı çatdırsın, oxşar materialın yerləşdiyi internet səhifəni göstərsin (şəkillər, elektron kitab, video və s.).
- Vacibdir ki, məktəbəqədər müəssisənin nümayəndəsi vurğulasın: valideynin uşağa çatdırdığı məlumat həqiqətə maksimal şəkildə yaxın olmalıdır, əks halda, uşağın gözləntisi fərqli olacaq və məktəbəqədər

müəssisəyə getdikdən sonra ümidləri boşa çıxacaqdır və bu da öz növbəsində, uşağın davranışında, prosesə cəlb olunma çətinliklərində öz əksini tapacaqdır. Doğru gözlənti uşağın cəlb olunmasına, pozitiv davranışa və qaydalara və rutinə qarşı qəbul etməyə dəstək verir.

- Yaxşı olardı ki, tərbiyəçinin yardımı və qoşulması ilə uşaqların kiçik qruplarda görüşü həyata keçirilsin (əlaqəli olduğu halda, fiziki görüş, distant forma ilə həyata keçirildiyi halda – onlayn görüş). Həmyaşıdlarla əvvəlcədən tanışlıq uşağın qrupa aidiyyat hissini artıracaqdır və bu da nəzərdə tutur ki, uşaq özünü təhlükəsiz hiss edəcək, fəallıqlara cəlb olunmanın çoxalmış motivasiyası olacaqdır, pozitiv əhval-ruhiyyə ilə məktəbəqədər müəssisəyə gedəcək/distant/onlayn görüşə cəlb olunacaqdır.

Yaxşı olardı ki, valideyn uşağı əvvəlcədən hazırlasın və növbəti cədvələ əsasən gündəlik rutinlə tanış etsin:

- ✓ Səhər nə vaxt yuxudan oyanmalıdır?
- ✓ Məktəbəqədər müəssisəyə gedənə qədər səhər rutini;
- ✓ Məktəbəqədər müəssisəyə saat neçədə gedir?
- ✓ Qəbul rutini və prosedurları necədir?
- ✓ Tərbiyəçi kim olacaqdır (əvvəlcədən foto-, telefon və ya onlayn-görüş);
- ✓ Sinifdə təxminən neçə uşaq olacaqdır (yaxşı olardı ki, bir neçə uşaq bir-biri ilə əvvəlcədən tanış olsunlar və uşaq qrupda qarşılaşacağı bir neçə uşağı tanısın)?
- ✓ Qrupun rutini və fəallıqları necə olacaqdır?
- ✓ Həyətə çıxış prosedurları;
- ✓ Qidalanma və qidalanma rutini və prosedurları harada və hansı forma ilə olacaqdır?
- ✓ Əllərin yuyulması ilə istifadə olunan prosedurlar.

## Təhsil prosesində maksimal şəkildə xoş emosional mühiti necə yaradaq?

İlk növbədə, məktəbəqədər təhsil xidmətinin nümayəndəsi nəzərə almalıdır ki, uşaq üçün məktəbəqədər müəssisə və xüsusilə də hazırkı mərhələdə burada mövcud rituallar böyük dəyişikliklərlə və yeniliklərlə bağlıdır, buna görə də dərs ilinin əvvəlində müxtəlif fəallıqların və oyunların vasitəsilə uşaqlara gündəlik rutin və qaydaları izah etmək lazımdır.

Unutmamalıyıq ki, məktəbəqədər təhsilin məqsədi nəinki koqnitiv və akademiköncəsi bacarıqların inkişafına dəstəyin verilməsi, eləcə də, ilk növbədə, uşağın emosional firavanlığına və sosial, kommunikasiya qabiliyyətlərinə dəstəyin verilməsidir. Müvafiq olaraq, mövcud vəziyyətin səbəb olduğu fiziki məsafəyə baxmayaraq, məktəbəqədər müəssisənin əsas məsələsi ondan ibarətdir ki, uşaqlar arasında sosial interaksiyanı və kommunikasiyanı qoruyub saxlasın və həvəsləndirsin. Qrupa aidiyyat hissinin artırılması üçün uşağın həmyaşıdlarla sosial interaksiya qurması vacibdir (aidiyyat hissi təməli və əsas duyğulardan biridir və konkret kontekstdə uşağın emosional firavanlığına səbəb olur).

### *Tərbiyəçilər üçün tövsiyələr:*

- Gündəlik rutini və qaydaları əks etdirən əyani vəsaitləri divara yapışdırın (məs.: içəri daxil olanda temperaturunu ölçürlər, sonra dezinfeksiya məhlulunu tökürlər, yeməkdən öncə və yeməkdən sonra əllərini yuyurlar və s.), çünki vizual yardımçı vasitələr uşağa məlumatı mənimsəməkdə yardım edir. Sözügedən material daha çox yadda qalacaq, əgər uşaqla birlikdə rəngli vərəqlərin, karandaşların və şəkillərin vasitəsilə onu hazırlayacaqsınız. Bu yolla uşağın özü qaydaların işlənib-hazırlanmasında iştirakçı olacaq və bunları daha çox nəzərə alacaqdır.

- Uşaqları həvəsləndirin ki, verbal kommunikasiyanı qursunlar; kiçik qruplarda fəallıqlar hazırlayın ki, bunda da onların növbəyə riayət etməyi, başqasının mövqeyini nəzərə almağı, öz mövqelərini ifadə etməyi, qaydalara əməl etməyi öyrənmək imkanları olacaqdır.
- Distant forma ilə təhsil prosesi zamanı həyata keçirilmiş kiçik qrupları qoşduqda əmin olun ki, sizin planlaşdırdığınız və həyata keçirdiyiniz fəallıqlar uşaqlara bir-biri ilə və sizinlə emosiyalarla, təcrübə ilə, maraqlarla paylaşma imkanını verir.

Qeyd edilən hər hansı bir növdə fəallıqlar davam etdikdə, reflektiv rejimdə həyata keçirə bilərsiniz.

- Uşağa emosiyalarını ifadə etmək imkanını verin. Əgər əllərini yumaqla və temperaturu ölçməklə bağlı mütəmadi suallar verirsə, onun sualını cavabsız qoymayın, eyni sualın tez-tez verilməsi çox həyəcana işarə edə bilər və sizin cavablarınız, əhval-ruhiyyəniz, emosional paylaşmanız və empatikliyiniz bu zaman ona sakitləşdirici təsir göstərə bilər. Ola bilsin ki, konkret suala konkret vəziyyətdə dəqiq cavabınız olmasın, bu zaman yaxşı olardı ki, uşağa indi bilmədiyinizi, amma mütləq ayırd edəcəyinizi və cavabla qayıdacağınızı söyləyəsiniz.

## Uşağın qrupda olduğunda yüksək temperaturu təsbit edilərsə ($37^0$ və ya daha yüksək)

Səhiyyə tənzimləmələrinə uyğun olaraq, məktəbəqədər müəssisədə olan uşaqda hərarət təsbit edilərsə, tərbiyəçi onu izolyasiya otağına keçirməlidir. Bu zaman növbətini qeyd edin:

- Uşağı otaqdan sakit hərəkətlərlə və söhbət tərzi ilə çıxarın
- Stresdən qorunmaq məqsədilə, uşağa izah edin ki, onunla birlikdə müvəqqəti başqa otağa keçməli və oynamalısınız.
- Uşaq müəyyən vaxtdan sonra otaqdan çıxmağı istəyə bilər, buna görə də tədarükünüzü görün və oyuncaqların bir neçə alternativi yanınızda olsun (qeyd edilən oyuncaqlar otaqda əvvəlcədən yerləşdirilə bilər). Eyni zamanda nəzərə alın ki, uşaq ayaqyoluna çıxa bilər. Bu və oxşar hallarda əmin olun ki, uşağı təhlükəsiz və sakit şəkildə ayaqyoluna çıxara bilərsiniz və bütün lazımi qaydalara əməl edirsiniz.
- Uşağın sevimli oyuncaqlarını götürün və izolyasiya otağında onunla oynayın;
- Yaxşı olardı ki, uşaqlara izolyasiya otağını əvvəlcədən göstərəsiniz ki, onlarda tanışlıq və təhlükəsizlik hissi yaransın.
- Çalışın ki, uşaq haqqında məlumatı valideynə uşaqsız çatdırasınız.
- Valideynə məlumat verərkən, sakitliyi qoruyub saxlayın və onun emosional fonunu nəzərə alın;
- Uşaqla birlikdə sakitcə valideyni gözləyin
- Ümumiyyətlə, uşaq fiziki mühiti nə qədər yaxşı tanıyarsa, bir o qədər də özünü sakit və müdafiə olunmuş hiss edir. Təbii ki, uşağa onun qrupunun otağını, ayaqyolunun harada olduğunu, harada nahar edəcəyini göstərəcəyinizdən irəli gələrək, məqsədəuyğundur ki, uşağa izolyasiya otağını da göstərəsiniz. İzahatla kifayətlənin ki, özünü halsız hiss etdikdə və ya temperaturunu ölçmək lazım gəldikdə, bu yerdən istifadə edə bilər. Çox xırdalamaq vacib deyil, amma uşaq suallar verdiyi halda, çalışın böyütmədən, eyni zamanda stressiz, sakitcə cavablar verəsiniz.
- İzolyasiya otağının mühiti uşağa yönlənməlidir; lazım gəldiyi halda, burada böyüyün dəstəyi ilə və maraqlı resursların səfərbərliyi ilə fəallıqlara cəlb oluna bilər.
- Çalışın uşağa stres verməyəsiniz və qorxutmayasınız. Ağladığı, qorxduğu və ya mızıldandığı halda, onu sakitləşdirin, onun emosional və lazım gəldiyi halda, fiziki rahatlığını təmin edin.

# TƏDRİS PERSONALININ EMOSİONAL FİRAVANLIĞI

**Uşağın və valideynin emosional firavanlığı üçün tərbiyəçilərin emosional firavanlığı çox vacibdir. COVID 19 şərtlərində işləmək məktəbəqədər müəssisə üçün böyük çağırış və məsuliyyətdir. İş cədvəlinin, mühitin dəyişkənliyi həm tərbiyəçilərə, eləcə də müdiriyyətin nümayəndələrinə stres təsiri göstərir.**

Məktəbəqədər təhsil prosesinin nailiyyətlə aparılması üçün nəinki uşağın, eləcə də ona cəlb olunan tədris personalının emosional firavanlığı vacibdir. Stres və onun nəticələri həm uşaqlarda, eləcə də böyüklərdə öz əksini tapır. Bu da, öz növbəsində, böyüklərin olduqları mühitə, xüsusilə də uşaqlara təsir göstərir, çünki balacalar tez-tez sözsüz, verbal işarələr xaricində də böyüklərin emosional əhvalını hiss edirlər.

Məktəbəqədər tədris müəssisəsi personalının uşağın həyatında rolu təkcə koqnitiv (problemin analizi, həlli, təfəkkür və s.) və akademiköncəsi bacarıqların inkişafına qayğını (rəssamlıq, fonoloji analiz və sintez və s.) deyil, uşağın sosial bacarıqlarının inkişafına (qrup işi, birgə fəallıqlar, sıraya əməl edilməsi və s.) dəstəyin verilməsini və uşağın emosional firavanlığının təmin edilməsini nəzərdə tutur.

Müvafiq olaraq, hər bir məsələnin nailiyyətlə həlli üçün təhsil müəssisəsinin nümayəndəsinin özü emosional firavanlığı hiss etməli və qoruyub saxlamalı, streslə ayaqlaşmalı, emosiyaları pozitiv idarə etməlidir və s. Bu, təhsil müəssisəsinin nümayəndələri üçün gündəlik həyatda olduqca çətindir və prosesin özü COVID 19 şərtlərində xüsusi çağırışdır.

Dəyişdirilmiş gündəlik, rutin, fəallıqlar, ciddiləşdirilmiş təhlükəsizlik qaydaları, balacalarla distant görüşlər, valideynlərin artmış həyəcanı – bu, təhsil müəssisəsinin nümayəndələri üçün stres yaradacaq siyahının bir hissəsi ola bilər. Qeyd edilən stres şərtlərində tərbiyəçilərə təhsil müəssisəsinin müdiriyyətindən müəyyən dəstək lazımdır və bu da onların emosional firavanlığının qorunub saxlanılmasına yönəldilməlidir.

## TƏHSİL PERSONALININ EMOSİONAL FİRAVANLIĞININ QORUNUB SAXLANILMASI ÜÇÜN TÖVSİYƏLƏR

Təhsil personalı bilməlidir ki, lazım gəldiyi halda, onları dinləyəcəklər. Konstruktiv dialoq həm təhsil personalı və valideyn arasında, eləcə də personal və məktəbəqədər müəssisənin müdiriyyət nümayəndələri arasında lazımdır. Məsələn, tərbiyəçinin imkanı olmalıdır ki, müəssisənin başqa nümayəndələri ilə məlumatla paylaşsın, məsələn, bu və ya digər vəziyyəti sərbəst həll edə bilmir və ona yardım lazımdır. Yardım müxtəlif növdə ola bilər, məsələn, məsləhət üçün mütəxəssisin dəvət edilməsi, treninq keçirilməsi, sadəcə, fikirlərin və təkliflərin mübadiləsi və s. Qeyd edilən yardımın təşkilini və dəstəyini məktəbəqədər müəssisənin müdiriyyəti ölçülü şəkildə təmin etməlidir.

Təhsil personalı hiss etməlidir ki, onun fiziki təhlükəsizliyi, psixoloji və emosional firavanlığı təhsil müəssisəsi üçün uşaqların təhlükəsizliyi və firavanlığı kimi önəmlidir. Pandemiya şərtlərində iş peşəkar cəhətdən sıradan çıxmaya səbəb ola bilər və bu zaman böyük əhəmiyyəti var ki, təhsil müəssisəsi sağlam psixi-sosial mühit yaratsın, lazım gəldiyi halda, mütəxəssis (psixoloq, təlimçi psixoloji sıradan çıxmanın qarşısının alınması haqqında strategiyalarla tanış edir) dəvət edilsin.

Tərbiyəçilər üçün böyük yeniliklərdən birini uşaqlarla onlayn görüşlər təqdim edir, çünki onların əksəriyyətinin oxşar təcrübələri yoxdur və bu halda, cəlb olunmanın düzgün təşkili olduqca böyük problemdir. Mütləq müəyyən növdə informasiyanın çatdırılması və tərbiyəçilərin bu cəhətdən gücləndirilməsi mütləq həyata keçirilməlidir (məsələn, onlayn görüşlərin planı necə yazılmalıdır, hansı növdə fəallıqların onlayn həyata keçirilməsi mümkündür, hansı yaş qrupu üçün hansı müddətdə və növdə görüş qəbul ediləndir və s. Qeyd edilənlə bağlı verilən məlumat kitabçasında tövsiyə edilən formalar və strategiyalar təqdim edilmişdir, amma müəssisə yenə də müzakirə edə və müəssisəyə uyğunlaşdırılmışını tətbiq edə bilər, əsas odur ki, uşağa yönəlmiş format olsun).

Yüklənmiş gündəlik cədvələ baxmayaraq, təhsil müəssisəsinin personalına gün ərzində ayrılmış istirahət vaxtı düşür. Vacibdir ki, mütəmadi olaraq təhsil müəssisəsinin personalının kiçik qruplarda (2 həftədə və ya 3 həftədə bir dəfə) görüşləri həyata keçirilsin, bu zaman təhsil personalı bir-biri ilə təhsil prosesinin planlaşdırılmasının bu və ya digər metodu haqqında yeniliklərlə, eləcə də təcrübələrlə, emosiyalarla paylaşacaqdır. Yaxşı olardı ki, qeyd edilən görüşlər iş saatlarına hesab edilsin ki, təhsil personalı üçün asudə vaxtında əlavə fəallıqlar təklif edilməsin.

Yaxşı olardı ki, təhsil prosesi başlayana qədər psixoloqlarla görüş həyata keçirilsin və onlar da tərbiyəçilərə müəyyən strategiyaları çatdıracaqlar və uşaqların stresinə reaksiya göstərilməsi haqqında düzgün gözləntilər yaradacaqlar. Məsələn, psixoloq tərbiyəçiyə tövsiyə edə bilər ki, virusun məsələsi və gigiyena qaydalarının müxtəlif yaş qrupunda uşaqlar üçün aydın dildə müzakirəsi və ya uşağın və böyüyün reaksiyasının eyniləşdirilməsi necə mümkündür, eləcə də pandemiya şərtlərində məktəbəqədər təhsil xidmətinin əlaqəli və ya distant forma ilə həyata keçirilməsi zamanı uşaqların emosional firavanlığının qorunub saxlanılmasına qayğı göstərilməsi. Təhsil müəssisəsinin psixoloqunun olmadığı halda, oxşar növdə məlumat üçün uyğun təşkilata və ya konkret psixoloqa müraciət edə bilər.

Təhsil prosesində dəyişikliklərlə bağlı, yaxşı olardı ki, tərbiyəçinin adaptasiya üçün müəyyən vaxtı olsun. Təhsil müəssisəsi personalının motivasiyasının artırılması üçün yaxşı olardı ki, müdiriyyət onları mütəmadi pozitiv əks təsirlə təmin etsin.

# XÜSUSİ TƏHSİLƏ EHTİYACI OLAN UŞAQLARIN TƏHSİL PROSESİNİN TƏŞKİLİ ÜÇÜN TÖVSİYƏLƏR

**Məlumat kitabçasının qarşıdakı hissəsi ölkədə mövcud epidemioloji vəziyyət şərtlərində xüsusi təhsilə ehtiyacı olan uşaqların dərs prosesinin effektiv və təhlükəsiz təşkili üçün əlavə tövsiyələri nəzərdən keçirir ki, bunları nəzərə almaq da məqsədəuyğundur.**

Məlumat kitabçasında təhsil prosesinin təşkili və həyata keçirilməsinin əsas məsələləri analiz edilmişdir:
a) məktəbəqədər təhsil prosesinin əlaqəli forma ilə həyata keçirildiyi halda;
b) məktəbəqədər təhsil prosesinin əyani forma ilə həyata keçirildiyi halda, bunun tamamilə onlayn (lazım gəldiyi halda, telefon bağlantısı) və ya hibrid forma ilə aparılan təhsil prosesi olduğunda.

Təhsilin verilən məqamda hansı forma ilə həyata keçirildiyi haqqında qərar ölkədə mövcud epidemioloji vəziyyəti nəzərə almaqla Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınların, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin tövsiyələrinə əsaslanır.

## Xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün məktəbəqədər təhsilin əyani forması

COVID 19-un səbəb olduğu vəziyyətə görə, məktəbəqədər müəssisələr təhsil mühitində və prosesində yeni tənzimləmələri və qaydaları bərqərar etməlidirlər. Təhsil prosesinin başlanılmasına qədər hazırlıq mərhələsi xüsusi əhəmiyyət əldə edir.

Sözügedən mərhələnin tərkib hissəsi təhsil müəssisəsində eyniləşdirilmiş xüsusi təhsil ehtiyacı olan uşaqların ehtiyaclarının dərin analizidir və hər bir xüsusi təhsilə ehtiyacı olan uşağın məsələsinin fərdi təhlili məqsədilə, məktəbəqədər müəssisənin müdiriyyətinin cədvəl işləyib hazırlaması və təhsil prosesinin başlanılmasına qədər ən azı bir həftə əvvəl qrupda işçi görüşlər təşkil etməsi önəmlidir. Sözügedən görüşlərdə iştirak etməlidirlər: uşağın tərbiyəçisi, xüsusi müəllim və ya psixoloq (müəssisədə belə bir kadrın olduğu halda) və valideyn.

Görüşlər həm üzbəüz, eləcə də distant, elektron platformalardan istifadə etməklə həyata keçirilə bilər, məs., valideynin təhsil prosesi başlayana qədər yerində olmadığı halda.

Xüsusilə də ilk dəfə bağçaya gedən xüsusi təhsilə ehtiyacı olan uşaqların təhsil proseslərinin planlaşdırılması vacibdir. Valideynlərlə birlikdə onlara daha çox dəstək və hazırlıq lazım ola bilər, xüsusilə də pandemiyanın yaratdığı vəziyyətə görə. Təhsil prosesi başlayana qədər təcrübənin olmadığına görə, valideynləri bir çox suallar narahat edir – uşaq yeni mühitə və həyatın yeni mərhələsinə necə öyrəşəcəkdir, hansı dəstəyi alacaqdır, onu kimlər dəstəkləyəcəkdir, onun üçün məktəbəqədər müəssisə nə dərəcədə təhlükəsizdir və s.

Görüşlərin məqsədini təhsil prosesinin təhlükəsiz və uşağa yönəldilərək başlanılması və həyata keçirilməsi məqsədilə, təhlükəsizlik məsələlərinin, uşağın psixi-emosional vəziyyətinin, inkişaf tərəqqisinin təhlili və hərəkətin razılaşdırılmış planının işlənib hazırlanması təşkil edir.

Diskussiya növbəti məsələlərə aid olacaqdır:

## *Səhiyyə və təhlükəsizlik məsələləri*

### ✓ Valdeynlərin səhiyyə və təhlükəsizlik tənzimləmələri ilə tanışlığı

Məqsədəuyğundur ki, birbaşa görüş zamanı, valideynlərə yeni əlavə tənzimləmələr haqqında ətraflı informasiya çatdırılsın və diskussiya rejimində bunlar üzərində iş aparılsın.

Müəyyən edilmiş tənzimləmələrin valideynlərə əlçatan olması üçün məktəbəqədər müəssisə sözügedən tənzimləmələrin valideyn üçün informasiya kitabçası şəklində adaptasiyasını təmin etməlidir. Üstünlük kitabçanın elektron variantının yayılmasına verilir. Valideynin elektron poçtunun olmadığı halda, ona çap edilmiş kitabça veriləcəkdir.

Görüşdə məktəbəqədər müəssisənin nümayəndələri nəinki informasiyanın ötürülməsinə, eləcə də valideyn üçün çatdırılan məlumatın aydın və qəbul edilən olmasının yoxlanılmasına yönəlməlidirlər. Vacibdir ki, valideynə ona aktual olan sualları vermək və ətraflı cavablar almaq imkanı verilsin. Valideynin verdiyi sualların məktəbəqədər müəssisənin nümayəndələrinin səlahiyyətindən kənara çıxdığı halda, məqsədəuyğun olardı ki, valideyn üçün maraqlı məsələləri proaktiv dəqiqləşdirən və təyin edilən vaxtda cavabları təqdim edən məktəbəqədər müəssisənin əməkdaşı təyin edilsin.

### ✓ Uşağın sağlamlığı ilə bağlı məsələlərin təhlili

Məqsədəuyğundur ki, məktəbəqədər müəssisə tərəfindən uşağın sağlamlıq vəziyyətinin nəzərə alınması ilə yüksək risk qrupuna aid olub-olmadığı; uşağı müalicə edən həkim tərəfindən təhlükəsizliyin müdafiəsinin fövqəladə tövsiyələri müəyyən edilib-edilmədiyi, hansılar məktəbəqədər müəssisə tərəfindən nəzərə alınmalıdır; valideynin təhsil prosesində uşağın distant iştirakına üstünlük verib-vermədiyi, qeyd edilənin təşkilinin necə mümkün olduğu, buna nəyin səbəb olduğu və s. yoxlanılsın.

### ✓ Uşaq üçün əlavə dəstəyin müəyyənləşdirilməsi

Təhsil prosesini planlaşdırdıqda, mütəxəssislər və valideynlər tərəfindən uşağın imkanlarının qiymətləndirilməsi və tənzimləmələrə riayət etdikdə, uşağın həmyaşıdları ilə müqayisədə nə dərəcədə çox və ya fərqli dəstəyə ehtiyacı olduğunun müəyyən edilməsi məqsədəuyğundur.

Lazım gəldiyi halda, uşağın təhlükəsiz distantivliyinə, gigiyena prosedurlarına, davranış qaydalarına əməl etməsinə dəstəyin verilməsi mexanizmlərinin eyniləşdirilməsi önəmlidir. Məktəbəqədər müəssisədə bunun üzərində məsuliyyəti qrupa cəlb olunan təcrübəçilər götürə bilərlər (tərbiyəçi və ya xüsusi müəllim), müəssisədə belə bir kadrın olduğu halda.

Eyni zamanda, gigiyena prosedurlarının və onların tezliyinin dəqiqləşdirilməsi məqsədilə uşaq tərəfindən köməkçi vasitələrin (araba, yeriş üçün çərçivə, eynək) istifadəsi məsələsi nəzərə alınmalıdır. Əlavə dezinfeksiya halında, əlavə vasitələr də lazım gələ bilər. Uşaqlardan bəzilərinə mühitlə daha intensiv fiziki əlaqə lazım gələ bilər – yerdəyişmə və ya görmə qabiliyyətinin çətinliyinə görə intensiv söykənmə və ya səthə taktil toxunma. Əsas odur ki, necə və kim tərəfindən lazımi tədbirlərin keçiriləcəyi üzrə razılığa gəlsinlər.

**Vəziyyət üzrə misal**

A.B.-də çoxlu selik ifrazı qeydə alınırdı. Qrup görüşündə qeyd edilən məsələnin eyniləşdirilməsindən sonra, razılığa gəlindi ki, onun gigiyenik prosedurlarına qrupun təhsil personalı qayğı göstərəcəkdir (tərbiyəçi, tərbiyəçinin köməkçisi və ya xüsusi pedaqoq) ki, bu da 20 dəqiqədə bir dəfə A.B.-nin gigiyena prosedurlarına nəzarət edəcəkdir; eyni zamanda, onlar A.B.-nin istifadə etdiyi oyuncaqlara göz gəzdirəcək və lazım gəldiyi halda, istifadə edildikdən sonra onların dezinfeksiyasını və ya dezinfeksiyaya qədər təhlükəsiz yerdə saxlanılmasını təmin edəcəklər.

### ✓ Yeni qaydalar haqqında uşağın məlumatlandırılması və hazırlığı

Məqsədəuyğundur ki, iş görüşlərində anlaşma əldə edilsin ki, yeni tənzimləmələr və davranış qaydaları haqqında hansı strategiya ilə, hansı forma ilə və kim tərəfindən uşağın məlumatlandırılması və hazırlığı baş verəcəkdir. Tövsiyə edilir ki, sözügedən haqqında məsuliyyəti birinci mərhələdə valideynin özü götürsün, onun möhkəmlənməsinə isə təhsil personalı qayğı göstərməlidir. Əsas odur ki, məktəbəqədər müəssisədə bərqərar edilmiş yeni qaydalar haqqında uşaq əvvəlcədən məlumat alsın və lazımi şəkildə məlumatlandırılsın.

- Uşağa informasiyanın çatdırılması onun tərəfindən məlumatın qavranılması və dərk edilməsi xüsusiyyətlərinin nəzərə alınması ilə baş verməlidir;
- Yeni davranışın öyrənilməsi ev şərtlərində mümkündür və həyata keçiriləsi mühitdə bərkidilməlidir;
- Təhsil prosesinin başlanmasına qədər dezobaryerlə, məsafəni bildirən işarələrin eyniləşdirilməsi ilə, temperaturun ölçülməsi prosedurunun tanışlığı və s. məqsədilə uşağın məktəbəqədər müəssisəyə bir neçə dəfə viziti mümkündür;
- Eləcə də tövsiyə edilir ki, məktəbəqədər müəssisə uşaq üçün münasib formada işlənilmiş təhlükəsizlik qaydaları haqqında məlumat kitabçasını işləyib hazırlasın ki, valideyni tanış etmək üçün uşağa versin;
- Bəzi halda tələbat yarana bilər ki, sözügedən məlumat kitabçası uşaq üçün fərdi işlənilsin (məs., şəkillərin əvəzinə fotoşəkillərin istifadəsi).

### ✓ Əlaqəli şəxsin eyniləşdirilməsi

Məktəbəqədər müəssisə tərəfindən təşkil edilmiş görüşlərdə valideyn tərəfindən müəssisədə uşağın müəyyən simptomlarının baş qaldırdığı halda əlaqə saxlayacağı iki nəfər müəyyənləşdirilməlidir. İki nəfərin eyniləşdirilməsi ona görə lazımdır ki, valideyn bir şəxslə əlaqə saxlaya bilmədiyi halda, ikinci şəxslə əlaqə saxlasın.

### ✓ Məktəbəqədər təhsil xidmətinin çatdırılmasının distant formasının mümkünlüyünün təhlili

Qeyd edilən görüşlərdə söhbəti onunla başlamaq olar ki, distant formaya keçməli olduğu halda, uşağın təhsil prosesini necə təşkil etmək olar və ailə üzvlərinə rəqəmsal texnologiyaların istifadəsi, uşaq üçün təhsil prosesinin təşkili, təlimatların çatdırılması, davranışın idarə edilməsi nöqteyi-nəzərindən treninq keçmək lazımdırmı və ya yox.

İşgüzar görüşdə mütləq refleksiya həyata keçirilməlidir ki, ötən semestrin böhran vəziyyətində keçirilən təhsil prosesi ilə (belə bir təcrübənin olduğu halda) necə ayaqlaşıldı və həm uşağın birgə iştirakı və tərəqqisi, eləcə də onun psixi-emosional vəziyyətinin analizi baş versin.

İdeal halda, qeyd edilən məsələlər uşaqla çalışan dəstə tərəfindən ötən ilin sonunda qiymətləndirilməli idi. Müvafiq olaraq, bu məsələlərin məktəbəqədər müəssisə üçün məlum olduğu halda, hazırkı mərhələdə onlar

üçün tətil prosesinin necə keçdiyini araşdırmaq önəmli olacaqdır ki, inkişaf dinamikası və psixi-emosional vəziyyət nöqteyi-nəzərindən, uşaq müəyyən dəyişikliklər yaşamışdırmı və ya yox: əldə edilən biliyin gündəlik həyata transferi (funksional tətbiqi) baş tutmuşdurmu, yeni vərdiş-bacarıqlar mənimsənilmişdirmi və ya əksinə, müəyyən bacarıqların itirilməsi/unudulması baş vermişdirmi; uşağın psixi-emosional vəziyyəti və davranışı necə idi və düzəliş oldumu və ya yox (bu sonuncunun böhran vəziyyətinə görə dəyişikliyə uğradığı halda) və hansı strategiyaların istifadəsi ilə düzəldi? Eyni zamanda valideyni dinləmək və onun fikri ilə paylaşmaq önəmlidir, – verilən anda uşağa psixi-emosional dəstək və ya davranışının tənzimlənməsi lazımdırmı və ya yox. Eləcə də sözügedən məsələlərlə bağlı valideynə tövsiyələr lazımdırmı və ya yox.

Ehtiyacın eyniləşdirildiyi halda, uşağı və valideyni müvafiq bilgiləri olan mütəxəssisə yönləndirmək lazımdır. Müvafiq olaraq, məktəbəqədər təhsil müəssisəsinin lazımi xidməti çatdıran təşkilatların məlumatlar bazası olmalıdır. Ailə uşağın cəlb olunduğu sosial xidmətlərdən də (məsələn, erkən intervensiya xidmətindən) dəstək ala bilər. Təbii ki, fərdi inkişaf planının tərtib edilməsi lazım gələ bilər.

### ✓ Xüsusi təlimə ehtiyacı olan uşaq üçün tədris mühitinin, materialın və gigiyena əşyalarının təşkili

Xüsusi təlimə ehtiyacı olan uşağın bir və ya birdən çox kiçik qruplarda təşkil edilən təlim prosesinə cəlb olunduğu halda, məktəbəqədər müəssisənin müdiriyyəti və onunla işləyən təcrübəçilər qeyd edilən prosesdə uşağın istifadə etdiyi bu əşyaların təhlükəsiz faydalanma qaydalarını işləyib hazırlamalıdırlar. Xüsusilə də həmin materialın və əşyaların dəfələrlə istifadə edildiyi və kiçik qruplarda və ya fərdi görüşlərdə uşaqların birlikdə istifadə etdikləri halda.

Tövsiyə edilir:

- Konkret uşaq üçün istifadə edilən material müəyyən edilməlidir: əlbəttə ki, material uşaq üçün təyin edilmiş məqsədlərin və onların maraqlarının nəzərə alınması ilə müəyyən edilməlidir;
- Hər bir xüsusi təlimə ehtiyacı olan uşaq üçün fərdi dolabça təyin edilməli və sözügedən əşyalar bura yerləşdirilməlidirlər; dolabçaya uşağın adı yazılmalı, şəkli və ya simvol yapışdırılmalıdır ki, bunun vasitəsilə də uşaq öz əşyalarının yerini eyniləşdirə bilsin;
- Uşağa onun əşyalarının harada saxlanıldığını və o cümlədən də , şəxsi əşyaları ilə faydalanmaq qaydalarını öyrətməlidirlər;
- Verilən materialla bir neçə uşağın faydalandığı halda:
  - a) material uşaqlar arasında ağlabatan şəkildə bölünməlidir, eyni materialın müxtəlif uşaqlar tərəfindən istifadəsinin qarşısı alınmalıdır;
  - b) paylaşılan əşyalar üçün ayrı dolabça müəyyən edilməli və hər istifadəsindən sonra əşyaların dezinfeksiyası təmin edilməlidir, əlbəttə ki, həmin əşyaların hazırlandığı material buna imkan verirsə; dezinfeksiya edilməsi mümkün olmayan material istifadədən çıxarılmalıdır (məs., yumşaq, parçadan hazırlanmış əyani vəsait) və ya yalnız fərdi uşaq tərəfindən istifadə olunmalıdır (məs., rəngli kağızlar);
  - c) istifadə edilən paylaşılan materialın dezinfeksiya üçün toplandığı və onların istifadəsindən sonra yerləşdirildiyi yer müəyyən edilməlidir; dezinfeksiya edildikdən sonra materialın öz yerinə qaytarılması mümkündür;
  - ç) əyani kartlar (yaxşı olardı ki, laminə edilmiş) və davranış qaydaları ilə bağlı posterlər hazırlanmalı və əyani yerə yapışdırılmalıdırlar;
  - d) uşaqla birinci görüşlər sözügedən qaydalarla tanışlığa (laminə edilmiş kartların istifadəsi) və bu qaydaların öyrənilməsinə ayrılmalıdır;
  - e) bir neçə uşağa eyni zamanda lazım olan materialın siyahısı tərtib edilməli və materialın alınması üçün məktəbəqədər müəssisənin müdiriyyətinin adına müraciət edilməlidir.
- Qrupların istifadəsinin ağlabatan cədvəli müəyyən edilməlidir (uşaqların növbələrinə uyğun olaraq, iş görülən səthlərin və materialın dezinfeksiya işlərinin aparılması üçün) və otağın havası dəyişdirilməlidir;

- Gündəlik dezinfeksiyanın qeydiyyatı vərəqi müəyyən edilməli və əyani yerdə yerləşdirilməli, dezinfeksiyanın həyata keçirilməsi uşağın növbəsindən sonra həyata keçirilməlidir; dezinfeksiya üzrə cavadehlik xüsusi təlimə ehtiyacı olan uşaqla çalışan şəxsə həvalə edilməlidir. Həmin kadr dezinfeksiya prosedurları və qaydaları ilə bağlı hazırlıq keçməlidir.

## Xüsusi təlimə ehtiyacı olan uşaq üçün məktəbəqədər tədrisin distant forması

Tədris prosesinin distant forma ilə aparılması daha çox təşkilatçılığı, uzunmüddətli planlaşdırmanı və proseslərə refleksiyanı tələb edir.

Məktəbəqədər müəssisələrin tədris prosesinə əyani forma ilə qayıtdıqlarına baxmayaraq, məqsədəuyğundur ki, onların müdiriyyətləri əyanidən distant və ya hibrid formaya keçid üçün icbari tədbirlərin həyata keçirilməsinə ardıcıllıqla başlasınlar.

Yaxşı olardı ki, dərs ili başlanan kimi, müdiriyyət distant formaya keçid planını işləyib hazırlamağa başlasın (məs., təcrübəçilərin, uşaqların və valideynlərin əyani təlim prosesinin tənzimləmələrini öyrəndiklərindən sonra). Sözügedən planın əsasını məktəbəqədər müəssisəyə cəlb olunmuş xüsusi təlimə ehtiyacı olan uşaqların distant təlim prosesinə cəlb olunma imkanının və bununla bağlı problemlərin fərdi təhlili təşkil edir.

Xüsusi təlimə ehtiyacı olan uşaqların halında, fərdi müzakirə prosesində mütləq valideyn, təhsil işçisi və məktəbəqədər müəssisədə bu uşağın təlim prosesinə cəlb olunmuş dəstəkləyici mütəxəssislər iştirak etməlidirlər.

Distant formaya keçid planının təhlilinə bir neçə qrup görüşü ayrıla bilər. Yaxşı olardı ki, bu görüş təcrübəçilər və valideynlər üçün əlverişli formatda keçirilsin – qarşı-qarşıya görüşlər şəklində (mövcud tənzimləmələrin qeyd edilən formatı məhdudlaşdırmadığı halda) və ya distant şəkildə və hər bir tərəf üçün münasib olan formatdan istifadə etməklə.

Qeyd edilən görüşlərin nəticəsində hər bir iştirakçı tərəf üçün öhdəsinə düşən funksiya-öhdəliklər və xüsusi təlimə ehtiyacı olan uşağın distant tədris prosesində iştirakını daha effektiv edən strategiyalar aydın olmalıdırlar.

Xüsusi təlimə ehtiyacı olan uşağın distant tədris prosesinin təşkili ilə bağlı qərarın qəbul edilməsi üçün vacibdir ki, valideyn və təcrübəçilər tərəfindən uşağın hazırlığının nəzərə alınması və ötən ilin təcrübəsinə (belə bir təcrübənin olduğu halda) refleksiyası baş versin. Qrup bunun üçün – uşağın distant tədris prosesinə olan hazırlığı (Baxın, Əlavə №5: Uşağın distant tədris prosesinə olan hazırlığı) anketini rəhbər tutur, fərdi təcrübəni və valideynin əks- əlaqəsini nəzərə almaqla, ardıcıllıqla həmin əsas məsələləri dəqiqləşdirir, hansılara istinad edilərək uşaq üçün uyğun distant tədris prosesi təşkil ediləcəkdir. Anketin inzibatiləşdirilməsinə uşağın tərbiyəçisi və ya xüsusi pedaqoq (belə bir kadrın olduğu halda) cavabdehdir.

Uşağın distant tədris prosesinin təşkili üçün növbəti məsələləri dəqiqləşdirmək lazımdır:
- Uşaq tərbiyəçi ilə və başqa uşaqlarla distant görüşə necə reaksiya göstərir?
- Uşaq tədris prosesinin distant formasını nə dərəcədə başa düşür və necə reaksiya verir?
- Uşaq distant formada tək-təkə fəallıqlara cəlb olunduqda, tərbiyəçi ilə interaksiyaya nə dərəcədə qoşulur?
- Distant görüşlər zamanı uşaq qrup yoldaşları ilə interaksiyaya nə dərəcədə qoşulur?

- Uşağın qrupda olduğunda və distant şəkildə təkbətək olduğunda tərbiyəçi ilə interaksiyası nə dərəcədə fərqlənir?
- Uşaq diqqətini yayındırmadan ekran arxasında nə qədər vaxt sərf edə bilər?
- Uşağa hansı strategiyalar yardım edir ki, distant təlim zamanı diqqətini uzun müddətə cəmləşdirə bilsin?

Uşaqla qrup işində problemlərin ayırd edildiyi halda, qrup görüşündə müzakirə edilməlidir:
- Təkbətək işin intensivliyi artırılmalıdırmı və ya yox;
- Uşaq üçün əlavə təkbətək görüşlər müəyyən edildiyi halda, onun kompüter texnologiyaları ilə əlaqəsi həddini aşmayacaqdırmı;
- Qrupa qoşulma azaldılmalıdırmı və ya yox.

Sonuncu qərar çox ehtiyatla qəbul edilməlidir. Hətta uşağın imkanının nəzərə alınması ilə, onun distant tədris prosesinə aktiv iştirakı mümkün olmadığında da, uşaq distant keçirilən tədris proseslərində passiv də olsa iştirak etməlidir. Bu, onun psixi-emosional sabitliyi üçün, sosial əlaqələrin ardıcıllığı və aiddiyyət hissi üçün lazımdır.

Uşaq üçün qrup və fərdi (təkbaşına) görüşlərin intensivliyi, onun imkanlarının dərin analizini nəzərə almaqla, müəyyən edilməlidir.

Distant tədris formasını seçdikdə, həlledici olacaqdır:
- Uşağın imkanları ki, distant formada (onlayn platforma vasitəsilə) tərbiyəçi və uşaqlarla interaksiya qura bilsin; verilən təlimatlara və materiala reaksiyanı həyata keçirə bilsin;
- Qeyd edilən prosesdə ona dəstək verən böyüyün yardımını görsün;
- Bu və ya digər qabiliyyətin gücləndirilməsi və ya kamilləşdirilməsi məqsədilə, tərbiyəçi ilə və ya xüsusi müəllimlə təkbaşına məşğələnin davam etdirilməsini və ya əlavə məşğələni tələb etsin.

## *Distant tədris prosesinin təşkili və həyata keçirilməsi prosesində valideynin rolu*

Distant tədris prosesini çatdırdıqda, valideynin iştirakı həlledici rol oynayır. Uşaqların mövcud vəziyyətdə tədris prosesinə cəlb olunmaları heç bir vaxt olmadığı kimi, valideynlərin cəlb olunmalarından asılıdır. Distant tədris prosesi valideynin cəlbolunma öhdəliklərini artırmışdır və bu da pandemiyaya qədər valideynlərin övladlarının dərs proseslərinə nəzarət və ya monitorinq məqsədilə həyata keçirdikləri öhdəliklərindən daha artıqdır.

Eyni zamanda, distant forma ilə tədris prosesinin effektiv təşkili valideyn və tərbiyəçi arasında mövcud əməkdaşlıqdan çox asılıdır. Müvafiq olaraq, məktəbəqədər müəssisənin nümayəndələri – müdiriyyət, təhsil işçiləri, xüsusi müəllim valideynlərlə daha intensiv, müntəzəm və hərtərəfli vasitələrlə ünsiyyətdə olacaqlarını anlamalı və hazır olmalıdırlar.

Valideynin övladının tədris prosesinə hansı formada və hansı intensivlikdə cəlb olunması məhz uşağın imkanlarından, tədris proqramının tələblərindən və valideynin öhdəliklərindən də asılıdır. Valideynin cəlb olunması məsələlərini ayırd etmək üçün qrupa növbəti anket yardım edəcəkdir – uşağın distant tədris prosesinə hazırlığı (Baxın, Əlavə №5: Uşağın distant tədris prosesinə hazırlığı).

Qeyd edilən anketin əsasında növbətilər dəqiqləşdiriləcək:
- Valideynlərin ötən ilə, fərdi rollarına və effektivliyə əks-əlaqələri
- Ailədə əlçatan texnologiyalar və resurslar
- Valideynin rəqəmsal texnologiyaların istifadəsində bilgiləri

- Valideynin yükləndirilməsi və tədris prosesində aktiv iştirak imkanı (tədris prosesində iştirak üçün uşağa bilvasitə dəstəyin lazım gəldiyi halda, aktualdır)

Hər bir halda, hazırlıq mərhələsində lazım gələcəkdir ki, məktəbəqədər müəssisənin müdiriyyəti valideynləri distant təhsil prosesinə keçid tənzimləmələri ilə tanış etməli, rəqəmsal texnologiyaların istifadəsində treninq təklif etməli və lazım gəldiyində, keçməlidir.

Aşağıda təqdim edilən cədvəl distant təhsil prosesinə valideynin cəlb olunma formalarını əks etdirir:

| |
|---|
| Valideyn **qrupda** davam edən təlim prosesində iştirak edir və uşağı bu prosesdə dəstəkləyir |
| - onun diqqətini təhsil prosesinə yönəldir<br>- tərbiyəçinin işarəsi ilə müvafiq təhsil fəallığını təklif edir<br>- assistentliyin müvafiq formalarına əməl etməklə, yardım edir |
| Valideyn **fərdi – təkbətək** davam edən prosesdə iştirak edir və bu prosesdə uşağa dəstək verir |
| - onun diqqətini təhsil prosesinə yönəldir<br>- tərbiyəçinin işarəsi ilə müvafiq təhsil fəallığını təklif edir<br>- assistentliyin müvafiq formalarına əməl etməklə, yardım edir |
| Valideyn tətbiyəçinin tövsiyələrini nəzərə alaraq, **əlavə fərdi olaraq** uşağı inkişaf etdirən fəallıqları keçirir/ bilavasitə həyata keçirir |
| valideyn övladının təhsil prosesini müzakirə etmək məqsədilə, tərbiyəçi ilə və ya xüsusi müəllimlə **əlavə** (qrupda başqa valideynlərdən daha çox) fərdi görüşür |

Valideynin distant təhsil prosesində necə iştirak etməsindən asılı olmayaraq, onun aşağıdakı məsələlər barədə dəqiq bir anlayışa və biliyə sahib olması vacibdir:

- **ondan nə gözlənilir;**
- **onun övladı üçün hansı məqsədlər qarşıya qoyulmuşdur;**
- **hansı növdə fəallıqlar həyata keçirilməlidir və ya hansı növdə iş hazırlanmalıdır;**
- **hansı təlimatlar verilməlidir;**
- **hansı materialın istifadəsi daha münasibdir;**
- **uşağın nəyi yerinə yetirməsi arzu edilir.**

Vacibdir ki, valideyn tədris və müvafiq inkişaf məqsədlərinin anlaşma (qiymətləndirmə, yoxlanış) prosesinə aktiv cəlb olunsun; uşaq üçün təklif edilən fəallıqların və müəyyənləşdirilmiş təhsil məqsədi arasında əlaqəni görməsi həlledici rol oynayır; tövsiyə edilmir ki, bu sonuncunu dərk etmədən, yalnız mexaniki olaraq uşağını tərbiyəçinin müəyyən etdiyi fəallıqlara cəlb etsin. Qeyd edilən valideynin uşaqla əlavə iş aparmalı olduğu halda, daha da aktualdır.

Tərbiyəçinin və xüsusi müəllimin (belə bir kadrın olduğu halda) aktual məqsədin müvafiq müxtəlif fəallıqları əvvəlcədən müəyyən etmələri (məs., uşağa cari bir həftə ərzində təklif edilməsi tövsiyə olunan fəallıqları yazırlar), bunları valideynlə paylaşmaları və distant görüş formatında hər bir fəallığı, onların əhəmiyyətini, tədris məqsədilə əlaqəsini, lazımi materialı, təlimatı, istənilən/gözlənilən yerinə yetirmənin, yardımın və fəallığın modifikasiya imkanlarını və s. xırdalıqla təhlil etmələri çox səmərəlidir.

Eyni zamanda, vacibdir ki, tərbiyəçi uşaq tərəfindən fəallıqların faktiki yerinə yetirilməsinə dair ətraflı məlumat alsın, çünki yalnız qeyd edilən məlumata istinad edərək, uşağın inkişaf dinamikası, növbəti inkişafetdirici fəallıqlar müəyyən edilə bilər.

Müvafiq olaraq, övladına fəallıqları təqdim etdikdən sonra valideyn diqqətlə uşağın fəallığı yerinə yetirməsini müşahidə etməli və prosesin gedişi ilə və alınan nəticələrlə tərbiyəçi ilə paylaşmalıdır. Bunun üçün valideyn və tərbiyəçi üçün standartla müəyyən edilmişdən əlavə görüşlər lazım gələ bilər. Valideyn yazılı və ya audio- yaxud da videoyazıları həyata keçirə və bunları tərbiyəçi ilə və ya xüsusi müəllimlə müzakirə edə bilər.




Eyni zamanda tərbiyəçi valideynlə-uşağın arasında interaksiyanın necə olduğu haqqında dəqiq təsəvvür yaratmalıdır. Müvafiq olaraq məqsədəuyğundur ki, valideyn tərəfindən həyata keçirilmiş tədris prosesinə nəzər yetirsin və həm uşağa, eləcə valideynə əks əlaqə versin (valideynə əks əlaqənin verilməsi valideynlə fərdi görüş formatında tövsiyə edilir).

Valideynin tədris prosesində iştirakının intensivliyi və onun məsuliyyətinin dəqiq müəyyənləşdirilməsi çox önəmlidir. Olmaz ki, tərbiyəçi təlim prosesində məsuliyyəti bütövlükdə valideynə keçirsin və bu yolla öz öhdəliyi və cəlb olunmasını azaltsın. Vacibdir ki, tərbiyəçilər valideyni tədris prosesinin əsas aparıcısı kimi deyil, dəstəkləyən kimi qəbul etsinlər.

## Distant tədris prosesinin təşkili və həyata keçirildiyi zaman xüsusi müəllimin rolu

Distant tədris prosesinin planlaşdırılma-həyata keçirilmə prosesində xüsusi pedaqoqun rolu (məktəbəqədər müəssisədə belə bir kadrın olduğu halda) ehtiyatla müəyyən edilməlidir. Müntəzəm tədris prosesinə uyğun olaraq, müxtəlif uşaqla münasibətdə xüsusi müəllimlərin rolu və öhdəlikləri dəyişə və dəqiqləşdirilə bilər. Təbii ki, sözügedəni uşağın ehtiyacları önəmli şəkildə müəyyənləşdirir.

Aşağıda təqdim edilən cədvəl xüsusi müəllimin cəlb olunma formalarını əks etdirir:

**Xüsusi müəllimin cəlb olunma formaları**

| |
|---|
| ☐ Qrupda təhsil prosesini həyata keçirdikdə, tərbiyəçiyə və xüsusi təlimə ehtiyacı olan uşağa dəstəyin verilməsi |
| ☐ Uşaqla müəyyən edilmiş məqsədlər və fəallıqlar üzrə iş məqsədilə təkbətək fərdi görüşlər; |
| ☐ Uşaq üçün tədris məqsədlərinin, fəallıqlarının, elektron təhsil resursunun seçilməsi və təlimatların formalaşdırılması prosesində müəllimə dəstəyin verilməsi; |
| ☐ təhsil prosesinin planlaşdırılması-həyata keçirilməsi məsələlərində tərbiyəçi ilə birlikdə və ya müstəqil olaraq valideynə tövsiyələrin və təlimatların verilməsi |
| ☐ uşağın və valideynin iş prosesinin müşahidə edilməsi (canlı rejimdə (live) həyata keçirilə bilər və ya lent yazılarının analizi əsasında mümkündür); valideynə əks əlaqənin verilməsi |

Tədris prosesinin distant forma ilə aparıldığı şərtlərdə, xüsusi müəllim aydın və imkan daxilində təsbit edilmiş iş cədvəlini işləyib hazırlamalıdır və bu da onun xüsusi təlimə ehtiyacı olan uşaqların təhsil prosesində iştirakını tam əks etdirəcəkdir.

Eyni zamanda, qeyd edilən cədvəl vaxtı açıq şəkildə göstərməlidir:

- distant görüşlər zamanı xüsusi müəllim qrupa nə vaxt və kiminlə qoşulmuşdur;
- nə vaxt və kiminlə fərdi işləyir;
- valideyn, tərbiyəçi konsultasiya prosesinə nə zaman cəlb olunmuşdur;
- tədris prosesini nə zaman planlaşdırır.

### ✓ Uşaqlar qrupunda aparılan tədris prosesinin müşahidəsi/tərbiyəçinin dəstəkləndirilməsi

Xüsusi müəllimin məktəbəqədər müəssisədəki bütün xüsusi təlimə ehtiyacı olan uşaqlarla distant aparılan qrup tədris prosesində iştirakı vacibdir.

Bu yolla xüsusi müəllimdə təsəvvür yaranır ki, uşaqların bu distant prosesi necə davam edir və uşaqların, valideynlərin və tərbiyəçilərin harada yardıma ehtiyacları var.

Xüsusi təlimə ehtiyacı olan uşaqların bölündüyü qrup görüşlərinin cədvəli xüsusi müəllimə göndərilməlidir. Xüsusi müəllim qeyd edilənin əsasında tədris prosesində iştirak və müşahidə cədvəlini özü tərtib edir.

### ✓ Uşaqla onun fərdi məqsədi üzrə təkbətək iş

Lazım gəldiyi halda, xüsusi müəllim konkret uşaq üçün fərdi işi müəyyənləşdirir. Onunla təkbətək iş üçün ayrılmış vaxt qrup görüşləri ilə üst-üstə düşməməlidir.

Uşaqla əlavə fərdi iş haqqında qərarı ehtiyatla qəbul etmək lazımdır. Bu zaman kompüter texnologiyalarının həddən çox istifadəsinin bilaixtiyar həvəsləndirilməsi baş verməməlidir. Valideyn resursunun istifadəsi mümkün olduğu yerdə həvəsləndirilməlidir; alınan ətraflı təlimatların əsasında, valideynlər uşaqla qeyri-distant rejimdə (bu daha da effektiv olacaqdır) lazımi əlavə iş aparmalıdırlar.

### ✓ Uşaqla təkbətək aparılan tədris prosesinin müşahidəsi; tərbiyəçinin, valideynin dəstəkləndirilməsi

Xüsusi müəllim tərbiyəçinin və ya valideynin uşaqla fərdi apardığı tədris prosesinə cəlb oluna bilər. Bu qoşulmaların məqsədi cari interaksiyanın və uşağın tərəqqisinin qiymətləndirilməsidir: tərbiyəçi və valideyn üçün əlavə tövsiyələrin verilməsinin zərurətinin təyin edilməsidir. Qeyd edilən görüşlərin əsasında xüsusi müəllim həm də əlavə fəallıqları və uşaq üçün resursları müəyyənləşdirə bilər ki, bunlarla da tərbiyəçi və müəllimlə paylaşır.

Məqsədəuyğundur ki, xüsusi müəllimə xüsusi təlimə ehtiyacı olan uşaqlarla və onların valideynləri ilə fərdi görüşlərin cədvəli göndərilsin. Qeyd edilənin əsasında o, fərdi tədris prosesinin iştirakı və müşahidəsinin şəxsi cədvəlini işləyib hazırlayır.

### ✓ Valideynlərlə və tədris personalı ilə fərdi konsultasiyalar

Məqsədəuyğundur ki, xüsusi müəllim həftədə ən azı bir dəfə xüsusi təlimə ehtiyacı olan uşağın valideyni və tərbiyəçisi ilə konsultasiya keçirsin.

Fərdi konsultasiyalar zamanı xüsusi müəllim valideynlə və ya tərbiyəçi ilə birlikdə cari həftəyə (sonuncu görüş dövrünə) refleksiyanı həyata keçirirvə gələn həftənin (və ya görüşə qədər müddətin) işçi məqsədlərini izah edir, eyni zamanda valideynin özünün uşaqla işlədiyində, yerinə yetiriləsi fəallıqlarla, onların məqsədi və fəallığının yerinə yetirilməsi ilə bağlı başqa məsələlərlə tanış edir.

✓ **Tədris prosesinin planlaşdırılması**

Sözügedən xüsusi müəllimin fəaliyyətinin ən önəmlisini təqdim edir. Müvafiq olaraq, xüsusi müəllimin qeyd edilən fəalliyyəti üçün konkret vaxt ayırması məqsədəuyğundur. Planlaşdırma prosesində xüsusi müəllim növbətini müəyyən edir:

- uşağın inkişafının fərdi məqsədlərini, fəallıqlarını, materialı, hansının əsasında da özü uşaqla işləməlidir;
- Uşağın fərdi tədris və ya inkişaf məqsədlərini, fəallıqları, uşaqla işləmək üçün tərbiyəçiyə təklif edə biləcəyi materialı; tərbiyəçi üçün tövsiyələri ki, tədris prosesini necə aparsın, uşağın cəlb olunmasına necə dəstək versin və onun davranışını necə idarə etsin (sözügedən məsələlərin üzərində xüsusi müəllim müstəqil deyil, tərbiyəçi ilə birlikdə işləyə bilər);
- Uşağın inkişafının fərdi məqsədlərini, fəallıqları, övladı ilə işləmək üçün valideynə təklif edə biləcəyi materialı; valideyn üçün tövsiyələri (uşaqla iş prosesini necə aparsın, cəlb olunmanı və davranışı; uşağın psixi-emosional vəziyyətinə refleksiyanı və s.).

Əlbəttə ki, xüsusi müəllim hazırladığı planı və tövsiyələri yazılı və ətraflı şəkildə hər bir uşağın inkişafının fərdi planında əks etdirməli və müvafiq tərəf üçün (tərbiyəçi və ya valideyn üçün) onu əlçatan etməlidir.

Bütün deyilənlərdən irəli gələrək, xüsusi müəllimin hər bir uşaq üçün fərdi cədvəl işləyib hazırlaması tövsiyə edilir ki, bunda da onunla bağlı fəallıqları işarə edəcəkdir.

## Dəstəkləyici xidmətlərin çatdırılması zərurəti

Distant formaya keçənə qədər və ya bundan sonra uşağın psixi-emosional dəstəyi və ya davranışının tənzimlənməsi məsələlərində valideynə məsləhətlərin verilməsi zərurəti müəyyənləşdirilə bilər və bu da fiziki distansiya şərtlərində kəskinləşdirilə bilər. Ola bilsin ki, uşağın özünün davranışı üzərində də iş zərurəti yaransın.

Müvafiq olaraq, vacibdir ki, məktəbəqədər müəssisənin tərbiyəçisi və uşaqla işləyən xüsusi müəllim distant formaya keçənə qədər uşaqla və valideynlə interaksiya nəticəsində uşağın psixi-emosional ehtiyaclarını təyin edə bilər və lazımi tövsiyələrin, yaxud da həm fiziki izolyasiya şərtlərində, eləcə də bunun başa çatdığından sonra davranış tənzimləmələri haqqında məsləhətlər verə bilər. Eyni zamanda, distant tədris prosesində uşaqların psixi-emosional vəziyyətinə refleksiya ardıcıl davam etdirilməlidir.

Müvafiq olaraq, xüsusi müəllim distant görüşlər zamanı uşağı diqqətlə müşahidə etməlidir. Lazım gəldiyi halda, həm uşaq, eləcə də valideyn müvafiq dəstək almalıdır və bu da xüsusi mütəxəssisin dəvət edilməsi ilə həyata keçirilməlidir. Eləcə də uşaq və valideyn dəstəyi uşağın cəlb olunduğu sosial servisdən qəbul edə bilərlər.

# ƏLAVƏLƏR

## Əlavə №1.
## Məktəbəqədər müəssisələrin təmizlik protokolunun nümunəsi

**Məktəbəqədər müəssisənin təmizlik protokolu**
**COVID-19 epidemioloji partlayış dövründə iş üçün**

**Normativ baza:** ___________________________________
**Cavabdeh şəxslər:** ________________________________
**Təmizlik:**

- Hansı otaqlar hansı intensivliklə təmizlənirlər
- Hansı otaqların təmizlənməsi üçün hansı metoddan istifadə olunur (sulu qaydada təmizlik, tozun götürülməsi...)
- Hansı otaqlarda hansı səthlər təmizlənirlər
- Hansı otaqlarda hansı təmizlik/yuyucu vasitələrdən istifadə olunur
- Tullantıların idarə edilməsi necə baş verir (konteynerlə bağlı tələblər)

**Təmizlik işlərinə aid edilən inventar və vasitələr:**

- döşəmə silən çubuq – sulu təmizlik üçün;
- ikişöbəli vedrə: təmiz su /yuyucu vasitəli maye;
- süpürgə və xəkəndaz;
- əlcək və ehtiyat əlcəyi;
- müşənbə önlük sanitar qovşaqda iş üçün;
- döşəmə, şüşə və mebel silən bezlər;
- ayaqyolunun təmizlənməsi üçün bezlər;
- təmizləyici süngər, fırça, qabsürtən (yumşaq metal spiral);
- hava dezodoru;
- taxta mebel təmizləyicisi (lazım olduğu halda);
- dəri səthlərin təmizləyicisi (belə birinin olduğu halda);
- bezlərin yuyulması üçün nəzərdə tutulan yuyucu toz;
- səthlərin sürtülməsi üçün toz və ya krem;
- döşəmənin təmizlənməsi və parıltı verilməsi üçün maye (taxta, metlax, linoelum və s. üçün);
- unitazın təmizlənməsi üçün maye;
- şüşə təmizləyən;
- nikel, latun və polad səthlərin təmizlənməsi üçün vasitə;
- trapların və kollektorların təmizlənməsi üçün vasitə;
- böyük və kiçik zibil paketləri;
- yığışdırılası inventarın təmizlənməsi üçün dezinfeksiya məhlulu, təmizlik prosesinin başa çatdırıldığından sonra.

**Süpürgəçinin geyimi** (fərdi müdafiə vasitələri):

- maska
- üz dəbilqəsi
- birdəfəlik xalat
- əlcək

- bağlı ayaqqabı

**Təmizlik işi üçün hazırlıq:**

Geyim mərhələləri və ardıcıllığı:

- əllərin dezinfeksiyası
- birdəfəlik mayekeçirməyən arxadan bağlanan xalatın geyinilməsi
- maskanın və üz dəbilqəsinin taxılması
- əlcəklər elə geyinilməlidir ki, xalatın manjetlərini örtsün

**Təmizlik işi bitdikdən sonra:**

- əlcəklərin soyunulması geri çevirmə prinsipi ilə
- xalatın soyunulması
- maskanın və üz dəbilqəsinin çıxarılması
- əllərin təkrar dezinfeksiyası



# Əlavə №2.
# Əməkdaşlar üçün hazırlanmış qeydiyyat vərəqinin nümunəsi

## Əməkdaşlar üçün qeydiyyat vərəqi

Qeyd edilən anket əməkdaşlara imkan verir ki, məktəbəqədər müəssisədə tədris prosesinin bərpası və aparılmasını effektiv və səmərəli şəkildə planlaşdırsınlar və həyata keçirsinlər

| № | Görüləsi tədbirlər | başa çatdırılmış | cari | hələ başlanmamışdır |
|---|---|---|---|---|
| 1. | Məktəbəqədər müəssisədə pandemiya şərtlərində müxtəlif məsələlərin koordinasiyası üçün cavabdeh şəxslər müəyyən edilmişdir. | | | |
| 2. | Məktəbəqədər müəssisəyə girişə qədər içəri keçənlərin termoskrininqi və əllərin gigiyena prosedurları həyata keçirilir. | | | |
| 3. | İçəri keçənlər fərdi müdafiə vasitələrini uyğun və düzgün istifadə edirlər. | | | |
| 4. | Uşaqların qəbulu və buraxılışı məktəbəqədər müəssisənin girişində həyata keçirilir. | | | |
| 5. | Məktəbəqədər müəssisənin nümayəndəsi müəyyən edilmişdir və o da valideynlə/qanuni nümayəndə ilə əlaqə saxlayır və uşağın qəbulu/buraxılışı üzrə üzərinə öhdəlik götürür. | | | |
| 6. | Əməkdaşlar fərdi müdafiə vasitələrindən istifadə edirlər. | | | |
| 7. | Əməkdaşlar arasında fiziki/sosial məsafəyə əməl edilir. | | | |
| 8. | Binada təbii və ya süni ventilyasiya sisteminin effektiv fəaliyyəti təmin edilmişdir. | | | |
| 9. | COVID-19 pandemiya şərtlərində fəaliyyət göstərən məktəbəqədər müəssisələrə uyğunlaşdırılmış başqa tövsiyələrin və tələblərin icrası təmin edilmişdir. | | | |
| 10. | Məktəbəqədər müəssisədə uşağın zorakılıqdan mühafizəsi təmin edilmişdir. | | | |
| 11. | Məktəbəqədər müəssisə distant tədris prosesində hər hansı forma ilə zorakılıq əməlini təsbit edən kimi, ona verilən səlahiyyətlər çərçivəsində qüvvədə olan qanunvericiliyə uyğun olaraq hərəkət edir. | | | |
| 12. | Məktəbəqədər müəssisədə uşağın fərdi məlumatları mühafizə olunur. | | | |
| 13. | Məktəbəqədər müəssisədə uşağın məlumatlandırılması təmin edilmişdir və qərarın qəbul edilmə prosesinə cəlb olunması həvəsləndirilir. | | | |
| 14. | Məktəbəqədər müəssisənin əməkdaşları məktəbəqədər müəssisələrdə tədris prosessinin başlanılmasına qədər tələblərin öyrənilməsi və analizi prosesinə munisipaliteti dəstəkləyirlər. | | | |

| № | Görüləsi tədbirlər | başa çatdırılmış | cari | hələ başlanmamışdır |
|---|---|---|---|---|
| 15. | Məktəbəqədər müəssisə konsultasiya şurasının yardımı ilə, COVID 19-un səbəb olduğu məsələlərə dair vaxtlı və birgə iştirak prinsipinə əsaslanmış qərarları qəbul edir. | | | |
| 16. | Əməkdaşlar hazırdırlar ki, tənzimləyici orqanlar tərəfindən çatdırılan tövsiyələri nəzərə alsınlar, tənzimləmələrin təcrübədə tətbiqi təmin edilmişdir. | | | |
| 17. | Məktəbəqədər müəssisədə izolyasiya otağı ayrılmışdır. İzolyasiya otağının təbii və ya süni ventilyasiya sistemi vardır. İzolyasiya otağında var: stul / divan / taxt, əlüzyuyan, birdəfəlik salfet, duru sabun və əl üçün antimikrob vasitələr. | | | |
| 18. | İzolyasiya otağında uşağa yönəlmiş, təhlükəsiz, stresdən azad fiziki və sosial mühit yaradılmışdır | | | |
| 19. | İzolyasiya otağı sulu qayda ilə təmizlənir və boşalan kimi dezinfeksiya olunur. | | | |
| 20. | Yüksək temperatur qeyd olunan kimi, müəssisənin nümayəndəsi valideynlə əlaqə saxlayır, uşağın səhhəti ilə bağlı ona məlumat verir, xahiş edir ki, uşağı məktəbəqədər müəssisədən aparsın və növbəti addımlar haqqında məlumat verir. | | | |
| 21. | Yüksək temperaturu ($37^{0}$ C və ya çox) olan uşağın və personalın kimliyi və onun sağlamlığı haqqında məlumatın məxfiliyi qorunmuşdur. | | | |
| 22. | Məktəbəqədər müəssisədə əməkdaşlar ümumi istifadə otaqlarında, məsələn, bufet və ya istirahər otağında 1 metrlik məsafəyə əməl edirlər. | | | |
| **Tədris prosesi** | | | | |
| 1. | Məktəbəqədər müəssisə məktəbəqədər təhsil xidmətinin çatdırılması formasını seçmişdir. | | | |
| 2. | Əməkdaşlar məktəbəqədər təhsil xidmətinin hər hansı bir forma ilə çatdırılmasında və həyata keçirilməsində maksimal səyə müraciət edirlər. | | | |
| 3. | Əməkdaşlar tərəfindən təhsil prosesi müəssisənin resurslarının və hər bir uşağın maraqlarının və imkanlarının nəzərə alınması ilə planlaşdırılmışdır. | | | |
| 4. | Birinci görüşlər (məsələn, uşaqların qəbulu) açıq məkanda keçirilir, bunun üçün müəssisənin açıq məkanlarından istifadə edilir – həyət, veranda və s. Sözügedən təcrübəni həyata keçirdikdə, böyüklərin arasında 1 metrlik fiziki/sosial məsafəyə riayət olunur və fəallıqda ağlabatan sayda şəxslər iştirak edirlər. | | | |
| 5. | Ümumi istifadə məkanlarında (həyət, zal, bufet və s.) fəallıqlar əvvəlcədən müəyyən edilmiş cədvələ uyğun həyata keçirilir ki, bir məkanda uşaqların və personalın sayı mümkün qədər azaldılmışdır. | | | |

| № | Görüləsi tədbirlər | başa çatdırılmış | cari | hələ başlanmamışdır |
|---|---|---|---|---|
| 6. | Hər bir qrupla yalnız eyni bir dəstə işləyir. | | | |
| 7. | Qrupda xüsusi təlim ehtiyacı olan uşağın halında, qrupda həm tərbiyəçi, eləcə də köməkçi işləyir. | | | |
| 8. | Əməkdaşlar seçilmiş cari formaya (formalara) əsasən keçirilən tədris prosesində uşaqları mütəmadi qeydə alırlar. | | | |
| 9. | Əməkdaşlar uşaq tərəfindən müxtəlif seçilmiş cari formaya (formalara) əsasən keçirilən tədris prosesindən yayınma səbəblərini təyin edirlər. | | | |
| 10. | Yayınmanın səbəbi uşağın/qanuni nümayəndənin tərəfindən müvafiq texniki dəstəyin (cihazın və internetin əlçatması) olmadığı halda, əməkdaşlar problemin həllinə qədər həmkarları ilə birlikdə mövcud imkanları nəzərdən keçirirlər və uşağın həm canlı, eləcə də distant formada tədris prosesinə cəlb olunması üçün alternativ tədbirləri planlaşdırırlar. | | | |
| 11. | Tədris personalının evdən qoşula bilmədiyi və ya müvafiq cihazı/interneti olmadığı halda, məktəbəqədər müəssisə müvafiq personal (tərbiyəçi, xüsusi müəllim və başqa tədris personalı) tərəfindən fəallıqların planlaşdırılması və keçirilməsi üçün uyğun otağın ayrılmasını təmin edir. | | | |
| 12. | Əməkdaşlar uşaqların ehtiyaclarını, imkanlarını, maraqlarını və resurslarını eyniləşdirməyi təmin edirlər. | | | |
| 13. | Məktəbəqədər müəssisədə distant tədris prosesi kənarında qalan uşaqların qeydə alınması və səbəblərin öyrənilməsi həyata keçirilir. | | | |
| 14. | Məktəbəqədər müəssisədə etika və davranışın ümumi normalarına və təhlükəsizliyə əməl edilir. | | | |
| 15. | Tərbiyəçi tədris prosesinin başlanılmasına qədər uşaqlar arasında aşkar edilən stres haqqında məlumat verən müxtəlif ədəbiyyatla, audio-video materialla tanış olmuşdur. | | | |
| 16. | Tərbiyəçi uşaqlar arasında stresin idarə edilməsi, onların emosional dəstəyi və dözümlülüyün artırılması strategiyaları ilə tanış olmuşdur. | | | |
| 17. | Məktəbəqədər müəssisənin nümayəndələri və təhsil işçiləri kiçik qruplarda valideynlərlə görüşmüşlər və lazım gəldiyi halda, fərdi görüş keçirirlər ki, uşaq haqqında əlavə məlumat əldə etsinlər. | | | |
| 18. | Tərbiyəçi əllərin yuyulması prosedurlarına, əllərin üzə toxunulmamasına, öskürmə qaydasına (uşaqlar elə öskürməlidirlər ki, başqasına narahatlıq və təhlükə yaratmasınlar) aid oyunları axtarıb tapmışdır. Qeyd edilən oyunlar uşaqlar üçün həvəsli və maraqlıdır. | | | |

| № | Görüləsi tədbirlər | başa çatdırılmış | cari | hələ başlanmamışdır |
|---|---|---|---|---|
| 19. | Tərbiyəçi valideynə/qanuni nümayəndəyə müxtəlif strategiyanı çatdırır ki, uşaqla viruslarla, bakteriyalarla və bununla bağlı prosedurlar haqqında onun yaş qrupu üçün aydın dildə və vasitələrlə necə söhbət aparmaq olar. Bu halda da, sözügedən strategiyalardan istifadə etmək olar. Yaxşı olardı ki, tərbiyəçi valideynə sözügedən mövzu üzrə uşaq üçün ədəbiyyatı çatdırsın, oxşar materialın yerləşdiyi internet səhifəni göstərsin (şəkillər, elektron kitab, video və s.). | | | |
| 20. | Tərbiyəçi valideyni uşaqla dialoq aparmağa, ona məktəbəqədər müəssisə ilə münasibətdə suallar verməyə, uşağın hansı gözləntilərinin olmasına, əvvəlcədən əhval-ruhiyyənin və müxtəlif fəallıqlara cəlb olunmaqla lazımi gözləntilərin yaradılmasına həvəsləndirir. | | | |
| 21. | Tərbiyəçinin valideynlə/qanuni nümayəndə ilə intensiv kommunikasiyası var. | | | |
| **Sanitar-gigiyena normalarına əməl edilməsi** | | | | |
| 1. | Məktəbəqədər müəssisədə Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınların Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi tərəfindən verilən tövsiyələrin yerinə yetirilməsi təmin edilmişdir. | | | |
| 2. | Su/sanitar qovşaqların sulu təmizlənməsi üçün protokol işləyib hazırlanmışdır və bunda da təmizliyin müddəti, istifadə olunan sanitar-gigiyena vasitələri, çanaqların, unitazların və sairələrin səthlərinin təmizlənmə qaydaları yazılmışdır. | | | |
| 3. | Yığışdırma, təmizlik, dezinfeksiya, qida və su istifadəsi üzrə protokollara əməl edilməsi təmin edilmişdir. | | | |
| 4. | Səthlərin dezinfeksiya protokoluna əməl edilmişdir. | | | |
| 5. | Mətbəxin sanitar-gigiyena vəziyyəti və qida məsələlərinin idarə edilməsi təmin edilmişdir. | | | |
| 6. | Dispenserlər məktəbəqədər müəssisənin binasının girişində yerləşdirilmiş, ümumi faydalanma məkanları yanında yerləşdirilmiş (izolyasiya otağı, bufet və s.) və hər kəs üçün əlçatandır. Eləcə də əllərin təmizlənməsi təlimatı müşayiət edir. | | | |
| 7. | Əllərin yuyulması üçün lazımi şərtlər vardır: əlüzyuyan çanaq, axar suyun ardıcıl çatdırılması, duru sabun və birdəfəlik salfetkalar. | | | |
| 8. | Məktəbəqədər müəssisədə sulu qaydada təmizlənməsi mümkün olmayan oyuncaqlardan istifadə olunmur. | | | |
| 9. | Tədris resurslarına (oyuncaqlara və s.) qulluq tövsiyələrə əsasən həyata keçirilir. | | | |
| 10. | Təmizlik üçün nəzərdə tutulmuş avadanlıq (məsələn, bez, tualet-unitaz təmizləyici fırça və s.) yuyulur və qurudulur. | | | |

| № | Görüləsi tədbirlər | başa çatdırılmış | cari | hələ başlanmamışdır |
|---|---|---|---|---|
| 11. | Müəssisənin təmizlik üçün nəzərdə tutulmuş avadanlıqları və vasitələri var. | | | |
